**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu**

**TEZİSLƏR**

# MÜSƏLMAN ŞƏRQİNİN ÇOXƏSRLİK TARİXİNDƏ DÖNÜŞ NÖQTƏSİ – TÜRKİYƏ CÜMHURİYYƏTİ

**Beynəlxalq Elmi Konfrans**

**Bakı – 2023**

**Təşkilat Komitəsi:** akademik **Gövhər Baxşəliyeva**
f.ü.f.d., dosent **Ruhəngiz Cümşüdlü**
f.ü.f.d., dosent **Gülər Qafqazlı**
f.ü.f.d., dosent **Namiq Məmmədov**
f.ü.f.d. **Vüqar Məmmədov**

**“Müsəlman Şərqinin çoxəsrlik tarixində dönüş nöqtəsi – Türkiyə Cümhuriyyəti”**
mövzusunda Beynəlxalq Elmi Konfransın tezisləri. Bakı, “Elm”, 2023, - 112 səh.

**ISBN:** 978-9952-569-14-8

© akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, 2023

# TARİXİN BÜTÜN SINAQLARINDAN UĞURLA ÇIXAN TÜRKİYƏ CÜMHURİYYƏTİ – 100

**Gövhər Baxşəliyeva**
*AMEA-nın vitse-prezidenti v.i.e.,*
*akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun*
*baş direktoru, akademik*

2023-cü il 29 oktyabrda bəşər tarixində çox əlamətdar hadisə – Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur. Bu bütün türk xalqları tarixində, eləcə də bütöv müsəlman Şərqinin çoxəsrlik tarixində dönüş yaratmış böyük hadisədir. Belə ki, məhz bu gün Türkiyə Böyük Millət Məclisi Cümhuriyyəti elan etdi. Bu türk milləti və Türkiyə Cümhuriyyəti uğrunda ölüm-dirim savaşı aparan mücahidlərin böyük zəfəri, Osmanlı dövlətini parçalayıb məhv etmək istəyənlərin üzərində inamlı qələbə idi.

Cümhuriyyətin ilk illəri çətin oldu, irticaçı daxili və xarici qüvvələr ölkədə müxtəlif təxribat və iğtişaşlar törətsə də, Qazi Mustafa Kamal Atatürk öz silahdaşları ilə birlikdə ölkənin bölünməzliyi və dünyəvi dövlət kimi gələcək inkişafını təmin etdi.

1940-cı illərin sonunda ölkədə çoxpartiyalı sistem yaradıldı. Sürətli iqtisadi inkişaf və islahatlar dövrü başladı. Ölkənin beynəlxalq nüfuzu artdı, 1952-ci ildə Türkiyə NATO-ya daxil oldu. Növbəti illər siyasi təlatümlər və hərbi çevrilişlərlə müşayiət olundu. Daha sonra Turqut Özalın rəhbərlik etdiyi Ana Vətən Partiyası, Süleyman Dəmirəlin başçılığı ilə Doğru yol Partiyası, Nəcməddin Ərbakanın Rifah Partiyası seçkilərdə qalib gələrək, öz hökumətlərini formalaşdırdılar. 2002-ci ildə Rəcəb Tayyib Ərdoğanın başçılığı ilə Ədalət və İnkişaf Partiyası hakimiyyətə gəldi.

Keçən 100 il ərzində Türkiyə Cümhuriyyəti böyük inkişaf yolu qət edərək, müxtəlif problemlərə baxmayaraq, böyük sosial-iqtisadi və siyasi inkişafa nail olub, modern ordu qurulub, ölkə hərtərəfli güclənib, regional və beynəlxalq məsələlərdə söz sahibinə çevrilib. Türkiyə hərbi-sənaye potensialına və silahlı qüvvələrinə görə NATO-da ikinci dövlətdir, “Böyük iyirmilik”də isə ÜDM-nin artım surətinə görə ilk beşliyə daxildir.

Bu gün Türkiyənin və onun Prezidenti R.T.Ərdoğanın liderliyi ilə Türk Dünyası birləşir və bu yolda bir çox irəliləyişə nail olunub.

Məhz uzaqgörən siyasətin davamı olaraq Azərbaycan-Türkiyə ikitərəfli əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə çatıb və bu gün də yüksələn xətlə inkişaf etməkdədir.

Beləliklə, tarixin bütün sınaqlarından uğurla çıxan Türkiyə Cümhuriyyəti günü-gündən inkişaf edərək, regionda və dünyada öz mövqeyini daha da möhkəmləndirərək, bütün dünya türklərinin fəxr etdikləri, qürur duyduqları, arxalandığı bir məkana çevrilmişdir.

# AZƏRBAYCAN-TÜRKİYƏ ƏMƏKDAŞLIĞINDA İLHAM ƏLİYEV VƏ R.T.ƏRDOĞAN DOSTLUĞU BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ SİYASİ MODELDİR

**Rəna Mirzəzadə**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, Siyasətin fəlsəfəsi və sosiologiyası şöbəsinin müdiri,*
*AMEA Qadınlar Şurasının sədri,*
*f.e.d., professor*

− XXI əsr müasir Türkiyə-Azərbaycan qarşılıqlı əməkdaşlıq əlaqələri müasir dövlətlərarası beynəlxalq münasibətlər nəzərindən universal bir modeldir. Niyə? Təbii ki, beynəlxalq münasibətlər kontekstində ölkələrarası əlaqələrdə bir-birinə etibarlılıq, inam mühitində bir böhran, bir ikili standartlılıq vardır. Belə ki, Türkiyə və Azərbaycanın bu iki ölkənin dövlət rəhbərlərinin qarşılıqlı dostluq, həmrəylik münasibəti müasir beynəlxalq dünyanın, Birlik nümunəsi fəlsəfəsi kimi dəyərləndirilir və effektiv siyasi-diplomatik əməkdaşlıq modelidir.

− Azərbaycan Türkiyə münasibətlərində hər iki ölkə maraqlıdır. Bu siyasi-diplomatik fəlsəfədə Türkiyə Azərbaycan üçün beynəlxalq dünyada müttəfiq və dayaqdırsa, Azərbaycanın da güclü dövlət olması Türkiyənin dünya siyasətində gücünün və rolunun yüksəlməsidir. Hər iki dövlətin münasibətləri siyasi hüquq nəzərindən beynəlxalq hüquqi normalara əsaslanır.

− 1993-cü il apreldə Kəlbəcərin işğalından sonra Türkiyə Ermənistanla öz sərhədlərini bağladı. Türkiyə Ermənistana qarşı sanksiya tətbiq edən dövlətdir.

− Keçmiş Ermənistan-Azərbaycan Qarabağ münaqişəsi başlayandan 30 illik işğal dövründə Türkiyə beynəlxalq hüquq normaları çərçivəsində Azərbaycanın haqlı tələblərini həmişə müdafiə edərək, respublikanın ərazi bütövlüyü və suveren hüquqlarının təminatında böyük səylər aparmışdır.

− Türkiyə və Azərbaycanın arasındakı əlaqələrin xarakterinin bir modeli də Türkiyənin dövlət və hökumət rəhbərlərinin xaricə ilk rəsmi səfərlərinin Azərbaycandan başlanması siyasi-diplomatik göstəricidir.

Azərbaycan Prezidenti İlham Əliyev söyləyir ki: “Mən Türkiyəni doğma Vətən hesab edirəm” və bu paralellikdə Türkiyə Prezidenti R.T.Ərdoğan da vurğulayır: “Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır”.

− Azərbaycan-Türkiyə qarşılıqlı əməkdaşlıq əlaqələri mətnində önəmli hadisə Ermənistan-Azərbaycan münasibətlərinin normal vəziyyətə düşməsi məsələsində Türkiyənin bu prosesdə sülh danışıqlarına dəstək verməsidir. Ermənistan Baş naziri N.Paşinyanın Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 2023-cü il iyununda keçirilən inauqurasiyasında iştira-

kı adi bir protokol qaydalı hadisə yox, bu, bütün Cənubi Qafqaz bölgəsinin perspektivdə dünyada ölkələrarası beynəlxalq münasibətlərdə yeni "münaqişədən – müharibəyə, müharibədən-sülhə" dönüş ehtimalı prosesinə bir gediş, "ya hərb, ya sülh" gerçəkliyində siyasi sosioloji modeldir.

– Cənubi Qafqaz regionunda yeni strateji reallıqlar prizmasında regionun yenilənən geosiyasi xəritəsi formalaşır. Prezident İlham Əliyev söyləyir ki: "Azərbaycan regionda yeni reallıq yaradır" (1). Bu aspektdən də artıq ehtimal fəlsəfəsi yox, siyasi gerçəklikdir ki, Azərbaycanın Vətən müharibəsində Zəfər çalması məhz Cənubi Qafqazda yeni reallığın və dəyişən yeni geosiyasi xəritənin əsas parametrləridir.

– Fikrimizi Birinci vitse-prezident Mehriban Əliyevanın sözləri ilə yekunlaşdırıram: "Azərbaycan və Türkiyə daim bir-birinin yanındadır. Bizim birliyimiz, bizim gücümüz məhz bundadır! Uca Tanrı xalqlarımızı qorusun".

# RIZA ŞAH PEHLEVİ'NİN TÜRKİYE SEFERİ

**Cavid Qasımov**
*Van Yüzüncü il Universiteti, Ədəbiyyat fakültəsi*
*Tarix bölümü, Professor (Türkiyə)*
*cavidahmedoglu@gmail.com*

**Nezahat Demir**
*Türkiyə Milli Təhsil Nazirliyi (Türkiyə)*
*nzhtdmr65@gmail.com*

1920'lı yıllarda İran Kaçarlar Hanedanlığının zayıflaması döneminde yetenekli bir asker olan Rıza Han ülke dâhilindeki isyanların yatırılmasında çok önemli hizmetlerde bulundu. Ülke içindeki sorunların çözülmesinde Ahmet Şah Kaçar'ın başarısızlık göstermesi Rıza Han ve Seyyid Ziyaeddin Tabatabai'nin 21 Şubat 1921'de darbe yapmasıyla sonuçlandı. Darbe sonucunda Seyyid Ziyaeddin Tabatabai İran'ın Başbakanı, Rıza Han ise ordu komutanlığı görevine atanmış oldu. Her geçen gün siyasi ve askeri olarak güçlü bir konuma gelen Rıza Han 12 Aralık 1925'te Meclisi'nin kararıyla İran Şahı olarak ilan edildi. Kendisi 15 Aralık 1925'te ise yemin töreni yaparak İran şahı olarak göreve başlamıştır.

Rıza Han Pehlevi komşu devletlerle ve özellikle de Türkiye Cumhuriyeti ile iyi ilişkilerin kurulması konusunda daha çok çaba yapmıştır. Özellikle de Gazi Mustafa Kemal Atatürk'ün önderliğinde Türkiye'de yapılan modernleşme faaliyetleri Rıza Han Pehlevi'nin daha çok ilgisini çekmekteydi. Kendisi 1930'lu yıllarda İran'da birçok alanda yapmış olduğu reformlarda Atatürk'ü rol model olarak almıştır.

Rıza Şah Pehlevi'nin Türkiye'ye ilk resmi seferi 10 Haziran 1934'de gerçekleşmiştir. Kendisi Türkiye seferini 16-17 gün olarak planlamıştı. Fakat Cumhurbaşkanı Gazi Mustafa Kemal Atatürk'ün ricası üzerine Eskişehir, Balıkesir ve İstanbul'u ziyaret etmek için sefer süresini 27 güne çıkardı.

Rıza Şah Pehlevi'nin Türkiye seferi çok verimli geçti. İki ülke arasındaki uzun yıllardan beri devam eden sorunlar konusunda değerlendirmeler yapıldı. Özellikle de iki ülke arasında sınır sorunları halledildi. 20-21 Eylül 2023 tarihinde Azerbaycan Milli Bilimler Akademisi Ord. Prof. Z.M. Bünyadov adına Şarkiyat Enstitüsü tarafından Türkiye Cumhuriyeti'nin 100. kuruluş yıl dönümünü kutlamak amacıyla yapılacak olan **"Yüzyıllık Doğu Müslüman Tarihinde Dönüm Noktası - Türkiye Cumhuriyeti"** başlıklı Uluslararası bilimsel kongre sunmak istediğimiz bildiride Rıza Han Pehlevi'nin Türkiye seferi ile ilgili bilgi vermeyi amaçlıyoruz

# KAFKAS İSLAM ORDUSU VE ENVER PAŞA

**Nurhan Aydın**
*Qars Qafqaz Universiteti, Fənn-ədəbiyyat fakültəsi,*
*Tarix bölümü, professor (Türkiyə)*

**Perihan Aksu**
*Tədqiqatçı yazar (Türkiyə)*
*peri898976@gmail.com*

Beyaz Rus ordularının saldırıları ile Kuzey Kafkasya'daki mücadele gittikçe şiddetleniyordu. Acilen yardıma ihtiyaç vardı. İstanbul'daki muhaceret çevrelerinin yoğun çabası ile Osmanlı Devleti harekete geçti. Osmanlı Devleti ile aralarında Azerbaycan Milli Şurası da bulunan yeni Kafkasya devletleri arasında 8 Haziran 1918 tarihinde imzalanan Batum Antlaşması'ndaki ''dostluk ve karşılıklı yardım anlaşması'' maddesi gereğince Osmanlı Devleti Kuzey Kafkasya'ya yardım için harekete geçti.

Harbiye Nazırı Enver Paşa da muhtelif tepkilere rağmen Mart 1918'de Müslümanlardan oluşan Azerbaycanlı ve Dağıstanlı gönüllüler birliğinin katılımıyla Doğu Ordular Grubu'na bağlı yaklaşık 20.000 kişiden oluşan Kafkas İslam Ordusu'nu kurmuştur. Enver Paşa, kurtuluşunu Doğu'da görmüş ve vatanın kurtarılmasını da bu ordu aracılığıyla sağlamak istemiştir. Kurulan Kafkas İslam Ordusu'nun Başına kardeşi Nuri Paşayı getirmiştir. Enver Paşa isteğiyle Rus işgali altında bulunan Azerbaycan ve Dağıstan'ı Rus işgalinden kurtararak bağımsızlıklarını ilan etmelerine yardımcı olmak, Orta Asya ile olan bağlantısının önünü açmak ve Kafkasya'da bulunan askerlere eğitim ve silah desteği vermek amacıyla kuruldu. Bu amaçla kurulan Kafkas İslam Ordusu, Bakü Muharebesi'ni kazanarak 15 Eylül 1918'de Nuri Paşa komutasındaki Kafkas İslam Ordusu ve Azerbaycan Milli Kolordu Bakü'ye girerek şehri Rus işgalinden kurtardı. Kafkas İslam Ordusu, Dağıstan'da kurulmuş olan Kuzey Kafkasya Cumhuriyeti'ne askeri destek de sağlamıştır.

Şiddetli çarpışmalar sonucu Kızıl ve Beyaz Rus birlikleri Kuzey Kafkasya'nın önemli bir bölümünden çıkartılmıştı. Kuzey Kafkasya'nın tüm bölgelerinde devlet teşkilatlanmasını sağlamlaştırmak için çoğu Çerkez Osmanlı subayları ile Millî Hükümet sıkı bir işbirliği içinde çalışıyorlardı. Her şeyin iyiye gittiği, Millî Hükümet'in güvenli bir çalışma ortamı bulduğu bir sırada, İstanbul'dan gelen bir haber bütün planları alt üst etti.

Yıldırım Orduları Grubu'nun Suriye-Filistin cephesinde Megiddo Muharebesi yenilgisi ve sonrasında Edmund Allenby komutasındaki Büyük Britanya Ordusu'nun Şam ve Halep'i işgal etmesiyle Osmanlı Devleti ateşkes istemek zorunda kaldı. I. Dünya Savaşı'ndan yenilgiyle çıkan Osmanlı Devleti 30 Ekim tarihinde Mondros Mütarekesi'ni imzalamış, mütareke gereği Kafkas Orduları, Osmanlı Devleti'nin savaştan önceki sınırlarına çekilmesi gerektiğinden Kafkas İslam Ordusu 16 Kasım'da Bakü'yü terk etti ve

Aralık 1918 tarihinde Osmanlı askerlerinin Azerbaycan'dan çekilmesi tamamlandı. Kuzey Kafkasya'ya son derece olumlu hizmetler veren ordu, emir gereği 28 Aralık 1918'de gözyaşları arasında Kafkasya'dan ayrıldı. Kafkas İslam Ordusu'ndaki askerlerin çoğu Doğu Anadolu'ya çekilerek, 15. Kolorduya katılmıştır.

# TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA QARABAĞ PROBLEMİ

**Zemfira Hacıyeva**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*Tarix üzrə elmlər doktoru*
*zemfira.hajiyeva@outlook.com*

2020-ci il 10 noyabrda bitən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yeni başlandığı zaman qardaş Türkiyə tarixçilərinin marağına səbəb olmuş, və onlar bu münaqişənin köklərinin haradan qaynaqlandığı araşdırmaq məqsədilə ilk təşəbbüsdə olanlardandır. Bu səbəbdən ölkədə Qarabağ mövzusuna aid bir sıra tədqiqatlar və yazılar üzə çıxmışdır.

Türkiyə Cümhuriyyəti Başkanlığı Osmanlı Arxivin kollektivi 1992-1993-cü illərdə Osmanlı dövlətinin Azərbaycan xanlıqları ilə münasibətlərinə aid sənədli materialları toplayıb müasir türk əlifbasına transliterasiya edərək (hər bir sənədin qısa məzmununu göstərməklə) iki cilddən ibarət sanballı sənədlər toplusunu nəşr etdirmişlər. Topluda əsasən Osmanlı hökumətinin və sərhəd paşalıqlarının Qarabağ xanlığı ilə əlaqələrini özündə əks etdirən müəyyən sənədli materiallar mövcuddur.

Qarabağın qədimdən Azərbaycanın tərkib hissəsi olduğunu təsdiq edən müəlliflər çox maraqlı faktı gündəmə gətirmişlər: XVIII əsr Türkiyə səyyahı Evliya Çələbi Qarabağı "kiçik Azərbaycan" adlandırmışdır.

Əsərdə tarixi qaynaqlara əsaslanaraq Qarabağın Oğuz xanın üçüncü oğlu Ulduzun böyük oğlu Əfşarın nəvələrindən, Cavanşir qəbiləsinin Sarcalı nəslinin mülkü olduğunu iddia edilir, bu nəslin Hülaki xanın dövründə Anadoluya gəldiyi, Teymur istilası zamanı Qarabağa döndüyü söylənilir, həmçinin bu nəslin Qarabağdakı köklərinin İslamdan öncəyə qədər mövcudluğu fərz edilir.

# AZƏRBAYCAN RESPUBLİKASININ TÜRKİYƏ CÜMHURİYYƏTİ İLƏ İQTİSADİ ƏLAQƏLƏRİNİN MİLLİ KÖKLƏR ÜZƏRİNDƏ QURULMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Ramilə Dadaşova**
*AMEA Qafqazşünaslıq İnstitutunun icraçı direktoru*
*Siyasi elmlər doktoru, dosent*
*dadashova.ramila@rambler.ru*

Ümummilli lider Heydər Əliyev milli köklərin, adət-ənənələrin, dilin, dinin, tarixi keçmişin eyniliyinə görə Türkiyə Cümhuriyyəti ilə münasibətlərin inkişaf etdirilməsinə əhəmiyyət vermişdir. Heydər Əliyev Sovet ittifaqının dağılmasından sonra türk dövlətlərinə sahib çıxaraq onların inkişaf etdirilməsi üçün Türkiyənin üzərinə düşən vəzifələr haqqında Qazi Mustafa Kamal Atatürkün vəsiyyətinin yerinə yetirilməsi zamanının gəldiyini, Türkiyə ilə Azərbaycan arasında iqtisadi, ticarət, elm, mədəniyyət, təhsil sahəsində, bütün başqa sahələrdə əlaqələrin başqa dövlətlərlə olan əlaqələrdən dostluq, qardaşlıq əlaqələri kimi fərqlənəcəyini bildirirdi. Heydər Əliyev beynəlxalq təşkilatlarla, böyük dövlətlərlə əlaqələrdə Türkiyənin dünyadakı nüfuzundan və təsirindən istifadə edərək Azərbaycana kömək edəcəyinə inanırdı. Ümummilli lider həmçinin iqtisadi nöqteyi-nəzərdən, həm də qardaşlığımızın möhkəmləndirilməsi nöqteyi-nəzərindən Türkiyə ilə iqtisadi əlaqələrin inkişafına üstünlük verirdi. Çünki bu, iqtisadi nöqteyi-nəzərdən Azərbaycan üçün çox əhəmiyyətli idi, həm də Azərbaycan və Türkiyə arasında tarixi dostluğu, qardaşlığı davam etdirmək üçün vacib idi. Türkiyənin və Azərbaycanın iş adamları ilə görüşdə Heydər Əliyev Türkiyədəki iş adamlarının Rusiyada, başqa ölkələrdə həddindən artıq böyük miqyaslı işlər gördüyünü qiymətləndirməklə yanaşı, Azərbaycana sərmayə qoymalarının vacibliyini bildirir, əgər Azərbaycanda əlaqələrin inkişaf etdirilməsinə maneələr varsa, həmin maneələri birlikdə dəf etməyə çağırırdı. Heydər Əliyev neftin ixracı üçün boru xəttinin Türkiyədən keçməsinə həmişə əhəmiyyət vermişdir. Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev neft boru xəttinin Türkiyədən keçməsi üçün çox çalışdılar və Heydər Əliyevin təşəbbüsü ilə yaradılan Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin Türkiyə ərazisindən keçirilməsinə nail oldular. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri barədə imzalanmış saziş Azərbaycan üçün çox əhəmiyyətli olduğu kimi, boru kəmərinin Türkiyədəki boğazların təhlükəsizliyini təmin etmək və sərmayə götürülməsi baxımından da böyük əhəmiyyəti var idi. Heydər Əliyev qazın da Türkiyəyə ixracına çalışırdı və buna nail oldu. Enerji resurslarının birgə hasilatı, dünya bazarlarına çıxmaq üçün neft və qaz kəmərlərinin çəkilməsi Azərbaycanı Avropa, dünyanın çox inkişaf etmiş ölkələri ilə birləşdirdi və regionun, həmçinin Avropanın təhlükəsizliyinin, sabitliyinin və tərəqqisinin təminatçısına çevirdi.

# KIBRIS TÜRKLERİNİN ANADOLU'DAKİ MİLLİ MÜCADELEYE DESTEĞİ

**Turgay Bülent Göktürk**
*Doğu Akdeniz Universiteti, Atatürk Araşdırma*
*Və Tətbiqi Mərkəzi, dosent (Şimali Kipr)*
*turgay.gokturk@emu.edu.tr*

1877-78 Osmanlı–Rus savaşını fırsat bilerek Osmanlılara yardım vaadi ile Kıbrıs'a giren İngiltere, 1914 yılında da Osmanlı'nın kendisine karşı savaşa girmesini öne sürerek adayı ilhak etmiş ve topraklarına katmıştır.

Hiçbir zaman Anadolu Türklüğünden kendilerini ayrı olarak görmemiş olan Kıbrıs Türkleri, bu süreçte de Anadolu'daki soydaşları ile olan ilişkilerini sürdürmüşlerdir. Kıbrıs Türklerinin zor günler geçirdiği bu dönemde Osmanlı İmparatorluğu dağılmış ve büyük bölümü işgal edilmiş durumdaydı. 1919 yılında Enosis hayallerinin artık gerçekleşeceği, hatta Anadolu'nun Ege bölümünü de içine alacak şekilde büyük bir Yunan devleti kurulacağı şeklindeki Rum tahrikleri karşısında Kıbrıs Türklerinin tek amacı, 1919- 1922 yılları arasında hem örgütlü bir birlik yaratmak, hem de Anadolu'da Mustafa Kemal'in başlattığı Kurtuluş Savaşı'nı İngiliz Sömürge Yönetiminin baskı ve denetimine rağmen, elindeki tüm imkanlarla desteklemek olmuştur.

Milli Mücadele yıllarını çok canlı olarak yaşayan ve her yönü ile bu savaşla özdeşleşen Kıbrıs Türkleri, İngiliz Sömürge Yönetimi'nin 1915-1919 yıllarında Kıbrıs'ta, Türkçe gazete yayımlanmasını engellemesine rağmen adanın her yanında kurulan cemiyetler, kulüpler, dernekler kanalıyla bilgilendirme faaliyetlerini sürdürmüşlerdir. 1919'dan itibaren yaşama geçirilen gazete ve dergiler ile Türkiye'deki milli direnişi, Kıbrıs Türk toplumuna duyurmaya çalışan Ada Türkleri, düzenledikleri çeşitli kampanyalarla, müsamerelerle, sahneledikleri oyunlarla yardım toplayarak Türkiye'deki kurtuluş mücadelesine maddi manevi katkı sağlamışlardır. Güçlerinin yetersiz olduğu zamanlarda da camilerde "Mustafa Kemal'in ve Türk Ordularının muzaffer olması için" dua etmişlerdir. Bununla birlikte birçok gönüllü Kıbrıs Türkü de Kurtuluş Savaşına katılmak üzere kayıklarla Anadolu'ya geçmiş ve fiilen savaşa katılmıştır.

Bu çalışmada, Kıbrıs Türkünün kendi zor şartlarına rağmen Anadolu'daki milli mücadeleye verdiği maddi ve manevi destek ile savaşa katılmak suretiyle sağladığı fiili destek ortaya koyulmaya çalışılmıştır.

# РОЛЬ CO-OP EDUCATION MODEL В ОБЕСПЕЧЕНИИ ПРАКТИКООРИЕНТИРОВАННОСТИ ОБУЧЕНИЯ

**Елена Аркадьевна Кудрицкая**
*Белорусская государственная академия связи, проректор*
*кандидат технических наук, доцент (Белоруссия)*
*e.kudrytskaya@bsac.by*

В системе высшего профессионального образования Турции Технический университет Йылдыз (Yıldız Teknik Üniversitesi, YTU) является одним из старейших и авторитетных учреждений высшего образования страны. С момента своего основания в 1911 году этот университет ведет подготовку специалистов инженерно-технического профиля по широкому кругу специальностей, постоянно востребованных на турецком и мировом рынках труда. Во многом устойчивый спрос на выпускников YTU определяется высоким качеством полученного в стенах образования и его прикладным характером. Именно подход турецких коллег к обеспечению практико-ориентированности образовательного процесса в техническом университете, реализуемый в рамках инновационной CO-OP Education Model, представляет особый интерес как для азербайджанских, так и для белорусских специалистов.

CO-OP Education Model фактически является инновационной формой традиционной стажировки, фокусированной на эффективное применение теоретических знаний в определенной сфере профессиональной деятельности. Основная цель CO-OP Education Model заключается в формировании профессиональных и деловых компетенций студентов, обучающихся по программам бакалавриата, посредством приобретения ими опыта работы по профилю подготовки в ведущих компаниях страны и мира. В результате студенты имеют возможность продемонстрировать свои навыки и компетенции потенциальным работодателям, оценить свои возможности и притязания в реальных деловых условиях. Совмещение теоретических и практических компонентов в образовательном процессе, обеспечиваемом в течение семестра благодаря этой модели, должно повысить конкурентоспособность выпускников в профессиональной сфере и создать прочные предпосылки для продвижения по карьерной лестнице.

В содержательном плане CO-OP Education Model характеризуется следующими параметрами: принципом добровольности участия (в отличие от стажировки); направленностью на подготовку студентов к профессиональной деятельности на начальном этапе деловой активности; созданием организационных условий для включения студентов в сферу деловой активности; принципом актуализации теорети-

ческих и практических знаний в рамках профессионально-образовательных кейсов; сетевой структурой организации образовательной активности в сфере бизнеса.

Для различных акторов CO-OP Education Model представляет несомненную практическую ценность, что определяется следующими причинами. Во-первых, работодатели не только формируют большую базу квалифицированных претендентов на трудоустройство в компанию, но и актуализируют спрос на востребованные в конкретной сфере деятельности профессиональные компетенции и навыки работников. Во-вторых, студенты получают реальный опыт работы в сфере будущей профессиональной деятельности, актуализируют теоретические знания в практических условиях, получают статус приоритетного кандидата в процессе найма специалистов работодателями. В-третьих, университет создает реальные возможности трудоустройства для выпускников посредством развития коллабораций с социально ответственными работодателями.

Для белорусской высшей школы опыт Технического университета Йылдыз по повышению практикоориентированности обучения представляет несомненный интерес, т.к. его организационно-управленческие аспекты вполне можно использовать в белорусских реалиях.

# РОЛЬ НЕМАТЕРИАЛЬНОГО КУЛЬТУРНОГО НАСЛЕДИЯ В СОХРАНЕНИИ ТЮРКСКОЙ КУЛЬТУРНОЙ ПАМЯТИ

**Дмитрий Иванович Наумов**
*Белорусская государственная академия связи,*
*к.соц.н., доцент, ученый секретарь(Белоруссия)*
*bsac-ss2021@yandex.by*

В условиях глобализации Турецкая Республика демонстрирует тюркским и исламским странам, всему международному сообществу как динамичные темпы и высокое качество экономического развития, так и социальную эффективность синтеза традиционного культурного наследия и современных подходов к гражданской социализации. В качестве примера необходимо привести государственную политику по сохранению тюркского нематериального культурного наследия, реализуемую посредством его включения в Репрезентативный список нематериального культурного наследия человечества ЮНЕСКО с принятием соответствующих охранных мероприятий.

В настоящее время около 30 тюркских культурных элементов, включенных в международные списки нематериального культурного наследия, получили статус нематериального культурного наследия человечества («Искусство миниатюры», «Традиционная интеллектуальная и стратегическая игра: Тогызкумалак, Тогуз Коргоол, Мангала / Гёчюрме», «Традиция рассказывания анекдотов Ходжи Насреддина», «Традиционная ахлатская каменная кладка», «Культура чая – символ идентичности, гостеприимства и социального взаимодействия», «Шелководство и традиционное производство шелка для ткачества», «Хюсн-и Хат, традиционная каллиграфия в исламском искусстве Турции» и др.). Для сохранения и развития тюркской культурной памяти это имеет огромное значение, т.к. социально значимые нематериальные культурные элементы:

– сохраняют, аккумулируют и передают следующим поколениям компоненты уникального этнокультурного наследия в виде ценностно-смысловых характеристик культуры, традиций, нормативных регулятивов и социокультурных практик, лежащие в основе тюркской идентичности;

– обеспечивают культурно-историческую связь с тюркским сообществом как ретроспективно, так перспективно, т.к. является транслятором культурного опыта общества от поколения поколению и актуализируют для прошлых и будущих поколений статус субъектов культурогенеза;

– служат для надежной этнокультурной самоидентификации его членов, позволяя им отчетливо осознавать собственную континуальность и когерентность;

– сохраняют сакральный характер культурного творчества на современном этапе культурогенеза, обеспечивают укрепление духа единства и собственного этнокультурного своеобразия тюркских народов посредством культурной коммуникации в современных исторических условиях;

– препятствуют культурной амнезии, обеспечивая в силу своей интенциональности сохранение объема культурной информации, критически важного для сохранения жизнеспособности тюркской культуры в условиях нивелирующего влияния глобализации.

Таким образом, с политико-философской и культурологической точек зрения бережное отношение к тюркскому нематериальному культурному наследию, его сохранение и популяризация обеспечивает включение традиционного социокультурного компонента в качестве нормативно-ценностной основы модернизационных процессов. В свою очередь, это обеспечивает создание инклюзивного механизма общественного и государственного развития страны, а также способствует сохранению и развитию тюркской культурной памяти как основы культурного единства стран тюркского мира.

# TÜRKİYƏ CÜMHURİYYƏTİNİN QURULUŞ VƏ İNKİŞAF FƏLSƏFƏSİ: TARİX VƏ ÇAĞDAŞLIQ

**Faiq Ələkbərli**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
*Azərbaycan fəlsəfə tarixi şöbəsinin aparıcı*
*elmi işçisi, f.ü.f.d, dosent*
*faikalekperov@mail.ru*

Türkiyə Cümhuriyyətinin yaranmasında, inkişafında və Türk millətinin yeni dönəmə qədəm basmasında iki böyük şəxsiyyət: Ziya Gökalp və Mustafa Kamal Atatürk, mühüm rol oynamışdır. Onlardan Gökalp Türkiyənin mənəvi, Atatürk siyasi-praktiki lideri idi. Əslində Türk millətinin Osmanlı İmperiyasından Türkiyə Cümhuriyyətinə sosial keçidi imperiyanın süqutundan öncə başlamışdır. Xüsusilə, 1910-1920-ci illərdə Türk millətinin həyatında baş verən sosial dəyişikliklər yeni bir mərhələyə keçmək üçün çox mühüm olmuşdur. İttihad və Tərəqqi cəmiyyətinin yaranması və ona qarşı olan təşkilatların meydana çıxması Türk millətinin sosial həyatında əsaslı dəyişikləri özü ilə bərabər gətirmişdir. Türk milləti öz dəyərlərindən çox uzaqlaşdığı üçün çıxış, qurtuluş yolu kimi daha çox qərbləşmək və islamlaşmaq üzərində dayanırdı. Amma islamlaşmaq və qərbləşmək kimi ideyalar Türk millətinin yeni bir dönəmə qədəm qoyması üçün yetərli olmurdu. Bu baxımdan Türkçülük də özünü göstərməyə başlamışdır. Çox maraqlıdır ki, bu dönəmdə Türkçülüyün mənəvi və praktiki liderləri önə çıxmaya başladılar. Doğrudur, onlardan bir çoxları bu yolda uğurlu ola bilmədilər. Əlbəttə, burada həmin dönəmin obyektiv şərtləri də mühüm rol oynamışdır. Ancaq Türk milləti heç bir dönəmdə mənəvi və siyasi-praktiki lider yetişdirməkdə çətinlik çəkməmişdir. Bu anlamda 1910-1920-ci illərdə Türk millətinin sosial həyatını geni. Ölçüdə dəyişəcək iki lider daha çox seçilirdi: Mustafa Kamal və Ziya Gökalp.

Amma onlarda bu fikirlərin yaranmasında Yusif Akçura, Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu və başqaları mühüm rol oynamışlar. Hər halda Atatürk və Ziya Gökalpdan öncə bir çox Türk ziyalıları Türk millətinin yeni bir dönəmə qədəm qoymasını ümumilikdə İslam dinində, Qərb mədəniyyətinə üz tutmaqda, ya da Türklüyü mənimsəməkdə gördüyü açıq şəkildə özünü büruzə verirdi. Türkçülük və Qərbləşmək mövzusunda Akçura və Hüseynzadənin ən uğurlu davamçısı Gökalp olmuşdur. Ziya Gökalp onlar kimi türkləşmək və islamlaşmaqla bərabər "Qərb mədəniyyətindənəm" şüarını da mənimsəmişdir. Bu şüarı mənimsəməsində ən çox Əli bəy Hüseynzadənin onun üzərində ciddi təsiri olmuşdur. Hüseynzadənin "İslam imanlı, Türk qanlı və Avropa qiyafəli" şüarını mənimsəməsinin sonucu olaraq Gökalp da Türk millətindənəm, İslam ümmətindənəm şüarlar ilə yanaşı, "Qərb mədəniyyətindənəm" də deyirdi. *Gökalpın nəzəriyyəsini Türkiyədə gerçəkləşdirən isə Atatürk olmuşdu.*

*Bu gün* Atatürkün qurduğu Türkiyə Cümhuriyyətinin varlığı ilə bağlı fərqli düşüncələr ola bilir. Hətta, bu Cümhuriyyətin ideolojisində böyük işlərlə birlikdə, bəzi yanlışlıqlar da vardır. Amma burada önəmli olan dünyada bir Türk dövlətinin varlığını qoruyub saxlaması idi. Atatürk də çalışırdı ki, o zamanın ehtiyaclarına, şərtlərinə görə Türkiyəni qorusun və yaşatsın. Bu anlamda Atatürkün gah SSRİ, bəzən də Qərb dövlətləri ilə bəlli bir çərçivədə iş birliyi etməsi anlaşılandır. Türkiyə Cümhuriyyəti qurulduqdan sonra Atatürkün fədakarlığı ilə milli tarixə (Türk Tarix Qurumuna, Türk Dil Qurumuna və başqa qurumlara) yönəlik müxtəlif işlər görülməyə başlandı.

## ALMANİYADA TÜRK MÜHACİRƏT ƏDƏBİYYATININ YAZIÇILARINA GÖRƏ KATEQORİYALARA AYRILMASI

**Səriyyə Gündoğdu**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu,*
*Türk filologiyası şöbəsinin müdiri, f.ü.f.d., dosent*
*seriyye@yahoo.com*

Almaniyada türk ədəbiyyatını araşdırarkən bu mövzuda haradan başlayacağımızı, necə davam edəcəyimizi müəyyənləşdirməyə çalışdıq. Araşdırma nəticəsində bir neçə yanaşmanın olduğu qənaətinə gəldik. “Almaniyada türk ədəbiyyatı” adlandırılan bu ədəbiyyatı “Türk mühacir ədəbiyyatı” və ya “Türk köçmən ədəbiyyatı” olaraq adlandırmaq daha düzgün olardı. Kateqoriyalara ayırarkən müəllifləri hansı dildə yazdıqlarına görə təsnif edən tənqidçilərin fikirlərinə rastladıq. Bu mənada yazarlar əsərlərini türkcə yazırsa türk ədəbiyyatına, almanca yazırsa alman ədəbiyyatına aid olduğu düşünülür. Məsələn, Feridun Zaimoğlu türk əsilli yazıçı olsa da, almanca düşünən, yazan bir yazardır. Onun əsərləri daha çox alman ədəbiyyatının bir hissəsidir. Həsən Kayıhan isə türkcə düşünən, türkcə yazan yazarlardandır. Ona görə də Həsən Kayıhan kimi yazıcılar türk ədəbiyyatına aid edilir. Elias Canetti və Cengiz Dağcı nümunələri bu fikri bir daha gücləndirir. Bolqar əsilli modernist yazıçı, Nobel mükafatı laureatı Elias Kanetti uşaqlıq və gənclik illərini İngiltərə və Vyanada keçirsə də, sonradan əsərlərini Almaniyada alman dilində yazıb. O, həmçinin alman dilində yazdığı romanlarına görə Ədəbiyyat üzrə Nobel Mükafatını qazanıb. Cengiz Dağcı isə uzun illər İngiltərədə yaşamasına baxmayaraq həmişə türkcə yazıb. Elias Canetti almanca yazdığı üçün alman ədəbiyyatına, Cengiz Dağcı isə türkcə yazdığı üçün türk ədəbiyyatına aid edilir. Bu mənada “Türk mühacir ədəbiyyatı”nın müəlliflərini iki qrupda dəyərləndirmək olar:

1. Mühacir həyatını müşahidə edərək yazan yazıçılar
2. Mühacirətdə şəxsən yaşayaraq yazan yazıcılar

Birinci kateqoriyaya Fakir Baykurt, Nevzat Üstün və digər Almanyaya ilk gələn mühacir yazıçılar daxildir. Fakir Baykurtun “Duisburq trilogiyası”, Nevzat Üstünün “Almaniya, Almaniya”, Bəkir Yıldızın “Alman çörəyi” və s. Əsl qəhrəmanları müşahidə edərək köç prosesi zamanı yaşadıqlarını öz dillərində mükəmməl şəkildə ifadə ediblər.

İkinci kateqoriyaya isə köçü şəxsən yaşamış işçi yazarlardan Fethi Savaşçı, Yüksel Pazarkaya, Aras Ören və s. birinci və ikinci nəsil mühacir göstərə bilərik. Yüksel Pazarkayanın “Oturma izni”, Fethi Savaşçının “Maşınlar çalışırken”, Aras Örenin “Gündoğduların Yükselişi” əsərlərində müəlliflərin Almaniyada yaşadıqları hadisələr öz əksini tapıb.

Yuxarıda göstərdiyimiz iki kateqoriyaya daha bir kateqoriya əlavə etmək olar, bu da türkcə düşünən və almanca yazan müəlliflərdir. Buraya Almaniyanın “Albert fon Çamisso” ədəbi mükafatına layiq görülən Alev Tekinay və Əminə Sevgi Özdamar kimi məşhur yazıçıları daxil etmək olar.

# CÜMHURİYYƏTİN İLK İLLƏRİNDƏ TÜRK-AZƏRBAYCAN ƏDƏBİ VƏ ELMİ ƏLAQƏLƏRİ

**Barat Osmanova**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu,*
*Türk filologiyası şöbəsinin aparıcı elmi işçisi*
*f.ü.f.d., dosent*

XIX əsrin ikinci yarısından sonra Avropada meydana gələn siyasi və demokratik dəyişikliklər Türkiyə və Azərbaycana da öz təsirini göstərmiş və əsrlərlə Türkiyə və Azərbaycan arasında mövcud olan siyasi, iqtisadi və ticari əlaqələr, dövrün tələblərinə uyaraq iki ölkə arasında elmi və ədəbi əlaqələrin də yaranıb inkişaf etməsinə səbəb olmuşdur.

XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanda Türkiyəyə, Türk ədəbiyyatına, sənətinə maraq artmış, Azərbaycandan Türkiyəyə təhsil almağa gedən gənclər, burada yeni fikirlərlə, yeni ideyalarla tanış olaraq Azərbaycana döndükdən sonra, mətbuatda bu fikirləri geniş şəkildə təbliğ etməyə başlamışdılar. Türkiyədə təhsil alan Hüseyn Cavid türk şeirinin təsiri ilə yeni formada, yeni ideologiya ilə gözəl şeirlər yazmış, Mirzə Ələkbər Sabir Türkiyənin özündə də yeni formalaşmağa başlayan ideologiyanın və Mehmet Emin Yurdakulun təsiri ilə siyasi satiranın Azərbaycanda gözəl nümunələrini yaratmışdı.

Ədəbiyyatdakı bu canlanma milli mətbuatda da geniş əks olunmağa başladı. Bir çox qəzet və jurnal səhifələrində, həmçinin 1923-cü ildən çap olunmağa başlayan populyar-elmi jurnal olan “Maarif və Mədəniyyət”də yeni ruhlu və yeni formada ədəbi əsərlərlə yanaşı ədəbi tədqiqata da geniş yer verilirdi. Mətbuatda fəal iştirak edən Əmin Abid, Salman Mümtaz, Əli Nazim və s. kimi gənc azəri tədqiqatçıları müasir və klassik ədəbiyyatın problemlərini şərh edir və bu tədqiqatlarını dövrün tələbinə uyğun olaraq, daha çox Türk ədəbiyyatı ilə əlaqələndirməyə çalışırdılar.

Bu elmi araşdırmalarda gənc Azərbaycan tədqiqatçıları ilə yanaşı, Türkiyədən Bakıda yeni açılmış universitetdə dərs demək üçün dəvət olunmuş İsmail Hikmət, Muhiddin, Fuat Köprülü, Mehmet Ali Avni kimi dövrünün məşhur alimləri də iştirak edirdilər. Bu alimlər klassik şeirin forması, qədim Türk şairləri və dövrün məşhur türk şairlərinin həyat və yaradıcılıqları ilə yanaşı Azərbaycan şairləri və onların yaradıcılıqları haqqında da mətbuatda məqalələrlə çıxış edirdilər.

İsmail Hikmət Bakıda işlədiyi müddətdə ilk olaraq “Azərbaycan ədəbiyyatı tarixi” adlı 2 cildlik monumental elmi bir əsər çap etdirmişdir.

Bütün bunlar gənc Azərbaycan elminin bünövrə daşlarını qoymuş və bu alimlər öz ədəbi və elmi tədqiqatları ilə Azərbaycanda ədəbiyyatşünaslıq elminin inkişafına güclü təkan vermişdilər.

# AZƏRBAYCAN–TÜRKİYƏ MƏDƏNİ ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA ATATÜRK MƏRKƏZİNİN ROLU

**Fərqanə Hüseynova**
*AMEA Memarlıq və İncəsənət İnstitutu*
*Kulturologiya üzrə fəlsəfə doktoru, dosent*

Türk dövlətləri üçüncü minilliyə vahid siyasət və mədəniyyət strategiyası üzrə hərəkət etmək və bu tendensiyanı uğur və qətiyyətlə davam etdirmək zərurəti ilə daxil oldular. Bu zərurəti bəşəriyyət tarixində ilk dəfə beynəlxalq siyasət kontekstinə gətirən Mustafa Kamal Atatürk olmuşdur. Türk dünyası birliyi ideyası, dünya türk milli dövlətlərinin vahid siyasi-kültür strategiyası konsepsiyası bu gün xüsusilə Türkiyədə və digər qardaş türk respublikalarında həm siyasi hakimiyyət, həm də ictimai-humanitar səviyyələrdə özünü göstərməkdədir. Təbii ki, böyük və müstəqil dövlətçilik təcrübəsi olan, dünya türklüyünün ana vətəni, bu ideologiyanı ən çətin dövrlərdə belə qoruyub inkişaf etdirən Türkiyə Cümhuriyyətində həmin ideya və konsepsiya daha möhkəm təməllərə və özünügerçəkləşdirmə gücünə malikdir.

XX əsrin böyük dahisi, bütün türk dünyasının iftixarı, qüdrətli Türkiyə Respublikasının yaradıcısı Mustafa Kamal Atatürkün şəxsiyyəti, fəaliyyəti və həyatının özəllikləri neçə onilliklərdir ki, insanların maraq dairəsindən çıxmaq bilmir. Türkiyə Cümhuriyyətinin Prezidenti 20-ci, xüsusilə 30-cu illərdə ölkənin inkişafı, millətin mütəşəkkilliyinin gücləndirilməsi üçün bir çox mədəni-mənəvi tədbirlər görülməsinin təşəbbüsçüsü olmuşdur. Ona görə də biz bu gün Atatürkün mədəniyyət, mənəviyyat, dil siyasətindən cəsarətlə danışır, böyük dövlət qurucusunun bu sahədəki təcrübəsinin uğurlu örnək olduğunu qəbul edirik.

Heydər Əliyev Atatürk irsinin öyrənilməsinin vacibliyini ölkədə hamıdan artıq dərk edir, onun öyrənilməsi üçün konkret tədbirlər həyata keçirilməsinə səy göstərirdi. Azərbaycan Prezidentinin sərəncamı ilə 2001-ci il mart ayının 9-da Azərbaycanda Atatürk Mərkəzi yarandı. Mərkəzin qarşısına "Türk dünyasının böyük öndəri, Türkiyə Cümhuriyyətinin banisi və ilk Prezidenti Mustafa Kamal Atatürkün türk xalqlarının tarixində tutduğu mühüm yeri nəzərə alaraq Atatürk irsini, ümumiyyətlə türk tarixi və mədəniyyətinin daha dərindən öyrənilməsi və təbliğ olunması" vəzifəsi qoyuldu. Azərbaycanda Atatürk Mərkəzinin əsasnaməsi təsdiq olunandan bir neçə ay sonra – 2002-ci ilin ilk günlərindən onun kifayət qədər məhsuldar fəaliyyəti başladı. Mərkəzin ilk uğurlu tədbiri çox mühüm və əlamətdar bir hadisəyə – Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 10-cu ildönümünə həsr edildi. Bu münasibətlə Azərbaycanda Atatürk Mərkəzi ilə Türkiyənin Azərbaycandakı səfirliyi 2002-ci il yanvarın 14-də elmi-praktik konfrans keçirdi.

Azərbaycanda Atatürk Mərkəzinin yaradılmasından ötən müddət ərzində Azərbaycan–Türkiyə elmi-mədəni əlaqələrinin möhkəmlənməsi və inkişafı baxımından bir sıra əhəmiy-

yətli işlər görülmüş, elmi konfranslar təşkil edilmiş, mədəniyyət tariximizə dair araşdırmalar aparılmış və hər iki ölkənin rəsmi nümayəndələri, yaradıcı insanları və mədəniyyət xadimləri ilə çoxsaylı görüşlər keçirilmişdir.

# TÜRKİYƏ İLƏ AZƏRBAYCAN ARASINDA İLK DİPLOMATİK MÜNASİBƏTLƏRİN YARADILMASINDA MUSTAFA KAMAL ATATÜRKÜN ROLU

**Yaqub Səmədov**
*ADPU, Ağcabədi filialı*
*t.ü.f.d, dosent,*
*yaqub. semedov63@mail.ru*

**Ədalət Quliyev**
*ADPU, baş müəllim*
*quliyevedalet62@gmail.com*

Türkiyə Cümhuriyyətinin qurucusu olan Atatürk − Qazi Mustafa Kamal (1881-1938) həm də, görkəmli hərbi və siyasi xadim olmuşdur. 1923-1938-ci illərdə o, Türkiyənin ilk prezidenti kimi ölkəyə rəhbərlik etmişdir. Atatürk adı ona 1934-cü ildə Türkiyə Böyük Millət Məclisinin qərarı ilə verilmişdir. M.Kamal Birinci Dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində böyük şücaət göstərdiyinə görə, general rütbəsi və paşa titulu ilə təltif olunmuşdu. Monarxiyanın ləğvindən (1 noyabr 1922) sonra onun təşəbbüsü ilə 1923-cü il oktyabrın 29-da Türkiyə "Respublika" elan edilmiş və bununla da müasir Türkiyə Cümhuriyyətinin əsası qoyulmuşdu.

"Daş qırılar, tunc əriyər, amma Türklük əbədidir", "Nə mutlu, Türküm deyənə", "Yurtta sülh, cihanda sülh", *"Hər bir halda mənim bədənim bir gün torpaq olacaq, amma Türkiyə Cümhuriyyəti əbədi yaşayacaq", "Məhəmməd Əmin bəy, mən dünyaya səndən 3 il əvvəl göz açmışam, ancaq bütün Türk aləmində Türkün istiqlal bayrağını sən qaldırmısan və bayraq enməsin deyə, mən sənin əlindən alıb Türkiyə üzərində dalğalandırmışam. Enməz demisən bu bayraq, enməyəcəkdir"* və s. bu kimi dahiyanə fikirlərin müəllifi olan Mustafa Kamal Atatürk 1920-ci ilin aprelin 20-də yeni yaradılan Türkiyə Böyük Millət Məclisi tərəfindən hökumət başçısı seçildikdən sonra ilkin olaraq Türkiyə ilə Azərbaycan arasında sıx əməkdaşlığın qurulmasına olduqca mühüm əhəmiyyət verdi. Türkiyə ilə Azərbaycan arasında ilk qarşılıqlı münasibətlərin tarixi göründüyü kimi, Türkiyə Cümhuriyyəti ilə deyil, Azərbaycan Xalq Cümhuriyyəti ilə Mustafa Kamal Atatürkün dövlət başçısı olduğu Osmanlı Türkiyəsi arasında yaranmışdı. Digər tərəfdən, Nuri Paşanın başçılığı ilə Türkiyə və Azərbaycan hərbçilərindən ibarət vaxtilə yaradılan Qafqaz İslam Ordusu (1918-ci il iyun ayının 4-də Batum konfransında Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı dövləti arasında imzalanan "Sülh və dostluq" müqaviləsinə əsasən yaradılan) da Azərbaycanı erməni və bolşevik-rus işğalından qurtardıqdan sonra hər iki ölkə arasında mövcud olan sarsılmaz qardaşlıq bağlarına böyük töhfə vermişdi. Bütün bunları nəzərə alan, Mustafa Kamal Atatürk təcili olaraq Mehduh Şevket Esendalı Bakıya Türkiyə Böyük Millət Məclisinin təmsilçisi kimi tə-

yin etdi. Azərbaycan Hökuməti də öz nümayəndəsini − İbrahim Əbilovu Ankaraya təmsilçisi kimi göndərdi. Baş verən bu tarixi-siyasi hadisələr əslində Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin ilk olaraq Osmanlı dövləti tərəfindən tanınması demək idi. Böyük təəssüflə, qeyd etmək lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyətinə varlığına son qoyan 1920-ci ilin aprel çevrilişi, müəyyən zaman kəsiyində dövlət səviyyəsində Türkiyə ilə formalaşan yeni münasibətlərin davamlı inkişafına imkan vermədi. Göründüyü kimi, Türkiyə ilə Azərbaycan arasında yaranan ilk diplomatik münasibətlər məlum səbəblərdən davamlı olmasa da, lakin bu münasibətlər qısa müddət ərzində hər iki ölkənin siyasi həyatında olduqca əhəmiyyətli rol oynadı. Məhz bu baxımdan, həmin dövrün qaranlıq səhifələrinin üzə çıxarılması və dərindən araşdırılması mühüm aktuallıq kəsb edir.

Azərbaycan–Türkiyə əməkdaşlığı Sovet İttifaqının süqutunda sonra getdikcə daha da dərinləşir və inkişaf edir.

Ulu öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsi ilə əsaslı təmələ sahib olan ölkələrimizin əlaqələri daha inkişaf etdirilməkdədir. Müasir dövrdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi Azərbaycan dövlətinin xarici siyasətinin çox mühüm tərkib hissəsidir. Tarixi köklərə və qardaşlığa söykənən, hər zaman həmrəylik nümayiş etdirən Azərbaycan və Türkiyə arasında əlaqələr siyasi, iqtisadi-ticari, humanitar, hərbi və s. bütün sahələrdə çox uğurla inkişaf etməkdədir. İki dövlətin rəhbərlərinin müntəzəm xarakter almış qarşılıqlı səfərləri ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynamaqda və müsbət nəticələr verməkdədir.

Yuxarıda deyilənləri yekunlaşdırıb belə nəticəyə gəlmək olar ki, o dövrdə olduğu kimi, müasir dövrdə də Azərbaycan–Türkiyə diplomatik münasibətləri ölkəmizin milli təhlükəsizliyinin təminində mühüm rol oynayır və tarixilik baxımından problemin bu istiqamətdə daha dərin araşdırılması mühüm aktuallıq kəsb edir.

# CÜMHURİYYƏTİN İLK DÖNƏMİNDƏ TÜRKİYƏ-SSRİ DİPLOMATİK MÜNASİBƏTLƏRİNDƏ Y.Z.SURİTSİN FƏALİYYƏTİ

**Səbinə Nemətzadə**
*AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu,*
*Şərq-Qərb şöbəsi, aparıcı elmi işçi*
*ilahiyyat elmləri üzrə fəlsəfə doktoru, dosent*

"Diplomatlar içərisində ən işıqlı zəka" – amerikalı həmkarı tarixçi və diplomat Uilyam Edvard Dodd Surits Yakov Zaxaroviçi belə bir ifadə ilə qiymətləndirmişdir. Dönəminin ən məşhur diplomatı Surits otuz illik diplomatik fəaliyyətində Sovet səfiri olaraq ardıcıl Danimarka, Əfqanıstan, Türkiyə Cümhuriyyəti, Norveç, Almaniya, Fransa, nəhayət Braziliyada vəzifə yerinə yetirdi.

Yakov Zaxaroviç Suritsin Türkiyə Cümhuriyyətində 11 il (1923-1934) Sovet səfiri olaraq vəzifə yerinə yetirməsi və bu vəzifənin 10-cu ilində "Lenin" mükafatı alması onun olduqca müvəffəqiyyətli bir diplomat olmasından xəbər verir. Məsələn, İlya Qriqoryeviç Ehrinburq "İnsanlar, illər, həyat" əsərinin 6-cı cildinin, 6-cı bölümündə Suritsi bir şəxsiyyət kimi təqdim edərkən, onun diplomatik həyatı haqqında bir sıra məlumatlar verərkən qeyd edir: "Surits Ankaraya göndərildiyi dövrdə Yeni Türkiyə Moskvaya ümidlə baxırdı. Və Yakov Zaxaroviç üzərinə düşən işi başa düşürdü. Düşünülür ki, qabiliyyətli usta diplomatlar susmağı bacarırlar, amma danışmağı da bacarmaq lazımdır, yaxşı olanı daha yaxşı etmək, yaxşı olmayanı, qarşısını almaq mümkün deyilsə, ən azından yavaşlatmaq və yumşaltmaq lazımdır ".

"Surits Kamalın etibarını qazanmışdır, İki ölkə arasındakı dostluğu gücləndirmişdir" − söyləyən İlya Qriqoryeviç Ehrenburq Suritsin Cümhuriyyət Türkiyəsi və onun təsisçisi Mustafa Kamal Paşa Atatürklə bağlı fikirləri haqqında da yazmışdır.

SSRİ-nin Türkiyə Cümhuriyyətində ilk səfiri olan Yakov Zaxaroviç Surits Mustafa Kamal Paşa Atatürk haqqında heyranlıqla danışırdı: "Dahiyanə zəka! Daladier onun yanında cahil bir əyalət siyasətçisidir".

Atatürk və Suritsin aralarındakı səmimiyyət, hər iki şəxsin bir-birinə olan hörməti olduqca mühüm amil idi. Mustafa Kamalın zaman-zaman Suritsin evində qonaq olması, hətta, bəzi qonaqlıqların həmin evdə keçirilməsini Yakov Zaxaroviçə həvalə etməsi, diplomatın onun etimadını qazandığından xəbər verir. Türkiyə Cümhuriyyətindən nə əvvəl, nə də sonra göndərildiyi heç bir ölkədə, Suritsin nə özü, nə ailəsi buradakı qədər xoşbəxt olmamışlar.

Artıq Türkiyəyə gəlişindən iki il sonra əksəriyyətdə Suritsin səyləri ilə SSRİ ilə Türkiyə arasında dostluq və əməkdaşlıq sazişi imzalandı.

Sovet səfiri mədəni əlaqələrin inkişafına daha çox diqqət ayırırdı. Tamamilə onun təsirli dəstəyi ilə 20-30-cu illər arası yazıçılardan Pavlenko, Nikulin, Seifullin, şair Pavlo Tıçina, film rejissoru Yutkeviç, şərqşünas-alim Barthold və Marr Türkiyəni ziyarət etdilər. 1932-ci ildə Türk futbol arenasında SSRİ-nin futbol seçmə komandasının matçı oldu. Komandanın iştirakçılarından biri olan məşhur Andrey Starostin səfirin komandanın bütün matçlarına gəldiyindən bəhs etmişdir. Əslində Surits üçün mədəni bağların genişləndirilməsi və inkişafı olduqca əhəmiyyətli idi.

O zaman üçün iki ölkə arasındakı siyasi dialoq olduqca yüksək səviyyədə idi. Surits bu istiqamətdə xeyli səy göstərmiş, mühüm işlər görmüşdü.

# ОБРАЗОВАНИЕ ТУРЕЦКОЙ РЕСПУБЛИКИ В УСЛОВИЯХ КАТАСТРОФИЧЕСКИХ ТЕРРИТОРИАЛЬНО-ДЕМОГРАФИЧЕСКИХ ПОТЕРЬ

**Рафик Сафаров**
Ведущий научный сотрудник Института истории
и этнологии имени А.Бакиханова НАНА,
доктор философии по истории, доцент

Последний этап сужения османских пределов до этнических границ произошел в первой четверти XX века в результате Балканских (1912-1913), Первой мировой (1914-1918) и Национально-освободительной войн (1919-1922). Накануне этих войн в Османской империи проживало 29.680.000 чел. (в границах современной Турции – 18.660.000). Тюрко-мусульмане составляли 82% населения. Турок вместе с азербайджанцами (тюркиманами) и крымскими татарами было 69%. Количественно третье место после азербайджанцев занимали курды – примерно 1.755.000 чел. (9,41%). Из всех христиан (около 18%) проживало 1.569.300 армян (8,41%) и 1.524.600 греков (8,17%).

Среди 5.003.000 населения шести эялетов Восточной Анатолии, где предполагалось создание армянской автономии, 3.886.000 приходилось на мусульман (азербайджанцев, турок и курдов) и 868.000 на армян. Великие державы отводили армянам роль пятой колонны для разрушения Турции изнутри.

Трудности на Кавказском фронте из-за армянских восстаний в тылу вынудили турецкое правительство к крайней мере – переселению 350.000 согласно закону от 27.05.1915 о перемещении армян Восточной Анатолии.

В 1915-1918 годах в захваченных эялетах Трапезунда, Эрзурума, Битлиса и Вана прежде всего от рук армян, воевавших в рядах русской армии, десятков тысяч армянских дезертиров из турецкой армии, 11.000 членов армянских добровольческих формирований погибло 1.190.000 мирных мусульман. За годы войны военные потери турецких армян составили 300.000 чел.

Однако ПМВ переросла в Турции в войну за независимость. Во время оккупации греческая армия и греческое население уничтожили 1.260.000 мирных мусульман Западной Анатолии. За годы греко-турецкой войны (1919-1922) потери турецких греков составили: 113.000 военные, 100.000 гражданские, также участвовавшие в геноциде тюрко-мусульман.

В итоге войны принесли миллионы жертв, также среди гражданского населения. Турция потеряла большую часть своей территории – все арабские владения, а Анатолия превратилась в арену войны. В 1914-1922 годах потери Турции составили

6.000.000 чел., включая 4.094.000 мусульман – большинство мирного населения (2.450.000 жертв мусульманского гражданского населения в зоне военных действий и оккупации, Карса и Батума (88.000), Игдыра, 751.000 умерших от голода и болезней за пределами зоны военных действий) и 804.000 военнослужащих. Среди жертв помимо турок были 1.000.000 азербайджанцев и 600.000 курдов.

Армянские потери: эмиграция 811.000, гибель 382.000 армян. В 1922 году около 376.000 армян осталась жить в Турции.

Потери греков: в 1922-1923 годах в Турции оставалось 1.211.500, погибло 213.000.

В условиях катастрофических территориально-демографических потерь 29.10.1923 образовалось турецкое национальное государство.

# MÜSƏLMAN ŞƏRQİNİN İLK XALQ CÜMHURİYYƏTLƏRİ: AZƏRBAYCAN VƏ TÜRKİYƏNİN DÜNYA DEMOKRATİYASINA TÖHFƏLƏRİ

**Mahir Səlimov**
*ADPU, Ağcabədi filialının direktor müavini,*
*f.ü.f.d., dosent*
*e-mail: mahir.0707@mail.ru*

Azərbaycan dövləti ilə Türkiyə arasındakı qarşılıqlı əlaqələr tarixi köklərə dayanan münasibətlər dövrün siyasi reallıqları əsasında formalaşıb. Tarixən eyni dilə və dinə mənsub olan xalqların inkişafında bir sıçrayış kimi bu münasibətlər XX və XXI əsrdə inkişaf edib, həm iqtisadi, həm siyasi, həm də hərbi baxımdan müttəfiqlik səviyyəsinə qalxıb. Bu münasibətlər türkdilli xalqların birliyi çərçivəsində mübariz bir nümunə kimi, sülh və təhlükəsizliyin təmin olunmasında hər iki dövlətin birlikdə siyasi iradə nümayiş etdirdiyini göstərir. Bu əlaqələrin dərin tarixi kökləri sübut edir ki, hər iki ölkə arasında qarşılıqlı münasibətlər təkcə strateji maraqlar çərçivəsində deyil, həm də soykökə bağlılıqdan, eyni milli-mənəvi dəyərlərə malik olmaqdan irəli gəlir.

Şərqdə demokratik əsasları olan ilk türk-müsəlman dövlətilərini – Türkiyə və Azərbaycan Xalq Cümhuriyyətini yaradanlar istər daxili, istərsə də xarici təsirlərə qarşı duruş gətirmək üçün bir biri ilə daha da yaxınlaşmaqla daxili sabitliyi bərpa edib, ordu quruculuğu işini möhkəmləndirməyə nail olmuşlar. Bel ki, Azərbaycan Xalq Cümhuriyyətini rəsmən ilk dövlət Osmanlı Türkiyəsi 5 ildən sonra Kamal Atatürkün başçılığı ilə Türkiyə Cümhuriyyətinin qurulmasına nail oldu.

Müstəqilliyinin ilk dövrlərində yenicə dövlətçilik ənənələri yaradan Azərbaycan hökuməti yardım üçün Osmanlı dövlətinə müraciət edib, soyqırıma məruz qalmış Azərbaycan xalqının köməyinə gəlmiş türk hərbi hissələri ilə milli tərkibli qoşun hissələrinin əsasında Qafqaz İslam Ordusu yaratmışdı.

Azərbaycan-Türkiyə münasibətləri özünü tarixi Azərbaycan ərazilərinin Rusiya imperiyasının himayəsi altında mənfur qonşu xalqları tərəfindən ilhaq edilməsinin qarşısının alınmasında da göstərib. Belə ki, sovet rəhbərliyi Azərbaycanın Zəngəzur və Naxçıvan əyalətlərini, habelə Qarabağı bu mənfur qonşulara verilməsinə, Azərbaycan ərazisi hesabına onların ilan yuvası qurmalarına yardım etməkdə idilər. 1920-ci ildə Zəngəzurun onlara verilməsindən sonra Naxçıvanın taleyinin həlli istiqamətində iş aparıldığı bir vaxtda qardaş Türkiyə sovet rəhbərliyi ilə danışıqlar aparmaqla bu məsələnin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində birdəfəlik həllində müstəsna rol oynadı. 1921-ci ildə imzalanmış Moskva və Qars müqavilələri ilə Naxçıvanın Azərbaycanın himayəsinə verilməsi, ərazisinin muxtariyyət statusu çərçivəsində Azərbaycan tərəfdən heç bir dövlətə güzəştə gedilməməsi öz təsdiqini tapdı.

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra Türkiyə Respublikası XX əsrin əvvəllərində olduğu kimi yenə Azərbaycanın yanında yer aldı. Qardaş ölkə Azərbaycanı ilk olaraq 1991-ci ilin 9 noyabr tarixində müstəqil dövlət kimi tanıdı.

Azərbaycan Respublikasının ən ağrılı problemi olan Qarabağ məsələsində də qardaş ölkə Türkiyə hər zaman Azərbaycanın yanında olub, ölkəmizin haqlı mövqeyini beynəlxalq arenalarda dəstəkləyib. Türkiyə Respublikası Azərbaycan Respublikası Silahlı Qüvvələri heyətinin qardaş ölkədə NATO standartları çərçivəsində təşkil edilən təlimlərdə iştirakını, onların ən yüksək səviyyədə hərbi bilik və qabiliyyətlərə yiyələnməsini təmin edib.

2020-ci ilin sentyabrında 100 illik tariximizin mühüm bir hadisəsi, 44 günlük Vətən müharibəsi zamanı Türkiyənin istər siyasi, istərsə də hərbi cəhətdən Azərbaycan dövlətinin yanında olması ilə bağlı bəyanatları iki dövlət arasındakı münasibətlərin ən yüksək səviyyədə olmasını göstərir.

Türkiyə-Azərbaycan əlaqələrinin tədqiq edilməsi əməkdaşlıq sahələri ilə bağlı ənənənin davam etdirilməsi baxımından tarixi reallıqların işıqlandırılması bu sahə ilə bağlı araşdırma aparan hər bir mütəxəssisin qarşısında əsas vəzifələrdən biridir.

# GÖRKƏMLİ ALİM CAVAD HEYƏTİN TÜRKOLOGİYA SAHƏSİNƏ VERDİYİ TÖHFƏ

**Günay Verdiyeva**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu, İran filologiyası şöbəsinin müdiri*
*f.ü.f.d., dosent*

Mərhum dünya şöhrətli azərbaycanlı alim, həkim-cərrah, naşir Cavad Heyət (1925-2014) bütün həyatı boyu türk xalqına, türk tarixi və mədəniyyətinə çox böyük bağlılığını nümayiş etdirərək bu sahədə ciddi araşdırmalar aparmışdı. Təsadüfi deyil ki, professor Cavad Heyət cərrah və naşir olmaqla yanaşı dünyada bir türkoloq kimi də tanınırdı. Hələ tibb təhsilini İstanbul şəhərində alarkən türklərin qədim və zəngin tarixi, mədəniyyəti onu valeh etmişdi və maraqlandırmışdı. Daha sonralar yaxın yoldaşı, professor Həmid Nitqi ilə birlikdə İranda türkologiya sahəsində əsərlər yaratmışdır. Cavad Heyət uzun illər İranda fars və azərbaycan dilində nəşr etdiyi "Varlıq" jurnalında da türkologiya sahəsinə aid olan məqalələr çap etdirirdi. Bundan başqa, Cavad Heyət atası Mirzə Əli Heyət və qardaşı Firuz Heyət ilə birlikdə 1956-cı ildə İran-Türkiyə Dostluq və Kültür Cəmiyyətini qurmuşdur, İranla Türkiyə arasında dostluq və mədəni əlaqələrini inkişaf etdirməyə çalışmışdır. Mütəxəssislər qeyd edirlər ki, Cavad Heyət türkologiyaya aid 300-dən artıq məqalənin, bir neçə əsərin müəllifidir.

Cavad Heyətin türkologiya sahəsində ərsəyə gətirdiyi iki əsəri daha çox diqqətimizi cəlb etmişdir. Onlardan biri – "Türk Dilləri Və Ləhcələrinin Tarixi" əsəridir**.** Kitabda qədim və zəngin tarixə malik türk dillərinin inkişaf mərhələləri geniş şəkildə araşdırılıb. Türk dillərinin ən qədim monumental yazılı abidələri olan Orxon-Yenisey daş kitabələri, "Divanü Lüğat-it-Türk", "Qutadqu-bilik", "Dastani-Əhməd Hərami" və digər əsərlər dil faktları baxımından araşdırmaya cəlb edilmişdir.Böyük və gərgin zəhmət hesabına ərsəyə gətirilmiş əsərdə türk dilləri vahid bir dil qrupu kimi tədqiq olunmaqla yanaşı, türk dillərinin dialektləri də geniş şəkildə araşdırılmışdır .Şübhəsiz ki, bu əsər oxucular tərəfindən maraqla qarşılanaraq türkologiya elminə dəyərli bir töhfə kimi qiymətləndirilir.

Cavad Heyətin digər əsəri – "Türklərin tarix və mədəniyyətinə bir baxış.(İslamdan əvvəl və islam dövrü). Başlanğıcdan XVI əsrə qədər" adlanır. Bu əsər Türk dünyasının zəngin tarixi, ədəbiyyatı və mədəniyyəti haqqında ilk yığcam və eyni zamanda dolğun məlumat verir. Kitabın böyük hissəsi Türk dünyasının ictimai-siyasi təkamül tarixinə həsr olunub. Müəllif tədqiqat prosesində xronoloji baxımdan çox geniş bir dövrü nəzərdən keçirmişdir. Tədqiqatçı bu dövrü "türk tarixinin orta çağı" adlandırmışdır. Həmçinin burada, türk əsilli sülalələrin şərq ölkələrinin bir çoxunda hakimiyyətə gəlməsi və hökmranlıq etməsi haqqında bəhs olunur.

Gördüyümüz kimi, Cavad Heyətin türkologiya sahəsində böyük xidmətləri var və inanırıq ki, alimin əsərləri gələcəkdə də həm tədqiqatçıların, həm də geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanacaqdır.

# TÜRKİYE’DE CUMHURİYET’İN İLANINI GÖRSELLER ÜZERİNDEN OKUMAK

**Eminalp Malkoç**
*İstanbul Texniki Universiteti, dosent (Türkiyə)*
*malkocem@itu.edu.tr*

Siyasal bilimler açısından cumhuriyet, hükümdarlık rejimi dışında yani monarşik yönetimlerin dışında kalan devlet şeklidir. Bu anlamıyla cumhuriyet egemenliğin, yönetim gücünün birden fazla kişiye bağlı olduğu yönetim biçimidir.

Türkiye’de cumhuriyete geçişi sağlayan şart ve etkenler/dinamikler, Mustafa Kemal (Atatürk) dışında büyük ölçüde Milli Mücadele yıllarında ortaya çıkmıştır. Yani bir yandan, ilk aşamada Kuva-yı Milliye güçleriyle, sonra Ankara’da 23 Nisan 1920 tarihinde açılan Türkiye Büyük Millet Meclisi’nin yönetiminde emperyalist işgalcilere karşı verilen mücadele öte yandan İstanbul ve padişahın bu mücadeleye karşı tutumu, İstanbul’a karşı alınan önlemler, izlenen politika Türkiye’de cumhuriyete geçişin alt yapısını oluşturmuştur.

Milli Kurtuluş Savaşı sırasında özellikle 1921 Maarif Kongresi, Sakarya Savaşı, Büyük Taarruz, Lozan Barış Antlaşması, İzmir İktisat Kongresi ve 13 Ekim 1923’te Ankara’nın resmi başkent haline gelmesi Türkiye’de cumhuriyetin temel çerçevesini oluşturacaktır. Zaten 1923 Ekim’inde yaşanan hükümet krizi ardından 29 Ekim günü gerçekleştirilen anayasa düzenlemesiyle cumhuriyet ilan edilirken Mustafa Kemal Paşa da cumhurbaşkanlığına (Reis-i cumhur) 158 mebusun oyuyla seçilecektir. Böylece yakın dönem Türk tarihinin en önemli aylarından olan 1923 Ekimi’nin, 6 Ekim İstanbul’un işgalden kurtuluşu ve Ankara’nın başkent olmasından sonra en önemli gelişmesi yaşanarak adeta Türkiye’de yeni bir yapılanma sürecinin halkaları nerdeyse tamamlanmıştır.

Doğaldır ki 1923 Ekim ayının gelişmeleri özellikle basın organları aracılığıyla kamuoyuna yansımış ve kamuoyu düzleminde de gazeteler, dergiler ve mizah dergileri aracılığıyla tartışılmıştır. Özellikle İstanbul gazetelerinden *Tevhid-i Efkar, Vakit* gibi gazeteler cumhuriyetin ilanına pek yakın durmamışlardır. İster cumhuriyet taraftarı ister cumhuriyet muhalifi olsun gazete ve dergiler süreç içinde fotoğraf, grafik çizimler kullanmışlar; mizah dergileri de bol bol karikatürlere başvurmuştu.

1923 Ekim ayı görselleri ya da karikatürleri, Türkiye’deki yaşamın fotoğrafla, çizgiyle ve mizahla yansıtılması kadar kaynağa en yakın dönemi ifade etmektedir. Hangi biçimde olursa olsun görseller en yalın/basit anlatımı sergilerken temelde kamuoyunun hassasiyetini açığa çıkarması bakımından önemlidir. Karikatürlerse bir mizah türü niteliğiyle en açık eleştiri yöntemini ortaya koyuyordu. Üstelik biraz da çizerin yetenek ve algısına bağlı olarak toplumun bilinçaltının etkili bir yansıma aracıydı.

Fazla örneğine rastlanmayan görsellere dayanan okumayla, 1923 Ekim ve Cumhuriyet'e geçiş özelinde tarihsel değer ve gelişmelerin görsellerle nasıl sembolleştirildiğini, kitlelere nasıl aktarıldığını, sembollerin taşıdıkları içerikler aracılığıyla topluma nasıl mesajlar verildiğini; böyle toplumsal çıktılar arasında konjonktürel etkilerle yayın organlarının bulundukları konumun farklılık yaratıp yaratmadığını araştıran özgün bir çalışma gerçekleştirilmesi amaçlanmaktadır.

# ОЦЕНКА ПОТЕНЦИАЛА ИННОВАЦИОННОСТИ УНИВЕРСИТЕТОВ ТУРЦИИ

**Владимир Михайлович Ивашко**
*Белорусская государственная академия связи*
*к.воен.н., доцент (Белоруссия)*
*v.ivashko@bsac.by*

В современном мире высшее профессиональное образование играет важную роль, так как предоставляет человеку возможность овладеть знаниями, необходимыми для успешной и эффективной практической деятельности. При этом исключительно важно, чтобы теоретические знания выпускников университетов полностью соответствовали реальным запросам экономической практики. Именно поэтому турецкие университеты ежегодно участвуют в конкурсе TUBITAK, целью которого является стимулирование инновационной и предпринимательской деятельности университетов, измерения их эффективности в этой области. В настоящее время Индекс предпринимательских и инновационных университетов, впервые внедренный в практику турецкого высшего образования в 2012 году, является надежным и эффективным инструментом оценки их потенциала. Согласно методологии индекса, ранжирование университетов осуществляется по 4 параметрам, включающим 23 показателя. Такими параметрами являются: компетентность в области научных и технологических исследований; юридически защищенный объем интеллектуальной собственности; сотрудничество и взаимодействие; экономический и социальный вклад.

Научные и технологические исследовательские компетенции характеризуются 6 показателями с соответствующими весовыми коэффициентами: количеством научных публикаций (2,5%); количеством цитирований (3,5%); количеством проектов (2%); сумма Проектного Фонда (3%); количество наград (1,5%); количество аспирантов (2,5%).

Для оценки интеллектуальной собственности используются 4 показателя: количество национальных патентных документов (5,2%); количество национальных документов на полезную модель (3%); количество международных патентных заявок (5%); количество международных патентных документов (6,8%). Примечательно, что предпочтение в этом параметре отдается международным патентным документам, что свидетельствует о приоритетности широкой коммерциализации научных разработок.

Параметр «Сотрудничество и взаимодействие» (25%) оценивается по 6 показателям, таким как количество совместных отраслевых проектов (5%), сумма фонда отраслевых совместных проектов (6%), количество международных совместных

проектов (5%), сумма фонда международного совместного проекта (6%), количество тиражей (1,44%), количество студентов отраслевой докторской программы TUBITAK (1,56%). Акцент на международные коллаборации подчеркивает как внешнюю открытость турецких университетов, так и высокую оценку их научного и инновационного потенциалов.

Измерение экономического и социального вклада оценивается по 7 показателям: количество академических фирм (5,68%); количество фирм студентов/выпускников (7,57%); чистый доход от продаж академических фирм (7,57%); чистый доход от продаж фирм студентов/выпускников (10,41%); количество лицензированных патентов и полезных моделей (3,78%); количество фирм BiGG (3%); количество проектов (2%). Данный параметр имеет самый высокий весовой коэффициент (40%), что обусловлено его важным социальным и экономическим значением.

Таким образом, для любого турецкого университета лидирующее положение в данном рейтинге означает публичное признание высокого качества образовательной и научной деятельности, что существенно влияет на предпочтения абитуриентов при выборе учреждения образования. При этом для субъектов делового мира Турции показатели Индекса предпринимательских и инновационных университетов являются маркерами, которые показывают экономическую целесообразность развития инновационного сотрудничества с турецкими университетами. Этот аспект представляет интерес и для белорусской системы высшего образования, а используемая методология расчета Индекса предпринимательских и инновационных университетов может быть эффективно использована в учреждениях высшего образования Республики Беларусь.

# SOVIET-TURKISH FINANCIAL AND MILITARY-TECHNICAL COOPERATION IN THE EARLY 1920S

**Kupchyk Oleh**
*Taras Shevchenko National University of Kyiv*
*PhD (History), Associate Professor (Ukrayna),*

**Zub (Rudenko) Natalia**
*A.Krymskyi Institute of Oriental Studies of*
*the NAS of Ukraine, PhD (History) (Ukrayna)*

Mustafa Kemal's government was in need of funds and weapons to successfully resist the Greek aggression with the support of the Entente. The Soviet government decided to take advantage of this to "bind" the Kemal's government, and spread Soviet influence in the Black Sea region. Therefore, during the signing of the Treaty of Brotherhood in Moscow on March 16$^{th}$, 1921, Soviet Russia agreed to secretly supply Turkiye with weapons and provide annual financial aid of 10 million rubles in gold.

It is worth mentioning that the diplomatic mission led by the Soviet military commander Mykhaylo Frunze to sign the Treaty of Brotherhood between the Soviet Ukraine and Turkiye in Ankara on January 2$^{nd}$, 1922, included an entire group of Soviet military personnel. At that time, when the Minister of Foreign Affairs Y. Kemal and the adviser of Soviet Ukraine's Ministry of Foreign Affairs O. Zhdan-Pushkin were conducting political negotiations, Mustafa Kemal informed Mykhaylo Frunze about the situation of the Turkish army. He remarked, "I have told you something that most of the MPs do not know... Now you know everything about our situation. If these funds do not arrive within 2-3 months, until spring, then we will have to find a way out of the situation by diplomatic means. I do not want that because I know that an agreement with the West will lead to the enslavement of Turkiye". M. Frunze was convinced that "a successful winter military campaign is impossible in such conditions".

The Turks asked for rifles, machine guns, submachine guns, cannons, ammunition, shells, grenades and uniforms (worth about 50 million Turkish Liras). They asked to speed up the provision of financial aid because in 1921 they received only 5.4 million rubles in gold out of 10 million rubles. Then M. Frunze gave them another 1.1 million rubles (although the Turks asked for 3.5 million rubles in 1921 and 10 million rubles in 1922). Then, in a telegram to the leadership, Mykhaylo Frunze reported that the time had come to "bind" Turkiye. As a result, in May 1922, the Russian ambassador Semen Aralov handed over 3.5 million rubles to the Turkish government. In addition, they received the necessary equipment, including two warships, as well as fuel, factory equipment for the production of ammunition. Soviet specialists helped set up this production.

The military, technical, and financial aid of the Soviet Union brought results. On August 30th, 1922, the Turkish army defeated the Greeks in the Battle of Dumlupinar. On October 11th, 1922, the Armistice of Mudanya with Greece was signed on Turkish terms. In this regard, the Soviet military historian M. Korsun noted that "the methodical course of the Sakarya military operation, which led to the complete defeat of the Greek army, resembles the lightning successes of the Red Army... The skill of M. Frunze, who visited Turkiye in 1921–1922, helped prepare this operation".

However, at the Lausanne Conference of 1922–1923, Turkiye, under pressure from Great Britain, agreed to the passage of warships of all countries through the Bosporus and Dardanelles straits, which gave the British navy de facto control over the straits. The Kremlin's attempt to "bind" Mustafa Kemal's government and extend its influence to the Black Sea region failed.

# AZƏRBAYCANÇILIQ VƏ TÜRKÇÜLÜK VƏTƏNƏ XİDMƏTİN TƏZAHÜRÜ KİMİ

**Namiq Abbasov**
*AMEA Memarlıq və İncəsənət İnstitutu*
*kulturologiya üzrə fəlsəfə doktoru, dosent*
*namiq_abbasov_70@mail.ru*

Müstəqil olmadığımız tarixi dövrlərdə Azərbaycançılıq ideyaları daim yad ideologiyaların təsiri altına düşdüyündən o sərbəstləşə bilməmiş və milli mütəşəkkilliyin bazasına çevrilə bilməmişdir. Müstəqillik əldə olunduqda isə milli-mənəvi keyfiyyətlərimiz bütövləşib milli ideologiyamızın təməlinə çevrilə bilmişdir. Azərbaycançılıq ideologiyası bütövlükdə milli-mənəvi bütövlüyümüz, birliyimiz və mütəşəkkilliyimiz deməkdir.

Bütün milli-mənəvi, tarixi, dünyavi keyfiyyətləri və məntiqi hüquqi əsasları ilə milli dövlətçiliyimizin sabitləşməsinə, qorunub saxlanmasına və yeni ənənələrlə zənginləşməsinə təminat verən azərbaycançılıq ideologiyasının yaradıcısı  Ümummilli Lider Heydər Əliyevdir. Yaradıcısı olduğu Yeni Azərbayca Partiyasının proqramının əsas qayəsini məhz milli ideologiyamız və azərbaycançılıq ideyaları təşkil edir. Burada birmənalı olaraq belə bir fikir ardıcıl xətt təşkil edir ki, xalqın bütövlüyü onun mütəşəkkilliyində və birliyindədir.

Azərbaycançılığın milli ideya kimi seçilməsi heç də onun tükçülüyə qarşı qoyulması demək deyildir. Tükçülük ümumi, bir qədər də romantik səciyyə daşıdığı halda, azərbaycançılıq daha real və praktik görünür, yerli xalqlar,  xüsusən də azsaylı xalqlar üçün daha məqbul və cəlbedicidir.  Türçülük etnik millətçilikdirsə, azərbaycançılıq siyasi-coğrafi millətçilikdir və bütün respublika xalqları və vətəndaşları üçün inteqrativ rol oynayır. Ona görə də azərbaycançılıq qarşıya qoyulmuş məqsəddir, dövlətçiliyin möhkəmləndirilməsi yolunda bir vasitədir. Azərbaycançılıq – ölkədə yaşayan xalqlardan Azərbaycan dövlətinə mənsubluq hisslərinin formalaşdırılması, ölkədə vahid vətəndaş siyasi mədəniyyətini inkişaf etdirmək vəzifəsinin yerinə yetirilməsini tələb edir.

Türkçülük öz tarixi inkişafında maarifçilik və siyasi türkçülük mərhələlərindən keçmişdir. Onun yaranma dairəsi Avropa (Vamberi), Rusiya (İ.Qaspıralı, Y.Aqçura, Ə.B.Hüseynzadə) və Türkiyədir (Z.Göyalp). Vaxtilə sovet ideoloqları  (V.İ.Lenin, İ.V.Stalin) türkçülüyə “mülkədar burjua sinfinin ideologiyası” damğasını vurmuş, SSRİ-də və Azərbaycanda minlərlə insanlar repressiya qurbanlarına çevrilmişlər. halbu ki, bu ideyalar sırf milli azadlıq hərəkatıyla bağlı olmuşdur. Müasir şəraitdə bu ideya neotürkçülük istiqamətini almış, türk xalqlarının milli-mədəni əlaqələrini özündə birləşdirmişdir.  Türkçülük öz kültürünə vurğun olmaqla bərabər digər xalqların milli-mənəvi dəyərlərini qiymətləndirir. Bu gün tükçülük və azərbaycançılıq milli və bəşəri dəyərləri özündə ehtiva edən ideya kimi vətənə xidmətin gerçək təzahürüdür.

# TÜRKİYƏDƏ TƏSƏVVÜF

**Rəna Rzayeva**
*AMEA akademik Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu*
*f.ü.f.d., dosent*

Müsəlman Şərqinin, o cümlədən Türkiyənin mədəni-mənəvi və sosial-siyasi həyatına təsir göstərən ən mühüm amillərdən biri sufizm olmuşdur. İslam çərçivəsində meydana gəlmiş və insanın Allahla şəxsi psixoloji təcrübə vasitəsilə birbaşa ünsiyyətini (qovuşmasını) mümkün sayan «sufizm» mistik və dini-fəlsəfi bir dünyagörüşü olaraq çox böyük sürətlə yayılmış və bütün yaradıcılıq sahələrinə nüfuz etmişdir.

Ədəbiyyat tarixində «Təkkə Ədəbiyyatı» adı altında özünü göstərən sadə, axıcı, bəzən lirik və bəzən təlimi (didaktik) xarakter daşıyan əsərlərdə dini-təsəvvüfi dəyərlər xüsusi yer alır. Təsəvvüfi dərinliyin ədəbiyyata xüsusi bir zənginlik və olğunluq qazandırdığı bir gerçəklikdir.

Sufizmin formalaşma mərhələsi VIII-X əsrlərə təsadüf edir ki, bu dövrdə o, asketizmdən (zahidlik hərəkatından) ayrılaraq müstəqil dini-fəlsəfi və əxlaqi bir təlimə çevrilir. Əslində, təsəvvüflə fəlsəfənin kəsişdiyi bir fundamental məqam mövcuddur. Mahmud Erol Kılıcın «Təsəvvüfə giriş» kitabının «Təsəvvüf Ezoterik Bir Hikmət Fəlsəfəsidir» bölümündə oxuyuruq: «Fəlsəfə ilə təsəvvüfün birləşdiyi və ya ayrıldığı məqam mövcuddur. Cəlaləddin Dəvvani isə belə deyir: «Təsəvvüf ilə fəlsəfə qonşudurlar. Bir-birlərini ziyarət edərlər». Hər hansı bir məsələ antoloji (dünyanın yaranışını öyrənmək prinsipləri) və epistemoloji (dünyanın yaradılmasının prinsiplərinin öyrənilməsi şərtləri) məsələləri öyrənməyə yönəlmişdirsə, bunu «fəlsəfə» adlandırmaq olar. Təsəvvüf isə ezoterik, inisiyatik (batini və cilddən-cildə, haldan-hala düşmə, dəyişmə) baxımdan bir hikmət fəlsəfəsidir. Çünki «Təsəvvüf», əslində, bir din fəlsəfəsidir».

Artıq XI-XII əsrlərdə sufizm öz inkişafında ən intensiv mərhələyə daxil olur. Məhz bu dövrdə təsəvvüf ideyaları bütün müsəlman dünyasına yayılaraq, intellektual elitanın imtiyazı olmaq keyfiyyətini itirir, onun nəzəri əsaslandırılması sahəsində sonrakı inkişaf mərhələlərinin xarakterini müəyyən edən ciddi addımlar atılır, ilk mütəşəkkil təriqətlər yaranır və nəhayət, sufi ideologiyası poeziyaya nüfuz edir. Mahmud Erol Kılıç yazır: «Sufilərin şeirlərində istifadə etdikləri üsullar sufilərin çox müraciət etdikləri məcaz və ya alleqoriyadır». Ümumiyyətlə özündə sirr, alt mənalar gizlədən, fikir, ideyalarını məcazlarla ifadə edən poeziya birbaşa sufiliklə bağlıdır. Əsl fəaliyyət sahəsi könül aləmi olan təsəvvüf mənəvi və dəruni hiss, fikir və həyəcanları bəlli bir üslub və ədəb daxilində sətirlərdə, misralarda, yəni

kəlamlarda əks etdirmişdir. Yəni, təsəvvüfi dərinliyin və məzmun kamilliyinin ədəbiyyata xüsusi bir zənginlik, dolğunluq gətirməsi bir gerçəklikdir».

Məhz, bu dövrdən etibarən Türk təsəvvüfü geniş vüsət alır. Türkiyə təsəvvüfi fikrinin ən parlaq simaları Əhməd Yəsəvi, Yunis Əmrə, Mövlanə Cəlaləddin Rumi və sayı-sonu olmayan bir çox mütəsəvviflər İlahi eşq yolunu işıqlandırırlar.

# TÜRKİYƏNİN HƏRB TARİXİNİN QƏHRƏMANLIQ SƏHİFƏSİ

**Baxış Ələsgərov**
*t.ü.f.d., dosent*
*elesgerovl963@mail.ru,*

**Araz Əliyev**
*ADPU, Ağcabədi filialı, baş müəllim*
*ani.eliyev.95@bk.ru,*

Türkiyə Cümhuriyyəti türk millətinin XX yüzillikdə dünya tarixinə qızıl hərflərlə yazmış olduğu qəhrəmanlıq dastanıdır. Türk tarixi zəfərlərlə zəngindir. Bu sıradan 30 avqust 1922-ci ildə baş verən Dumlupınar döyüşünü türk millətinin yenidən dirçəlişi günü hesab etmək olar. Bu döyüş Anadolu torpaqlarının "Türk Vətəni" olduğunu bir daha sübut etdi.

Birinci Dünya müharibəsi dövründə türklərin doğma yurdları uğrunda apardıqları ölüm-dirim müharibəsi sonda qurtuluş hərəkatına gətirib çıxardı. İngilis və fransız orduları Çanaqqalaya hücum edən zaman əmin idilər ki, özlərinin üstün müasir silahları, təlimi qarşısında, Balkan müharibəsindən çıxmış yorğun türk əsgəri mübarizə apara bilməyəcək. Hətta türklərlə müttəfiqlik edən alman zabitləri də eyni düşüncədə idilər. Lakin Ənvər Paşanın sərt intizamı ilə bir il yarım ərzində hazırlanan ordu düşməni işğal etdikləri torpaqlardan qovdu. 1922-ci il avqustun 26-ı sübh tezdən müzəffər türk ordusunun topçu birliklərinin atəşləri altında geniş hücum əməliyyatı başlandı. Düşmən mövqeləri bir-birinin ardınca ələ keçirildi. Bu qanlı döyüşlər iki gün davam etdi. Avqustun 27-də türk qoşunları Sincanlı və Afyon düzənliklərinə enib, Afyonu azad etdilər. Darmadağın olmuş yunan birlikləri Sincanlı düzənliyindəki təpələrdə təkrar müdafiəyə keçməyə cəhd göstərsələr də, buna nail ola bilmədilər. Dumlupınar-Uşak istiqamətində canlarını qurtarmaq üçün qaçan yunanların böyük bir qismi cənubdan 1-ci ordu, şimaldan 2-ci ordu birliklərinin təzyiqi nəticəsində Aslihanlar bölgəsində sıxışdırıldı. Ancaq avqustun 28-29-da düşmənin arxa cəbhəsinə keçən türk birlikləri onların İzmirə doğru qaçış yollarını kəsdi. Bu əməliyyatın nəticəsi olaraq düşmənin beş diviziyalıq bir qüvvəsi Dumlupınar bölgəsində mühasirəyə alındı.

Avqustun 30-da səhər tezdən geri sıxışdırılan düşmən birlikləri ilə türk birlikləri arasında bu bölgədə böyük bir meydan döyüşü başladı. Baş komandan Qazi Mustafa Kamalın doğru-düzgün, məharətlə idarə etdiyi bu döyüş türk tarixşünaslığında haqlı olaraq "Baş Komandanın meydan müharibəsi" adını alıb. Kamal Paşanın hərbi dühası sayəsində bu savaşda bir gün içində yunan ordusunun çoxlu sayda canlı qüvvəsi məhv edildi və əsir alındı. Yunan ordusunun darmadağın edilməsi xəbəri Egeydə olan digər yunan birliklərində çaşqınlıq yaratmışdı. Onlar sürətlə qaçmağa başladılar. Yunanlar qaçarkən türk birlikləri də işğal edilən ərazilərə daxil olurdular. Beləliklə, 1922-ci il sentyabrın 18-də Qərbi Anadolu işğalçı yunan birliklərindən tamamilə təmizləndi. Bu da türk yurdunun bütövlüyünü təmin etdi və Türkiyə Cümhuriyyətinin yaranmasına gedən yol açıldı.

# ƏDALƏT VƏ İNKİŞAF PARTİYASININ HAKİMİYYƏTİ DÖVRÜNDƏ TÜRKİYƏNİN SİYASİ VƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI (2002-2015)

**Namiq Məmmədov**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*Türkiyə Tarixi və iqtisadiyyatı*
*şöbəsinin müdiri, t.ü.f.d.*
*mammadov.namig@yahoo.com*

Türkiyədə Ədalət və İnkişaf Partiyası (ƏİP-AK Parti) 2002-ci ildə hakimiyyətə gəlmişdir. Həmin dövr ölkə tarixinin ən mürəkkəb və mübahisəli dövrlərindən birini təşkil edir: 1989-1999-cu illəri əhatə edən onillikdə ölkədə 12 hökumət kabineti hakimiyyətdə olmuş, 1997-ci ildə postmodern çevriliş, 2001-ci ildə Türkiyədə Respublika tarixinin ən ağır iqtisadi böhranı baş vermiş, yüz minlərlə insan işsiz qalmış və ölkənin valyuta ehtiyatları qısa müddət ərzində kəskin şəkildə azalmış, bank sektorunda itkilər milli gəlirin 32 faizinə çatmış, ölkənin xarici borcu isə 120 milyard dolları ötüb keçmişdi. Bütün bunlar dövrün siyasi və sosial-iqtisadi mənzərəsinin mürəkkəbliyini daha aydın göstərir. Qeyd edilən problemlər ictimaiyyətin ölkədə hakimiyyətdə olan siyasi partiyalara və koalisyon hökumətlərə olan inamına ciddi zərbə vururdu. ƏİP belə bir tarixi dövrdə yaradılmış və 2002-ci ildə keçirilən ilk seçkilərdə qalib gəlmişdi. Həmin tarixdən bəri Türkiyədə keçirilən parlament və bələdiyyə seçkilərinin demək olar hamısında ƏİP 40 faizdən çox səs qazanaraq qalib gəlmişdir. 2002-2015-ci illər ərzində R.T.Ərdoğan və ƏİP-nın adı ilə bağlı seçki uğurlarının sayı 12-dir. Türkiyədə ƏİP-nin hakimiyyətə gəlməsinə siyasi və iqtisadi amillərlə yanaşı, 1961-ci ildən istifadə edilən və D'Hondt adlanan seçki sisteminin də böyük təsiri olmuşdu.

ƏİP-nın ölkənin idarəçilik sisteminin müxtəlif sahələrində apardığı islahatlar ümumilikdə Türkiyədəki demokratik islahat hərəkatı prosesinin bir hissəsini təşkil edir. ƏİP-nın lideri R.T. Ərdoğan hakimiyyətdə olduğu ilk illərdən ölkədə formalaşmış sistemin demokratikləşməsi və bu sahədə islahatların aparılması üçün fəaliyyətə başladı. Rejim tərəfdarlarının təzyiqi ilə qarşılaşsa da, hakimiyyət siyasi iradə nümayiş etdirərək 2007-ci ildə xalqın dəstəyi ilə Konstitusiyanın dəyişdirilməsinə nail oldu. Bunun nəticəsində, 2014-cü ildə Türkiyədə dövlət başçısı xalq tərəfindən seçildi və R.T. Ərdoğan ölkə prezidenti oldu.

Türkiyədə sosial-iqtisadi vəziyyətin göstəriciləri seçicilərin səsvermə davranışına əhəmiyyətli təsir göstərir. İdeoloji, siyasi amillərlə yanaşı, əhalinin sosial vəziyyəti də seçkilərin nəticəsinə təsiri baxımından mühüm rol oynayır. 2000-ci illərin əvvəllərində Türkiyədə baş verən iqtisadi böhranlar, əhalinin bir çox təbəqələrinin narazılığı onların səsvermə davranışını müəyyən edərək ƏİP hakimiyyətə gəlməsinə gətirib çıxardı Başqa sözlə ifadə etsək, ƏİP 2002-2015-ci illərdə Türkiyədə iqtisadi sabitliyin təminatçısı kimi müəyyən edilmişdi. 2002-2015-ci illər arasında Türkiyə iqtisadiyyatı, ildə orta hesabla 5-7% böyüdü, Türkiyə-

nin ÜDM-i təxminən 4 dəfə artaraq 236 milyard dollardan 862 milyard dollara yüksəldi. Ümumi əhali sayının artmasına baxmayaraq, adambaşına düşən illik gəlir də üç dəfə artdı. 2002-ci ildə adambaşına düşən illik gəlir 3492 dollar idisə, 2016-cı ildə 10883 dollara yüksəldi. Bütün bunların nəticəsində Türkiyə iqtisadiyyatı 2002-ci ildə aşağı gəlirli ölkələr qrupundan çıxaraq 2016-cı ildə yüksək-orta gəlirli ölkələr səviyyəsinə yüksəldi.

# TÜRKİYƏ ƏDƏBİYYATININ NAZİM HİKMƏT ZİRVƏSİ

**Seymur Süleymanov**
*ADPU, Ağcabədi filialının*
*Tədris və elmi işlər üzrə direktor müavini, dosent*
*seymursuleymanov71@mail.ru*
*(050) 335 21 08*

**Maya Abdullayeva**
*ADPU, Ağcabədi filialının*
*Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası*
*kafedrasının müəllimi*
*magamirzeqizi@gmail.com*

İsmayıl bəy Qaspiralinin təbirincə desək Nazim Hikmət "Dünyanın ən yaxşı xalqlarından olan Türk xalqını və dünyanın ən gözəl dillərindən biri və bəlkə də ən başda gələnlərindən olan Türk dilini yabançı diyarlarda tanıtmaq üçün bu dünyaya gəlmişdi. Arzusuna çatdı, ömrünün ən böyük sevincinə və şərəfinə nail oldu. Türk ədəbiyyatına ümumdünya şöhrəti qazandırdı" [İsmayıl Q. 1992, s.9].

Qədim və zəngin ənənələrə malik olan Türkiyə ədəbiyyatının inkişaf tarixində XIX-XX əsrlərin özünəməxsus bir yeri var. Bu zəngin dövrün ədəbiyyatı yeni mərhələyə qədəm qoymuş və ayrı-ayrı ədəbi simaların timsalında inkişaf etməyə, yenilənməyə başlamışdı. Bu ədəbiyyatı daha da zənginləşdirən, onu keyfiyyət baxımından tamamilə yeni bir zirvəyə qaldıran qüdrətli sənətkarlardan biri də Nazim Hikmət olmuşdur. Nazim Hikmət dedikdə ağlımıza həm mübariz ictimai xadim, həm də istedadlı şair və dramaturq gəlir. Lakin onun yaradıcılığının leytmotivi, istedadının ən qüvvətli istiqaməti şeiriyyət və poeziyadır. Onun poeziyasının nəinki öz vətənində, həmçinin dünyanın bir çox ölkələrində sevilmiş, ətrafına geniş oxucu kütləsi toplamışdır.

Nazim Hikmət yaradıcılığı təkcə Türk ədəbiyyatı və türk poeziyasının zəngin bədii qaynaqları ilə deyil eləcə də, dünya ədəbiyyatının zəngin söz xəzinəsindən qidalanmışdır. Nazim Hikmət ənənəyə sadiqliyini belə ifadə etmişdir: "İnsan oğlu, harada, nə zaman və hansı dildə olursa-olsun, ürəyimə və düşüncəmə uyğun bir şeir söyləmişsə, onun söylənişindəki ustalığı incələməyə, ondan bir şey öyrənməyə çalışdım. Yalnız öz ədəbiyyatımıza aid olanlara deyil, Şərq və Qərb ədəbiyyatının bütün sənətkarlarını özüm üçün ustad bildim". Təvazökar sənətkar əsrlərdir türk poeziyasında müəllimlik zirvəsində olduğu halda bütün sənətkarları özünə müəllim saymış və onlardan bəhrələnmişdir. Bəlkə bu səbəbdəndir ki, Nazim Hikmət türk poeziya xəzinəsinin nadir incilərini yaratmağa layiq sənətkar kimi yaddaşlarda qalmaqdadır.

# TÜRKİYƏ CÜMHURİYYƏTİNİN 100 İLİ AZƏRBAYCAN TÜRKOLOQLARININ TƏDQİQATLARINDA

**Vüqar Məmmədov**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun İran filologiyası*
*şöbəsinin aparıcı elmi işçisi, f.ü.f.d.*
*vm12345@mail.ru*

Bu ilin 29 oktyabrında qurulmasının 100 illiyi qeyd edilən Türkiyə Cümhuriyyətinin 100 ili Azərbaycan türkologiyasında daima diqqət mərkəzində olub. AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda bu mövzuda aparılan tədqiqatlarda Türkiyə Cümhuriyyətinin tarixinə, iqtisadiyyatına, ictimai fikrinə, ədəbiyyatına dair dəyərli tədqiqatlar aparılıb və aparılmaqdadır. Şərqşünaslıq institutunun türkoloqları son 20 ildə bu sahədə əhəmiyyətli araşdırmalar aparıb, kitablar nəşr etdirib, məqalələr dərc etdirib, beynəlxalq konfranslarda, seminarlarda məruzələr səsləndiriblər.

Araşdırdığımız dövrdə Türkiyədə ictimai fikirlə bağlı fəl.ü.f.d. Esmeralda Həsənova "XX əsr Türkiyəsində din və islam mistisizmi – təsəvvüf sosiologiyası (ideya mənbələri, əsas problemləri, yeni meyillər)", "Türkiyədə millətçiliyin müxtəlif növlərinin tipologiyası və modelləri (türkçülük, kamalizm, atatürkçülük, mühafizəkar millətçilik və s.)", "Türkiyədə islam, millət, millətçilik və milli dövlət problemlərinin qloballaşma kontekstində şərhi (XX əsrin sonu − XXI əsrin əvvəlləri)") adlı kitablar çap etdirib.

Türkiyə iqtisadiyyatı ilə bağlı i.ü.e.d. Dünyamalı Vəliyevin "Türk dünyası qlobal iqtisadi inkişaf yollarında", i.ü.e.d. Esma Emir-İlyasovanın "XX-XXI əsrlərdə regional və beynəlxalq kontekstdə Türkiyə-Azərbaycan iqtisadi əlaqələri" adlı kitabları işıq üzü görüb.

Türk ədəbiyyatı ilə bağlı f.ü.f.d. Rəşid Quliyevin "Nazim Hikmət yaradıcılığında Şərq", f.ü.e.d. Elmira Məmmədovanın "Osman Türkayın poetik irsi", f.ü.f.d. Səriyyə Gündoğdunun "Mehmet Akif Ərsoy yaradıcılığında ictimai problemlərin bədii təcəssümü", f.ü.f.d. Sədaqət Qasımlının "Türkiyə ədəbiyyatında yeni hekayəçilik", f.ü.f.d. Lalə Qasımlının "XX əsrin II yarısında Türkiyə hekayəçiliyində ənənə və novatorluq (Mustafa Kutlunun hekayələri əsasında)" adlı kitabları çapdan çıxıb.

Bunlardan əlavə Şərqşünaslıq İnstitutunun əməkdaşları i.ü.e.d. Dünyamalı Vəliyev, i.ü.e.d. Esma Emir-İlyasova, i.ü.e.d. İnqilab Əlibəyov, fəl.ü.e.d. Roida Rzayeva, fəl.ü.f.d. Esmeralda Həsənova, t.ü.f.d. Namiq Məmmədov, fəl.ü.f.d. Aslan Həbibov, t.ü.f.d. Cavid Qasımlı, f.ü.f.d. Rəşid Quliyev, f.ü.e.d. Elmira Məmmədova, f.ü.f.d. Səriyyə Gündoğdu, f.ü.f.d. Sədaqət Qasımlı, f.ü.f.d. Xalidə Quliyeva-Qafqazlı, f.ü.f.d. Barat Osmanova, fil.ü.f.d. Cabbar Cəlilov, f.ü.f.d. Kəmalə Ələkbərova, Aygün Şimiyeva, Mirzə Ənsərli, Jalə

Vəli, Eynulla Səmədov, Hüseyn Günəşli, Emiliya Xəlilova, Aytən Rəşidli, Arzu Dadaşova təqdim edilən mövzuda plan işləri çərçivəsində dəyərli tədqiqatlar aparıblar.

Şərqşünaslıq İnstitutunun əməkdaşlarının Türkiyə Cümhuriyyətinin tarixi, iqtisadiyyatı, ictimai fikri, ədəbiyyatı ilə bağlı kitablarını, tədqiqatlarını nəzərdən keçirəndə mövzu ilə bağlı əhatəli araşdırmaların aparıldığını müşahidə edirik.

# AZƏRBAYCAN ƏDİBLƏRİNİN ƏSƏRLƏRİNDƏ TÜRKÇÜLÜK İDEYASI

**Aybəniz Həsənova**
*AMEA akad. Z. M. Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun İran filologiyası*
*şöbəsinin aparıcı elmi işçisi, f.ü.f.d.*
*aybeniz.has @ gmail.com*

Azərbaycanda XIX əsrin sonları, XX əsrin əvvəllərindən başlayaraq , Türkiyə ədəbiyyatına maraq artmağa başladı. Görkəmli ədiblərimiz – Hüseyn Cavid, Əhməd Cavad , Almas İldırım, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Rəfiq Zəka Xəndan kimi görkəmli şairlərin şeirlərində, türkçülük, istiqlal, bütöv türk dünyası ideyaları öz əksini tapmışdır. Türkiyə və Azərbaycan şairlərinin əlaqələrindən danışdıqda, Əhməd Cavadın misilsiz xidmətləri göz önünə gəlir. Türkiyə və Azərbaycanın müstəqilliyi yolunda çalışmış, 1937-ci il repressiyasının qurbanı olmuş Əhməd Cavad poeziyasına müraciət etməmək mümkün deyil. Şairin müəllimləri Türkiyədə təhsil almış Abdulla Sur və Hüseyn Cavid kimi şəxsiyyətlər olmuş , onun türkçü kimi yetişməsində, onların böyük xidmətləri olmuşdur. Əhməd Cavad 1912-1913-cü illərdə Azərbaycandan olan könüllülərlə birlikdə, Türkiyə Ordusu sıralarında döyüşlərdə olmuş, Qara dənizdə, Odessa yaxınlığında Türkiyənin "Həmdiyyə" gəmisinin Rusiyanın hərbi donanmasını necə məhv etdiyinin şahid i olmuş və 1914-cü ildə "Çırpınırdı Qara dəniz, baxıb türkün bayrağına " seirini yazmışdır. Şair "Ey əsgər" şeirində 1918-ci ildə Nuru Paşanın başçılığı ilə Gəncəyə, Bakını azad etmək üçün gələn türk əsgərini tərənnüm etmişdir. Ə. Cavad "Bismillah" şeirində də, türk əsgərinin qəhrəmanlığından danışırdı. Şair Şəhidlərə şeirində türk əsgərinə xalqın sevgisini göstərmişdir. Şair "Dağlar", "Marş", "Azərbaycan bayrağı", "Qardaş", "Al bayrağa" və s. şeirlərini Türkiyəyə həsr etmişdir. Əhməd Cavad Azərbaycan milli marşının müəllifidir. Şair Azərbaycanda olduğu kimi, Türkiyədə və türk dünyasında çox sevilir. 1958-ci ildən başlayaraq, sovet rejimindən çəkinmədən, bütöv Türk dünyası uğrunda əvəzedilməz xidmətləri olan − Azərbaycanın Xalq Şairi B. Vahabzadənin xidmətləri − əvəzsizdir danılmazdır. Dünya türklərinin böyük şeir ustadı adlandırılan Bəxtiyar Vahabzadənin poeziyası başdan – başa türkçülük, bütöv türk dünyası , istiqlal, milli azadlıq ideyaları ruhunda köklənmiş, şeirlərində də, bu ruhu əks etdirmişdir. Şair, Türkiyənin məşhur şairi – Mehmet Akif Ərsoyun vurğunu idi. Türk qardaşlarımıza həsr etdiyi − "Mən türkəm", "Azərbaycan Türkiyə", "Ey Azərbaycanımız, türkün oğuzlar vətəni", "İlahi hökmünlə qaldır göylərə İslam bayrağını, türk bayrağını", "Sinəsi dağlıdır türkün", "Atatürk düz demiş, vallah düz demiş, Yoxdur Türkün dostu özündən özgə", "Deprem " və s . şeirlərində Türkiyəyə olan sevgisini göstərmişdir.

# BEYNƏLXALQ VƏ REGİONAL TƏŞKİLATLAR ÇƏRÇİVƏSİNDƏ İRAN-TÜRKİYƏ ƏMƏKDAŞLIĞI

**Sübhan Talıblı**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*t.ü.f.d., dosent*

İran-Türkiyə ilə BMT və onun ixtisaslaşmış qurumları, İslam Əməkdaşıq Təşkilatı, ECO, OPEC, İCESCO, İslam İnkişaf Bankı, Qoşulmama Hərəkatı və s. beynəlxalq və regional təşkilatlar çərçivəsində ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq edir.

8 iyul 1937-ci ildə Tehranda Türkiyə, İran, Əfqanıstan və İraq tərəfindən imzalanmış Sədabad paktına (fransız dilində, dörd nüsxədə tərtib edilmiş) əsasən iki ölkə arasında əlaqələr istər M.K.Atatürk, istərsə də İ.İnonünün prezidentliyi dövründə strateji tərəfdaşlıq, Yaxın və Orta Şərq regionunda sülh və təhlükəsizliyin qorunması, Qərb ölkələri və SSRİ ilə münasibətlər sahəsində əməkdaşlıq davam etmişdir.

1964-cü ilin iyul ayının 22-də İran, Türkiyə və Pakistan tərəfindən İstanbulda imzalanmış İnkişaf Naminə Regional Əməkdaşlıq Təşkilatına (RƏT) üzv ölkələr hesab edirdilər ki, RƏT SENTO-nun məşğul olmadığı sahələrdə əməkdaşlığı öz fəaliyyətinin əsas məqsədidir, həmçinin ümid edirdilər ki, SSRİ istisna olmaqla, bütün region ölkələri təşkilatı müsbət qarşılayacaqlar və ona qoşulacaqlar.

14 fevral 1979-cu il tarixində Türkiyə Respublikası İran İslam Respublikası (İİR) hökumətini rəsmən tanıdı. Bu rəsmi tanınma İİR tərəfindən razılıqla qarşılandı və bəyan edildi ki, SENTO-nun ləğvi iki ölkənin əlaqələrinin zəifləməsinə səbəb ola bilməz. İranın xarici işlər naziri Kərim Səncabi 1979-cu ilin mart ayının 13-də İranın SENTO üzvlüyündən çıxdığını bildirdi.

BMT çərçivəsində əməkdaşlığa gəldikdə, 1966-cı ilin sentyabrında Türkiyə prezidentinin İrana rəsmi səfəri zamanı iki ölkə rəhbərləri bəyan verərək bildirmişdilər ki, bütün dünyada və regionda sülh, təhlükəsizlik və stabilliyi qorumaq məqsədi ilə münaqişələrin dinc üsullarla həll edilməsi üçün beynəlxalq münasibətlərin yaxşılaşdırılması və inkişaf etdirilməsi yolunda qarşılıqlı əməkdaşlığın davam etdirilməsinin zəruriliyi məsələsində həmfikir olduqlarını bildirmiş, İndoneziyanın BMT sıralarına qayıtmasını razılıqla qarşılamış, Türkiyə ilə Yunanıstan arasında Kipr məsələsi, Kəşmir məsələsinin BMT TŞ-nin qətnamələri əsasında həll planını həlli və digər məsələlər ətrafında mövqelərini bildirmiş, fikir mübadiləsi aparmışlar.

Türkiyə-İran prezidentlərinin 21 iyun 1967-ci il və 7 may 1975-ci il tarixli birgə bəyanatlarında beynəlxalq münasibətlər sistemində, beynəlxalq maliyyə və iqtisadi qurumlarda birgə əməkdaşlıq, ərəb xalqları ilə beynəlxalq hüquq və milli maraqlara uyğun olaraq əlaqələrin qurulması, müxtəlif regional və beynəlxalq məsələlərlə bağlı BMT əsasnaməsində əks

olunan prinsipləri, eləcə də beynəlxalq hüququn prinsipləri əsasında əməkdaşlıq, münaqişələrin BMT TŞ-nin 242 və 338 saylı qətnamələri əsasında həll edilməsi, ərəb ölkələrinin dəstəklənməsi, İsrail silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxmasını və Fələstin xalqının qanuni hüquqlarının təmin olunmasını və s. məsələləri qeyd etmişlər. Xüsusilə də, İran Xarici İşlər Nazirliyi 1974 22 iyul tarixli bəyanatında Türkiyənin Kiprlə bağlı tədbirlərini dəstəklədiyini bildirmişdir.

2009-cu ilin fevralında BMT TŞ Fransa, Almaniya, İngiltərə və digər Avropa dövlətlərinin təklifi ilə İrana qarşı daha ağır sanksiyalar tətbiq etmişdir. Nəticədə BMT TŞ Avropa ölkələrinin dəstəyi ilə İrana ağır zərbələrdən biri sayılan 1929 saylı qətnaməni qəbul etdi.

17 may 2010-cu ildə Türkiyə və Braziliya Tehranla nüvə yanacağının mübadiləsi ilə bağlı Sazişin 5-ci bəndində deyilirdi ki, "Yuxarıdakı bəndlərə əsasən qeyd edilmiş nüvə əməkdaşlıqlarının asanlaşdırılması üçün İİR 1200 kq daha az zənginləşdirilmiş uranı Türkiyədə əmanət qoymağa razılaşır. Bu maddələr Türkiyədə İranın mülkiyyətində olacaq və İran və Beynəlxalq Atom Enerjisi Agentliyi bu maddələrə nəzarət imkanına malik olacaqlar. Bundan başqa sazişdə 5+1 formatının İstanbul sammiti (Yanvar 2011-ci il) zamanı sanksiyaların İrana qarşı tətbiq edilən ləğvi müzakirə olunsun. Lakin Tehran hakimiyyəti daxilində olan münaqişələr 5+1 qrup ölkələri ilə anlaşaraq uran enerjisinin zənginləşdirilməsi prosesi üzrə danışıqların davam etdirilməsinə mane olması, AB komissarının dediyi kimi, İran daxilində problem olduğunu, ətraflı və konstruktiv bir görüş keçirməyi planlaşdırdımıza baxmayaraq, İran tərəfinin bunun üçün hazır olmadığını bildirmişdir.

Türkiyə milli maraqlarına uyğun olaraq İranla bağlı xarici siyasətində, ikitərəfli və çoxtərəfli diplomatiyasında ABŞ, bəzi Qərb ölkləri və İsrailin İranla olan neçə illik münaqişəsini həlli istiqamətində bir sıra addımlar atmağa çalışmış, dünya dövlətlərinin və ictimaiyyətinin maraqlarını öyrənməyə çalışmışdır. Belə ki, ABŞ səfirliyi əməkdaşlarının girov götürülməsi ilə bağlı yaranmış böhrandan sonra İrana qarşı tətbiq edilən embarqoya qoşulmamasında, İran-İraq müharibəsində bitərəf mövqe tutması, İranın nüvə böhranında kəskin mövqe tutulmasına qarşı çıxması, İranın nüvə enerjisindən dinc məqsədlə istifadə hüququnu vurğulaması, böhranın diplomatik yollarla həll edilməsinə çalışması, İranın 2009-2010-cu ildə BMT TŞ qeyri-daimi üzv seçilməsini dəstəkləməsi, BMT TŞ-nin İrana qarşı qəbul etdiyi 1929 saylı qətnaməsinə səs verməməsi, İranda 10-cu prezident seçkilərindən sonra baş verən hadisələrə bitərəf olması və s. məsələlər Türkiyənin İran siyasətində əsas amillərdən olmuşdur.

İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində isə 1997-ci ildə İƏT-in Zirvə görüşündə Türkiyə Prezidenti S.Dəmirəlin iştirakı zamanı İranın Türkiyəni İsraillə əlaqələrin qınaması və s. məsələlərə görə Zirvə toplantısını tərk etmək məcburiyyətində qalması, 8 noyabr 2009-cu ildə İİR Prezidenti M.Əhmədi nejadın İslam Əməkdaşlıq Təşkilatı ölkələrinin iqtisadi və ticari əməkdaşlıq üzrə daimi komitəsinin 25-ci toplantısında iştirak etmək üçün İstanbula iki günlük səfəri zamanı Türkiyə Baş naziri R. T. Ərdoğan və Türkiyə Prezidenti

A. Gül ilə görüşü, 2000-ci ilin iyununda Türkiyə Prezidenti Ə.N.Sezərin İqtisadi Əməkdaşlıq Təşkilatının Tehran Zirvə Toplantısında iştirak etməməsi və s. səviyyədə ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq etmişdir. Belə ki, İƏT daxilində Türkiyə İranı PKK, PYD, PJAK, Suriya  və s. məsələlərə dəstək verməsində pisləmiş, İran isə Türkiyəni İsraillə münasibətlərinin yüksək səviyyədə olmasını, Türkiyənin İraqdakı əməliyyatlarını və s. bağlı iki ölkə arasında problemlər yaranmışdır.

# TÜRKİYƏ CÜMHURİYYƏTİNDƏ İSTANBULDA FƏALİYYƏT GÖSTƏRMİŞ ƏCNƏBİ MƏKTƏBLƏRİ

***(Osmanlı arxiv sənədləri əsasında)***

**Yaxşıxanım Nəsirova**

*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin*
*aparıcı elmi işçisi, t.ü.f.d.*

Vaxtilə Osmanlı Dövlətində mövcud olmuş əcnəbi məktəbləri Türkiyə Cümhuriyyəti qurulduqdan sonra da fəaliyyətinə davam etmişdir. Onlardan bəziləri hətta hazırki dövrə qədər hüquqi şəkildə mövcuddurlar. Mövzunun tədqiqinə Osmanlı arxiv sənədlərindən 1925-ci il tarixli iki sənəd cəlb edilmişdir. Onlardan biri Türkiyə Cümhuriyyəti Xariciyyə Vəkaləti Umur-i Siyasiyə Müdüriyyət-i Ümumiyyəsi[1]tərəfindən, digəri isə Türkiyə Cümhuriyyəti Xariciyyə Vəkaləti İstanbul Mürəxxəsliyi[2] tərəfindən təqdim edilən sənəddir[3]. Əvvəlcə onu qeyd edək ki, istifadə olunan ədəbiyyatda hər iki sənədin fotosurəti və translitterasiyası verilmişdir.

Osmanlı Dövlətində xarici məktəblərin təsis olunması və fəaliyyəti qanun çərçivəsində tənzimlənirdi. İlk belə məktəblər qeyri-müsəlman uşaqlara dini təhsil vermək məqsədi ilə qurulmuş xristian məktəbləri idi. Sonralar məktəblərin sayı artmışdır. Osmanlı Dövlətində qanuna əsasən, xarici hüquqi şəxslər mülkiyyət hüququna malik olmadıqlarına görə, təsis edilən məktəblər dövlətin verdiyi  fərmanlar əsasında fiziki şəxslər tərəfindən açılırdı.

Mövzunun tədqiqi üçün müraciət etdiyimiz sənədlərdən birində İstanbulda açılmış əcnəbi məktəbin vergidən azad olunması məsələsi müzakirə edilir. Göstərilir ki, məktəbin binası əvvəlki yerində qaldığı təqdirdə vergi ödənməməsi qəbul edilə bilər, lakin digər bir yerə köçürülərsə mütləq yenidən müvafiq nazirlikdən fəaliyyətinin davam etdirilməsi üçün icazə alınmalıdır. Tədqiqat prosesində İstanbulda qurulmuş "Dəbistan-i İranian" məktəbinin bəzi şərtlər nəzərə alındıqdan sonra vergidən azad olunmasının mümkünlüyü məlum olmuşdur. Sənədlərdən məlum olur ki, istər Osmanlı Dövlətində, istərsə də Cümhuriyyət dövründə əcnəbi məktəblərin təsisi və onların təsdiqlənmiş dərs proqramları əsasında fəaliyyət göstərməsi müvafiq rəsmi qurumlar tərəfindən qanun çərçivəsində tənzimlənmişdir. Sənəddə belə məktəblərin müvafiq olaraq Türkiyə Cümhuriyyəti tərəfindən İran dövlətində də təsis olunmasının arzu edildiyi ifadə edilmişdir.

---

[1] Türkiyə Cümhuriyyəti Xarici İşlər nazirliyi Siyasi İşlər Ümumi Müdiriyyəti
[2] Türkiyə Cümhuriyyəti İstanbul Nümayəndəliyi
[3] "Arşiv Belgelerinde Osmanlı-İran İlişkileri". T.C.Başbakalık Devlet arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi daire başkanlığı. Ankara 2010. 665 s.

# YAKUP KADRİ KARAOSMANOĞLUNUN ƏSƏRLƏRİNDƏ ORİENTALİZMİN TƏSİRİ

**Ülkər Səmədova**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu*
*f.ü.f.d.*

Cümhuriyyət dövründə siyasi sahədə meydana gələn dəyişikliyin sosial sahədəki yansımaları son dərəcə sürətli, qısa müddətdə və xalqın qarşı çıxmasına baxmayaraq baş tutmuşdu. Cümhuriyyət dövrü aydınları və Cümhuriyyəti quran siyasi iradə isə bu dövrə qədər cərəyan edən modernləşmə və qərbliləşmə təcrübələrini real bir ictimai çevrilişə öndərlik etməyəcək qədər yetərsiz görmüşlər. Bəhs edəcəyimiz Yakup Kadri Karaosmanoğlu siyasi iradənin bu seçiminə ürəkdən inanmış və bu yoldakı cəhdlərə bütün gücü ilə dəstək olmağa çalışmışdır. Bu səbəblə ədəbiyyatı da cəmiyyətin istənilən istiqamətdə dəyişimini təmin etmək üçün bir vasitə olaraq istifadə etməyə cəhd etmişdir. Biz də Y.K.Karaosmanoğlunun həm romanlarından, həm də "Kadro" jurnalındakı yazılarından yola çıxaraq öz xalqını qıraqdan bir gözlə necə dəyərləndirdiyini və bu halı ilə orientalist baxış bucağından necə bir münasibət sərgilədiyini ortaya qoymağa çalışacağıq.

Yakup Kadrinin əsərlərində öz cəmiyyətini özgələşdirən, istiqamətləndirilməsi, idarə olunması gərəkən bir varlıq kimi orientalist düşüncələri Anadolu qadınına da aid etdiyi görülür. Yazıçının Anadolu qadını ilə bağlı fikirləri bir qərbli səyyahın hindli bir qadın haqqında söyləyə biləcəklərindən çox da fərqli deyildir. Yazıçıya görə Anadolu qadını − anlaşılmaz, danışmaqdan və özünü ifadə etməkdən aciz, çox vaxt natəmiz, cəmiyyətdəki yerindən heç vaxt narahat olmayan, atasının ya da evli isə ərinin sözündən heç vaxt çıxmayan, şiddət görməyi gündəlik rutin olaraq qəbul etmiş bir varlıqdır. Yazıçı qadını o dərəcə özgələşdirir ki, o sətirləri oxuyan və Anadolu qadınlarını tanımayan biri söz edilən varlığın bir insan olmadığına inana bilər. Etdiyi təsvirlər, təsvir etməkdən daha çox təhqir etmək üçün edilmişdir. Tezisin məqalə versiyasında bu fikirlərin əsərlərdəki təsvirləri açıq şəkildə təhlil olunacaqdır.

Karaosmanoğlunun "Ankara" romanının baş qəhrəmanı Səlma xanımın ətrafındakı və xüsusilə ev sahibləri Ömər əfəndinin ailəsindən olan qadınlarla bağlı fikirləri, Anadolu qadınının atasının ya da ərinin əsiri olduğu və cəmiyyətdə ikinci sinif insan olaraq qəbul edilməsi fikri aşılamağa yönəlmişdir: "*Kızcığazın zoru sonradan anlaşıldı-kuzum meğersem amcasının oğluna gönül vermiş. Hani anlaşıldı anlaşıldı emme, kırkından sonra… Aha şu bizim karşımızdaki evde otururlardı. Bir gün aklını oynattı. İçindekini sapır sapır dışarı döküverdi".* Orientalistlərin gördüyü kimi Karaosmanoğlunun da çox əsərində şərqli qadın xoşbəxt

olmağı bilməyən, bacarmayan, öz səadətinin harada olduğunu anlamayacaq qədər saf, mühakimə etməyi bacarmayan biridir.

Yazıçının əsərlərində din − batil inanclar və xürafatın qarışığı olan ictimai qurum olaraq qarşımıza çıxmaqdadır. Onun əsərlərində İslamın digər dinləri ilə əlaqəsi ilə bağlı bir fikirlərə rastlanmır, ümumiyyətlə dini düşüncəyə qarşı mənfi bir baxış bucağı varlığından danışa bilərik. Yazıçı dinin, mədəni cəmiyyəti təhdid edən bir ünsür olduğunu anlatmaq üçün roman texnikasından istifadə etmişdir. "Panorama" romanının, final səhnəsində, din və dini təmsil edən strukturlarla mübarizə aparmağın necədə həyati bir önəmi olduğunu anlatmağa çalışmış və qərbdə orientalistlər tərəfindən yayılmış mənfi düşüncələri əsərində istifadə etmişdir.

Orientalizm düşüncəsi, şərq-qərb arasındakı güc tərəzisi, mədəni və ticari əlaqələrin seyri və tarixi müddət içərisində dəyişən şərtlərə bağlı olaraq fərqli görünüm qazanmışdır. Ancaq ən təməldə və xüsusilə dünya güclərin nisbəti qərbin lehinə dəyişdikcə, orientalist baxışı da Edvard Saidin işarə etdiyi kimi, qərbin şərq üzərində hakimiyyət qurmasını təmin edəcək bir vasitəyə çevrilmişdir.

# SSRİ-NİN HƏRBİ VƏ MÜLKİ KƏŞFİYYAT ORQANLARI ƏMƏKDAŞLARININ TÜRKİYƏ RESPUBLİKASINDA FƏALİYYƏTLƏRİ (1917 – 1991)

**Mirzə Ənsərli**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu*

1917-ci il noyabrın 7-də Rusiya imperiyasında bolşeviklər çevriliş edərək hakimiyyəti ələ keçirdilər və yeni dövləti Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) adlandırdılar. Əsrlər boyu Rusiya imperiyası ilə Osmanlı imperiyası arasında diplomatik əlaqələr olmuşdur. Yəni hər iki dövlətin ərazisində səfirliklər və konsulluqlar fəaliyyət göstərmişdir. Bu zaman Rusiya imperiyasının kəşfiyyat orqanları da açıq və gizli formada Osmanlı dövlətinin siyasi , iqtisadi , hərbi və başqa sahələrinə aid materiallar toplamaqla məşğul olmuşdular. Onlara imperiyanın ərazisində yaşayan qeyri-türklər (xüsusilə ermənilər, bolqarlar və b.) yaxından kömək etmişdilər. 1914-1918-ci ildə baş vermiş Birinci Dünya müharibəsində Almaniya ilə müttəfiq olan Osmanlı dövləti məğlub olduqdan sonra ərazisinin xeyli hissəsi bir çox ölkələr tərəfindən işğal edildi. Bu işğalı qəbul etməyən türklər istiqlal mübarizəsinə qalxaraq düşmən qüvvələrini darmadağın etdilər və Ankarada qanuni fəaliyyət göstərən Böyük Millət Məclisi tərəfindən yeni dövlət 1923-cü il oktyabrın 29-da Türkiyə Respublikası adlandırıldı. 1922-ci il dekabrın 30-da Rusiya SFSR, Ukrayna SSR, Belorusiya SSR və Zaqafqaziya SFSR (Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR) birləşərək Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) adlı yeni bir imperiya yaradıldı. Sonralar 1920-1940-cı illərdə bu imperiyaya Özbəkistan SSR, Türkmənistan SSR, Qırğızıstan SSR, Qazaxıstan SSR , Tacikistan SSR, Latviya SSR, Litva SSR və Estoniya SSR də daxil edildi. Çar Rusiyasında olduğu kimi yeni qurulmuş dövlətdə də hərbi kəşfiyyat və mülki kəşfiyyat orqanları öz fəaliyyətlərini daha da təkmilləşdirdilər. Onlar həm daxildə, həm də xaricdə özlərinə düşmən hesab etdikləri təşkilatlara. cəmiyyətlərə və ayrı-ayrı şəxslərə qarşı amansız mübarizə apardılar. Nəticədə milyonlarla insan bu orqanlar tərəfindən həyata keçirilən repressiyaların qurbanı oldular. Bu orqanların Türkiyədəki fəaliyyətlərini müxtəlif dövrlərə bölmək olar [ 20-30-cu illər, İkinci Dünya Müharibəsi (1939-1945) və Soyuq müharibə dövrü (1945-1990)]. Türkiyə NATO-nun üzvü olduğu üçün həmişə SSRİ-nin diqqət mərkəzində olmuşdur. Çar Rusiyasında olduğu kimi SSRİ-nin xüsusi xidmət orqanlarının rəhbərləri kəşfiyyat fəaliyyətləri zamanı qeyri-türklərdən istifadəyə daha çox əhəmiyyət vermişdilər. Azərbaycan SSR-nin Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşları da müəyyən dövrlərdə Türkiyədə açıq və gizli fəaliyyət göstərmişdilər.

# M.K.PAŞA ATATÜRK VƏ ONUN ŞEDEVR ƏSƏRİ TÜRKİYƏ CÜMHURİYYƏTİ

**Bəşarət Bəşirova**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu Türkiyənin Tarixi və İqtisadiyyatı şöbəsinin b.e.i., t.ü.f.d.*

Bir zamanlar dövrün nəbzini çox asanlıqla tutan, tarixi hadisələrin gedişatından öz doğma ölkəsi və millətinin istiqlalı üçün istifadə edən, millətinin müqəddəratını dəyişmək üçün iti zəkası, dərin ağlı, uzaqgörənliyi, yüksək döyüş taktikası və strategiyası ilə hadisələrin axarına təsir edərək, onu xalqının, millətinin mənafeyi naminə yönləndirməyi bacaran, vətənsevərlik və millətsevərlik hisslərindən qaynaqlanan bütün varlığını və enerjisini millətinə və vətəninə həsr edən və millət –vətən eşqini öz həyat eşqinə çevirən, böyük bir sərkərdə, ulu bir rəhbər, nəcib bir insan və.... çox zəngin keyfiyyətləri özündə ehtiva edən bir şəxsiyyət yetişdi. O, çağdaş Türkiyə Cümhuriyyətinin qurucusu, türk millətinin xilaskarı, atası, böyük rəhbəri, yenilməz sərkərdəsi M.K.Atatürk Qazi-Paşa idi. Özü dediyi kimi, "...millətinin və böyük əcdadının ən qiymətli mirası olan istiqlaliyyət eşqi ilə yaranmış bir adamdı." O, millətinin mədəni, elmli, yüksək keyfiyyətlərə malik bir millət kimi yetişməsini, millətin, ilk növbədə keçmişin dini xürafat buxovlarından qurtulmuş azad, müstəqil və uyqar bir millət olmasını arzulayırdı.

O, deyirdi: "... Məncə şərəfin, heysiyyətin, namusun və insanlığın eyni bir millətdə olması və onun varlığında cəmlənməsi, o millətin mütləq azadlıq və istiqlaliyyətə malik olmasından asılıdır. Mən şəxsən bu saydığım keyfiyyətlərə çox önəm verirəm və bu keyfiyyətlərin özümdə də olduğunu iddia edə bilmək üçün millətimin həmin zəruri keyfiyyətlərə malik olmasını özümə başlıca şərəf hesab edirəm. Mən yaşaya bilmək üçün mütləq müstəqil bir millətin övladı olmalıyam".

Araşdırmamızda, daha sonra, xalqına güvənərək, İstiqlal savaşını zəfərlə başa çatdıran M.K.Atatürkün, yadellilərdən təmizlənmiş türk torpağı üzərində türk xalqının gələcək müqəddəratını həll edəcək və xalqın hegemoniyasına əsaslanan və demokratik prinsiplər üzərində qurulacaq bir dövlət, − Qərbi Avropanın demokratik ölkələri ilə eyni səviyyədə ucala bilən, türk millətini maddi rifaha qovuşdura bilən, dünya ölkələri sivilizasiyasını öz milli kökləri üstündə mənimsəyə və inkişaf etdirə bilən bir dövlət yaratmaq istəyindən danışılır.

Məqaləmizdə, İstiqlal savaşından qalibiyyətlə çıxan böyük sərkərdənin bu dəfə yeni, ən böyük-həlledici bir savaşa − Türkiyə Cümhuriyyəti qurmaq mübarizəsinə başladığından, İstiqlal savaşı bitincə, "Bu hələ harasıdır, əsas iş bundan sonra başlayır," deyə yeni yaranacaq Türkiyə dövləti üçün bir qanun layihəsi hazırlayaraq, Cümhuriyyətin elanı üçün, onun gözlədiyi an gəlib çatdığından, 28 oktyabr 1923-cü ildə Çankaya köşkündə yaxın yoldaşları ilə birgə iclas keçirərək, sonda, "Sabahısı gün Cümhuriyyəti elan edəcəyi" qərarını bildirdi-

yindən, bir gecə ərzində, konstitusiyada lazım gələn dəyişikliyi etməsi üçün, bir qanun layihəsi hazırlanıb TBM məclisinin müzakirəsinə verilməsindən, "Yaşasın Cümhuriyyət!" səsləri və alqışları ilə Cümhuriyyət elan edilməsindən və ən əsas da TBMM üzvlərinin böyük yekdilliyi ilə M.K.Atatürkün prezident seçilməsindən bəhs edilir.

# AZƏRBAYCAN DİASPORUNUN FORMALAŞMASINDA VƏ İNKİŞAFINDA TÜRK DİASPORU İLƏ ƏMƏKDAŞLIĞIN ROLU

**Ceyhun Ağayev**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu*
*Şərq-Qərb şöbəsinin böyük elmi işçisi*
*ceyhun.sakiroglu@mail.ru*

Yunan dilində "səpələnmək" mənasına gələn "diaspor" sözünün geniş mənada müəyyən toplumların, doğma ata-baba torpaqlardan uzaqlarda yaşayıb təşkilatlanması və mənsub olduqları ölkənin dəyərlərini qoruyan deməkdir. Məlum olduğu kimi, dünyada qloballaşmanın başlaması ilə dünya dövlətləri arasında yeni imkanlar yarandı. Bu imkanlar nəqliyyat, internet, radio və televiziya kimi transmilli obyektlərin mövcudluğu diaspordakı insanların həyatına müsbət təsir göstərdi və göstərməyə davam edir.

Tarixə nəzər salsaq görərik ki, Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ildə süqutundan sonra xarici ölkələrə pərakəndə şəkildə səpələnmiş soydaşlarımızın gördüyü işləri Azərbaycan diasporu və lobbisinin gərgin fəaliyyətinin bünövrəsini təşkil edən ilk siyasi fəaliyyət hesab etmək olar.

Müasir həyatımızda isə, Ulu Öndər Heydər Əliyevin dünyada yaşayan soydaşlarımızı vahid məqsəd ətrafında birləşdirmək və təşkilatlanması istiqamətindəki siyasətini bu gün Prezident İlham Əliyev Cənabları uğurla davam etdirir. Bu isə həmvətənlərimizin sıx təşkilatlanması, onlar arasında milli-mənəvi dəyərlərimizin qorunması və birliyin daha da möhkəmləndirilməsi, diaspor quruculuğu işinin uğurlarla nəticələnməsi böyük əhəmiyyətə malikdir.

Məlumdur ki, hazırda Azərbaycan diasporu bütün ölkələrdə geniş fəaliyyət göstərir və mütəmadi olaraq təşkilatlanma istiqamətində uğurlu siyasət aparılır. Təbii ki, belə qabaqcıl ölkələrdən biri də qardaş Türkiyə Cümhuriyyətidir. Öncəliklə qeyd etmək lazımdır ki, Türk dünyasına və o cümlədən müsəlman ölkələrinə qarşı aparılan Avropa və bəzi inkişaf etmiş ölkələrin ikili standartları Türkiyə-Azərbaycan birliyi və qardaşlığına zərbə vura bilməmişdir. Bunun əsas səbəblərindən biri eyni tarixi köklərə malik olan xalqlarımızın bu birliyi və aparılan ikitərəfli məqsədyönlü siyasəti dəstəkləməsi olmuşdur.

Azərbaycan ilə Türkiyə arasında diplomatik, siyasi-iqtisadi, sosial-mədəni, humanitar həyatın bütün sahələrində dostluq, əməkdaşlıq, tərəfdaşlıq münasibətləri daha da dərinləşərək yeni mərhələyə qədəm qoymuşdur. Azərbaycan öz suverenliyini əldə etdiyi ilk vaxtlardan bəri, özünü Türk Dünyasının tərkib hissəsi hesab etməsi, birmənalı şəkildə Azərbaycan diasporunun fəaliyyətinin inkişafına təsirini göstərmişdir.

2021-ci il iyunun 15-də İkinci Qarabağ, Vətən müharibəsi zamanı azad edilmiş Qarabağ torpağı olan Şuşa şəhərində iki ölkə arasında imzalanmış “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında” Şuşa Bəyannaməsi bunun əyani təsdiqidir. Bu digər sahələr kimi Azərbaycan və Türkiyə diasporlarının üzərinə böyük məsuliyyət qoymuşdur.

Bu məqalədə “Azərbaycan diasporunun formalaşmasında və inkişafında türk diasporu ilə əməkdaşlığın rolu” geniş araşdırılmış, ölkəmizin zəngin mədəni irsə sahib olması və Azərbaycan diasporunun formalaşmasına geniş imkanlar yaratdığı vurğulanmışdır.

# 1918-1922-Cİ İLLƏRDƏ OSMANLI VƏ QACAR DÖVLƏTLƏRİ ARASINDAKI İCTİMAİ-SİYASİ PROBLEMLƏRƏ DAİR OSMANLI ARXİV SƏNƏDLƏRİ

**Zülfiyyə Vəliyeva Önlen**
*AMEA akad. Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,*
*Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin böyük elmi işçisi*
*veliyevaz@gmail.com*

Türkiyə Cümhuriyyətinin quruluşu ərəfəsində Anadolu, İran və Azərbaycan coğrafiyasında yaşanan ictimai-siyasi problemlər SSRİ-nin qurulması ilə demək olar ki, sünni şəkildə dondurulmuşdu. Bu problemlər təqribən yüz il sonra yenə eyni ittifaqın dağılması ilə təkrar siyasi arenada ortaya çıxmış və müasir ictimaiyyəti müəyyən bənzərlikləri səbəbi ilə təəccübləndirmişdir. Məhz buna görə də tədqiqatımızda qeyd olunan dövrdə baş vermiş hadisələrə arxiv materialları əsasında baxılmış və müəyyən nəticələr əldə edilmişdir.

Rusiyanın və eləcə də Qərbdəki bir sıra imperialist dövlətlərin Qafqazda, İranda apardığı siyasət Rusiya, İran, Amerika və Avropa dövlətlərindəki Osmanlı səfirləri, atəşəmilitərləri tərəfindən diqqətlə təqib edilir və təhlil olunduqdan sonra gizli məktublar, şifrə-teleqraflar və siyasi hesabatlar şəklində Osmanlı Dövlətinin müvafiq səlahiyyətli orqanlarına göndərilirdi. Göndərilmiş gizli məktub və teleqraflardakı xüsusi məlumatlar Anadolu, İran və Qafqaz regionunda planlanmış siyasi oyun və onun iştirakçıları haqqında dolğun təsəvvür yaradır. Bu məlumatlar əsasında demək olar ki, Türkiyə Cümhuriyyətinin quruluş ərəfəsində mövcud olan problemlər İranın Rusiya və Qərb dövlətləri tərəfindən işğalı ərəfəsində ortaya çıxan "kürd problemi" və "erməni problemi" olmuşdur. Qərb dövlətləri tərəfindən ortaya çıxarılan və qızışdırılan hər iki problem Osmanlı dövlətini uzun müddətdən bəridir ki, narahat edirdi. Məhz bu səbəblə XIX əsrin sonlarına doğru Osmanlı və Qacar dövlətləri bəhs edilən problemlərə qarşı birgə, gizli mübarizə aparmağa çalışmış və İranda bir çox siyasi təşkilat, ordu birliyi qurulmuşdur. Xüsusilə, "İttihad-ı İslam" təşkilatı bir sıra İslam ölkəsində olduğu kimi İranda da uzun müddət fəaliyyət göstərmişdir. Bu birliyin siyasi liderləri Cənubi Azərbaycanın tanınmış simaları olmuşdur. Onlar Osmanlı-İran Dövlətləri arasındakı ictimai-siyasi münasibətlərin tənzimlənməsində iştirak etmiş və Qərb dövlətlərinin yeritməyə çalışdığı bölücü siyasətə qarşı müəyyən müştərək tədbirlər almağa cəhd etmişlər. Osmanlı dövlətinin son illərində hakimiyyətdə olan "İttihad və tərəqqi" cəmiyyətinin liderləri İran dövləti ilə siyasi münasibətləri tənzimləməklə yanaşı Türküstan türklərini və eləcə də Azərbaycan türklərini Rusiya təzyiqindən qorumağa çalışmış və məhz bu səbəblə 1918-ci ildə qurulmuş olan ADR Osmanlı hökuməti tərəfindən tanınmışdır.

Yuxarıda qeyd olunmuş ictimai-siyasi məsələlər məruzəmizdə Osmanlı arxiv materialları əsasında geniş şəkildə tədqiq edilib işıqlandırılmışdır.

# MÜASİR DÖVR TÜRKİYƏ TÜRK VƏ FARS POEZİYALARINDA ÇAĞDAŞLAŞMA PROSESİ

**Cavanşir Məmmədzadə**
*Bakı Dövlət Universiteti,*
*Şərqşünaslıq fakültəsi, f.ü.f.d.*
*mhjavanshir@mail.ru*

Ötən yüzilliklərdə Avropa məkanında cərəyan edən ictimai-siyasi, iqtisadi, ədəbi-mədəni hadisələr Şərq ölkələrinin də həyatında əhəmiyyətli dəyişikliklərin meydana gəlməsinə səbəb oldu. Bu baxımdan Türkiyə türk və fars poeziyalarında çağdaşlaşma prosesi demək olar ki, eyni dövrdə baş verdi. Müasirləşmə axını Qərb bədii düşüncəsinin, şeirin forma və məzmun xüsusiyyətlərinin Türkiyə və İran ədəbi mühitlərinə yansıması ilə vüsətləndi. Türkiyədə müasirləşmə Tənzimat islahatları, İranda isə XIX əsrin 50-ci illərindən maarifçilik cərəyanı ilə böyük təkan aldı.

Birinci Dünya müharibəsindən sonra İranda forma və məzmunca yeni şeirlərin yazılması istiqamətində əməli addımlar atıldı. Bu münasibətlə ədəbi mühiti və mətbuatı "Ədəbi inqilab" dalğası bürüdü. Həmin ərəfədə xaricdə təhsil almış bir qrup gənc istedad Qərb poeziyasından ilhamlanaraq mətbuat səhifələrində formaca yeni şeirlər nəşr etməyə başladılar. Gənc novatorlara Türkiyədə təhsil almış təbrizli şair Tağı Rüfət başçılıq edirdi. İranlı modernistlərin fars dilindən əlavə türk, rus və fransız dillərini bilməsi, onlara mütərəqqi dünya ədəbiyyatının nailiyyətləri ilə tanış olmağa, çoxlu mütaliələr etməyə, əsasən, Fransa və Türkiyə şairlərindən təsirlənməyə, xarici ədibləri iqtibas və təqlid etməyə şərait yaradırdı.

Ədəbi yeniliyin qızğın tərəfdarlarından olan T.Rüfət, Cəfər Xamenei, Şəms Kəsmayi İranda, Ziya Paşa, İbrahim Şinasi, Namiq Kamal, Mahmud Əkrəm, Əbdülhaq Hamid və digərləri isə Türkiyədə mətbuat səhifələrində yeni poeziyanın indiki durumuna, gələcək inkişaf imkanlarına, şeirin forma və məzmun, dil və üslub xüsusiyyətlərinə dair mülahizələrini oxucularla paylaşırdılar. Novatorlar təcrübədə Qərb şeiri cildində forma və məzmunca yeni şeirlər yazırdılar. Əsərlərdə misraların bərabərliyinə, qafiyələrin nizamına, vəznin ümumi ahənginə riayət edilmir, sərbəst şeirə meyil güclənirdi. Türk və iranlı modernistlərin ədəbi-nəzəri baxışları Fransa ədəbi dairələrindən qaynaqlanırdı.

İstər Türkiyə, istərsə də İran ədəbi məkanında yenilikçilərlə mühafizəkarlar arasında yeni poeziya barəsində geniş fikir mübahisə və mübadilələri gedirdi. Birincilərin ədəbi-nəzəri görüşlərində ziddiyyət və səbatsızlıq, ifratçılıq diqqət çəkir, tənqidi ruh yüksəkdə dururdu. Modernistlərin kəskin mövqe sərgiləməklərinə, yeni şeirləri təbliğlərinə rəğmən klassik poeziya ədəbiyyatda öz hakim statusunu mühafizə edirdi. Klassik şeirin bədii sənətkarlıq və dil xüsusiyyətləri hələ də üstün bilinirdi. İranda formaca yeni şeirlər ikrahla qarşılanır, bu

qaçılmaz ədəbi hadisə tənqid və inkar edilirdi. Mühafizəkarlardan M.Bahar, İ.Mirzə, R.Yasəmi, S.Nəfisi, A.İ.Aştiyani, İ.Purdavud, Ə.Səba və b., Türkiyədə Ə.M.Paşa, A.Yenişəhərli, İ.Əfəndi ənənəvi şeirin qəlib, dil və obraz xüsusiyyətlərini toxunulmaz və dəyişilməz xarakterizə edirdilər.

# YUNUS EMRE SANATININ TASAVVUF ŞİİRİNDE YERİ

**Ülkər Baxşiyeva**
*ADPU, Filologiya fakültəsi, Ədəbiyyatın tədrisi texnologiyası*
*kafedrasının baş müəllimi, f.ü.f.d.*
*ulker.baxsiyeva@mail.ru*

Türk tasavvuf edebiyatının tanınan simalarından biri de Yunus Emre olmuştur. Yunus Emre Tasavvuf edebiyatında kendine has bir tarzın kurucusu olmuştur. O, Ahmed Yesevî ile başlayan tekke şiiri geleneğini özgün bir söyleyişle Anadolu'da yeniden ortaya koymuşdur.Yunus Emre , Anadolu Selçuklu Devletinin dağılmaya ve Anadolunun çeşitli bölgelerinde büyüklü küçüklü Türk beyliklerinin kurulmaya başlandığı 13 yüzyıl ortalarından 14. yüzyılın birinci çeyreğine kadar Orta Anadolu havzasında , Eskişehirin Sivrihasar ilçesinde yer alan Sarıköyde yetişmiş ve Ankaranın Nallıhan ilçesindeki Tapduk Emrenin dergahında yaşamıştır. Türkçeyi 13-14. yüzyıllarda ilk kez şiire dönüştüren ve bu dile edebi hüviyet kazandıran Yunus Emre şiirlerini Türk dilinin inceliklerini kullanarak ağırlıklı olarak hece türünde dörtlük nazım şekliyle kaleme almıştır. O, İrfan şairi olarak Türkçeyi aşk ve anlam diline kazandırmayı başarmıştır. Mustafa Tatçı haklı olarak " Yunus Emre sokak Türkçesini semavileştiren kişidir. Onun izinden gidenler bu semavi dili kullandılar ve Türkçeyi arşa kanatlandırdılar" diyor. Örneğin:“Ben gelmedim davi için, benim işim sevi için,

Dostun evi gönüllerdir, gönüller yapmağa geldim” diyen Yunus Emre, tasavvufi bir düşünce olarak evrende tek bir insan ve tek bir kalbin varlığında Allah'ın var olma yollarına işaret eder.

Yunus Emre halk dilinin inceliklerini ustalıkla kullandığından, onun şiirlerinde farklı ahenk ve mecaz sistemleri, sade kelimelerle etkili ifade yeteneği dikkati çekmektedir. Şair, bu eserleri ile Türk – İslam edebiyatında yeni milli nazım şekli oluşturmuş ve Türk şiirinde ortak dilimizden doğan yeni şiir üslubunu ortaya çıkarmıştır. Yunus Emre, din, felsefe ve tasavvuf ile ilgili terimleri halkın daha kolay anlayabileceği şekilde kullanarak 13-14. yüzyıllarda Türk dilimizin söz varlığını büyük ölçüde zenginleştirmiştir. Örneğin, "gönül", "çelebi", "dava", "kitap", "şans", "taht" vb. Yunus Emre'nin 13-14. yüzyıl Türk şiirine getirdiği yeniliklerden biri de yarattığı metaforlardır. Şair, metaforlar aracılığıyla şiirlerdeki biçim çeşitliliğini sağlamakla kalmamış, aynı zamanda bu şiirlerin felsefi yükünü de artırmıştır. Yunus Emre'nin şiirlerinde ağırlıklı olarak dörtlük kullanılması, klasikler de dâhil olmak üzere Yusuf Has Hacib'den bu yana mani - tuyuğ gibi Türk milli şiir biçimlerine bağlar. Halk edebiyatı örneği olan bu şiirler, Yunus Emre'ye ait yeni şiir örnekleri olarak Türk edebiyatını zenginleştirmeye hizmet etmiştir.

# BİR DƏNİZİN İKİ SAHİLİ: AZƏRBAYCAN, TÜRK DİLİ

**Nəzrin İsmayılova**
*ADPU, Filologiya fakültəsi, müəllim*
*Email: nezrinismayilova011@gmail.com*

Çoxəsrlik tarixə malik olan türk dili keçmişdən günümüzə qədər öz füsunkarlığını qoruyub saxlamış və daim inkişaf etdirmişdir. Türk dili qaynaqlarda bir çox türk xalqının ortaq dili kimi göstərilmişdir.

Türk dillərinin təsnifi zamanı Türk dili və Azərbaycan dilinin ortaqlığı digər türkdilli xalqların dilindən daha çox müşahidə edilir. Türk dillərində, o cümlədən Azərbaycan dilindəki sintaktik əlaqə formaları tarixdən günümüzə qədər, demək olar ki, dəyişməmişdir. Bunu türk dilləri ilə bağlı digər yazılı mənbələrdə də görürük. Məsələn, "Kitabi Dədə Qorqud" dastanında sintaktik əlaqələrdən bəhs edərkən Q.Kazımov yazır: "Dastanların dilində cümləni təşkil edən sözlər arasında qrammatik əlaqələr müasir dildə olduğu kimidir – tabesizlik və tabelilik əlaqələrindən ibarətdir. Tabesizlik özünü sadə cümlənin həmcins üzvləri, tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında göstərir. Məs.: Qalqubanı xan Bayındır yerindən turmış, bir yerə ağ otaq, bir yerə qızıl otaq, bir yerə qara otaq dikdirmiş. Hünəri oğul atadanmı görər, ögrənər, yoxsa atalar oğuldanmı ögrənür? – cümlələrindən birincisində həmcins üzvlər, ikincisində həmcins üzvlər və tabesiz mürəkkəb cümlənin komponentləri tabesizlik yolu ilə əlaqələnmişdir.

Ümumiyyətlə Türk dünyasında öz əlvanlığı ilə seçilən dillərdən olan Azərbaycan dili daim sevilmişdir. Türkdilli xalqlar arasında daim oxşarlıqlar özünü göstərsə də Azərbaycan və Türk dili daim bir-birinə ən yaxın dil hesab olunmuşdur. Bildirmək lazımdır ki, nə Türk aləmi nə də türk dilləri bir-birinə yaddır, Əksinə bu xalqlar daim bir-birinə yaxın və dost olmuşdur. Məqaləni Ulu Öndər Heydər Əliyevin riyazi dəqiqliklə dediyi bir cümlə ilə bitirmək doğru olardı: "Biz iki dövlət, bir millətik!"

# AZƏRBAYCAN–TÜRKİYƏ MÜNASİBƏTLƏRİ DƏMİR YUMRUQ ƏTRAFINDA SIX BİRLƏŞİB

**Cəmil Quliyev**
*LDU nəzdində Sosial və Aqrar–Texnoloji Kollec,*
*t.ü.f.d., müəllim*
*Email: qcamil@mail.ru*

Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan–Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Xalqlarımızın eyni soykökünə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib, sevincli, kədərli günlərdə də biri digərinin yanında olub. Ulu öndər Heydər Əliyevin bir millət, iki dövlət olaraq xarakterizə etdiyi Azərbaycan–Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə yeni müstəviyə keçməkdədir. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Türk dünyasının daha sıx şəkildə bir araya gəlməsini bu gün şərtləndirən ən mühüm amillərdən biri də məhz Azərbaycan və Türkiyənin münasibətlərinin inkişafından keçir. Prezident İlham Əliyev bununla bağlı bildirmişdir: "Türkiyə–Azərbaycan əlaqələri, eyni zamanda, bütün türk dünyası üçün də mühüm rol oynayır. Biz türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün birgə səylər göstəririk". Ümumiyyətlə, beynəlxalq təşkilatlarda müxtəlif beynəlxalq və regional məsələlər üzrə Azərbaycanla Türkiyənin mövqeləri çox yaxındır və ya üst-üstə düşür. Türkiyə və Azərbaycan arasında əlaqələrin gücləndirilməsi Qafqaz bölgəsində sabitliyin təmin edilməsinə yönəlib. Türkiyə Azərbaycan müstəqillik qazandıqdan sonra Silahlı Qüvvələrin formalaşmasına yardım göstərib. O zaman orduda kadr çatışmazlığı var idi. Sonrakı dövrdə də iki ölkə arasında hərbi əməkdaşlıq inkişaf etdi. Türkiyə Azərbaycanda kadrların hazırlanması, hərbi məktəblərin proqramlarının formalaşmasında böyük rol oynayıb. Hər il Azərbaycan və Türkiyə silahlı qüvvələri birgə hərbi təlimlər keçirirlər. Vətən müharibəsi dövründə, eləcə də ondan əvvəlki dövrdə Türkiyə daim Azərbaycanın yanında oldu. Ölkəmizə həm siyasi, həm də mənəvi dəstək göstərdi. Türkiyə rəsmiləri dəfələrlə Azərbaycana səfər edərək ciddi dəstəklərini ifadə etdilər. Azərbaycan bu dəstəyi yüksək qiymətləndirir və heç zaman unutmayacaq. Dostluğumuz və qardaşlığımız yüksələn xətt üzrə davam edəcək.

# TÜRK ƏDƏBİYYATININ GÖRKƏMLİ ŞAİRİ

**Aynur Bədəlova**
*ADPU müəllim*
*badalovaaynurrr@gmail.com*

Türk ədəbiyyatı Şərq xalqları ədəbiyyatı içərisində sayılıb-seçilmiş, özünəməxsus yeri olmaqla dünya ədəbiyyatına əvəzsiz sənətkarlar bəxş etməyi bacarmış nadir ədəbiyyatlardandır. Görkəmli yazıçıların və şairlərin zəngin yaradıcılığı nəinki türk xalqları tərəfində sevilmiş və qəbul edilmiş eləcə də bütün dünya xalqlarının qəlbini fəth etməyi bacarmış və bu gün bütün dünya Cəlaləddin Rumi,  Yunis İmrə, Namiq Kamal, Tofiq Fikrət, Mehmed Akif Ərsoy, Ziya Göyalp, Rəşad Nuri Güntəkin, Nazim Hikmət və b. sevir, əsərlərini oxuyur və onların zəngin irsini çox yüksək qiymətləndirir. Türk şeirinin zirvəsi, gözəl şeirləri ilə türk və dünya xalqlarının sevimlisinə çevrilməyi bacarmış Nazim Hikmət yaradıcılığını xüsusilə qeyd etməliyik. Şair uşaq yaşlarından şeirlər yazmağa başlamış və onun bir çox şeirlər toplusu kitab şəklində müxtəlif dövrlərdə nəşr edilmişdir. Onun məşhur şeirlərindən “Sərviliklərdə”, “Günəşi içənlərin mahnısı”, “Orada tanış olduqlarım”, “Arvadıma məktub”, “Yer üzündə bir insan”, “Dəvət” (1)  və s. misal çəkmək olar.

Nazim Hikmət özünün romantik ruhlu, tutqun pafoslu, dərin məzmunlu əsərləri ilə müasir türk ədəbiyyatının inkişafına böyük təsir göstərib. O, həm mübariz ictimai xadim, həm də istedadlı şair, nasir və dramaturq idi. Lakin poeziya onun yaradıcılığının əsas istiqamətini, istedadının ən qüvvətli tərəfini təşkil edirdi. Bütün yaradıcılığını xalqının azadlığı, xoşbəxt həyatı uğrunda mübarizəyə həsr etdiyi vətənini, xalqını sevdiyinə görə şair iztirablı, çətin və keşməkeşli bir həyat yolu keçib, fasilələrlə ömrünü həbsxanalarda keçirib, vətənindən uzaqlarda yaşamağa məcbur olub. Şair XX əsrdə yaşayıb yaratmışdır. Xarakter olaraq mübariz olan Nazim Hikmətin şeirlərinin hər sətrində də mübarizlik ruhunu hiss etmək mümkündür.

Şair əzablı və keşməkeşli bir həyat sürmüşdür. Yaşadığı bütün çətinliklərə baxmayaraq, Nazim Hikmət həyata olan sevgisindən əl çəkməmiş, hətta həyatının ən iztirablı anlarında belə ruhunu incitməyə imkan verməmiş,  yeganə təsəllisi və yoldaşı sevimli şeirləri ilə həyatına davam etmişdir.  Onun həbsxanada yeganə ümidi və sevgisi şeirləri olmuşdur. Şeirləri sayəsində özünü xalqına, vətəninə, ölkəsinə yaxın hiss etmişdir. Şairin şeirlərdəki gözəl, melodik duyğu və səmimiyyət hər bir oxucunun emosional dünyasına təsir göstərməyi bacarmış və bundan sonra illər keçsə də duyğular daha da dərinləşmiş formada özünü göstərməkdə davam edəcəkdir.

Nazim Hikmət deyəndə ağla sərbəst misralar, tez-tez istifadə olunan qafiyələr və yaxud nadir bir-birini tamamlayan sonluqlar, uzun misralardan sonra getdikcə qısalmağa başlayan qırıq simli birləşmələr gəlir. Bu qafiyələrin, birləşmələrin içində dayanan isə dərin

mənə, dəqiq fikirlər və dəyərli mülahizələrdir. Görkəmli şairin yaradıcılığı həm türk ədəbiyyatşünaslığında həm də Azərbaycan ədəbiyyatşünaslığında nə qədər araşdırılmış olsa belə onun şeirlərinin arxasında gizlənəndə dərin fikirlər ümmanını təhlil edib bitirmək mümkün deyil. İllər keçdikcə onun şeirlərinə yeni baxışlar onun nə qədər dərin və zəngin bədii irsinin olduğunu göstərən cəhətlərdən biri kimi yenidən geniş təhlillərə cəlb olunacaq və daha başqa aspektlərdən tədqiqata cəlb ediləcəkdir.

# ATATÜRKÜN PREZİDENTLİYİ DÖVRÜNDƏ TÜRKİYƏDƏ MİLLİ MÜDAFİƏ SƏNAYESİNİN İNKİŞAFI

**Mehman Ağayev**
*ADPU, t.ü.f.d*
*E-mail: mehmanaga@mail.ru*

Atatürk xarici siyasətində "yurdda sülh, cahanda sülh" prinsipini əsas tutmaqla bərabər, milli müdafiə sənayesinin inkişafını hər zaman dəstəkləmişdi. "İstiqbal səmalardadır. Səmasını qoruya bilməyən millət, sabahından əsla əmin ola bilməz" − deyən Atatürkün təşviqi ilə 1926-cı ildə Kayseridə alman-türk ortaqlığı ilə Türkiyənin ilk təyyarə zavodunun açılışı əlamətdar hadisə olmuşdu. Bundan sonra Türkiyənin ən zəngin iş adamlarından biri olan Nuri Dəmirağ da, 1936-cı ildə təyyarə zavodu qurma cəhdinə başlamışdı. Təyyarələri idarə edən türk pilotların yetişməsi üçün zavodun olduğu ərazidə bir aviasiya məktəbi də qurulmuşdu. Məktəb 1943-cü ilə qədər 290 pilot yetişdirmişdi.

Bu məqamda Türk aviasiya tarixinin ən önəmli şəxslərindən biri olan Vecihi Hürquşun adını xüsusilə vurğulamaq lazımdır. Həm I dünya müharibəsində, həm də Milli Mücadilədə böyük qəhrəmanlıqlar göstərən Vecihi Hürquş, müharibə əsnasında təyyarə vuran ilk türk pilotu olaraq tarixə düşmüşdü. Türkiyənin ilk qadın pilotu isə "Gökmən Bacı" adı ilə tanınan Bedriye Tahir Gökmendir. Atatürkün mənəvi qızı sayılan, ismi hal-hazırda İstanbuldakı bir hava limanına verilən Sabiha Gökçən isə ilk qadın hərb pilotu olaraq bilinməkdədir.

Atatürkün dəstəyi ilə, Şakir Zümrə və Nuru Killigilin qurmuş olduqları özəl silah zavodlarının Türkiyə hərb sənayesi tarixində müstəsna rolu olmuşdur. Bu zavodlarda istehsal olunan silahlar Türkiyənin ehtiyacı üçün istifadə edildiyi kimi, xaricə də ixrac olunurdu.

1925-ci ildə Osmanlı donanmasından qalan Yavuz döyüş gəmisinin təmiri qərarı Gölcükdə hərbi gəmiqayırma zavodunun qurulmasında mühüm rol oynamışdı. Hərbi Dəniz Qüvvələrinin inkişafı ilə paralel olaraq 1930 tarixində İstanbulda Dəniz Hərbi Akademiyası açılmışdı. Ümumiyyətlə, hərbi müəssisələr yaradılarkən texniki kadrların hazırlanmasına da böyük əhəmiyyət verilmişdi. Hərbi sənayedə işləyə biləcək texniki işçilərin hazırlığı məqsədilə Kırkkale Hərbi Sənaye Liseyi fəaliyyətə başlamışdı. Bundan başqa bir çox gənc hərbi − texniki təhsil üçün xüsusilə Almaniya və Fransa başda olmaqla xarici məktəblərə göndərilmişdi.

Təəssüflər olsun ki, Atatürkün vəfatından sonra bu iş adamlarına yetərli dövlət dəstəyi verilməmiş, II dünya müharibəsinin bitməsindən sonra isə Türkiyədəki hərbi zavodların fəaliyyətinə maneələr çıxarılmışdı. Trumen doktrinası, Marşal Planı və Türkiyənin NATO-ya üzv olaraq qərb blokuna girmə təşəbbüsü, milli müdafiə sənayesinə də zərbə olmuşdur. Türkiyəni özlərindən asılı vəziyyətdə saxlamaq üçün öz silahını istehsal etməsinə demək olar ki, uzun illər qadağa qoyulmuşdu. Beləliklə, Atatürkün başlatmış olduğu milli müdafiə

sənayesi yox edilməyə başlanmışdı. Yalnız 20 iyul – 14 avqust 1974-cü ildə Türkiyə Silahlı Qüvvələrinin Kiprdə başlatdığı sülh hərəkatı üzərinə ABŞ-ın rəsmi Ankaraya silah və ehtiyat hissələrinin satışı ilə əlaqədar embarqo tətbiq etməyə başlaması, Türkiyənin hərbi sənayesi üçün dönüş nöqtəsi olmuşdu. ABŞ və müttəfiqlərindən asılılığı azaltmaq və silah ehtiyacını daxili imkanlarla qarşılamaq üçün milli müdafiə sənayesinin yaradılması prioritet kimi müəyyən edilmişdi. Bu dövrdə alınan qərarlar və qazanılan təcrübələr nəticəsində ilk olaraq Asel-San (1975) (mənası: Hərbi Elektronik Sənayesi), daha sonrakı illərdə Havel-San (1982) (mənası: Hava Elektronik Sənayesi), və Roket-San (1988) kimi milli müdafiə sənayesi strukturları qurulmuş, Türkiyənin müdafiə sənayesi yenidən canlandırılmışdır.

# SOVYET-TÜRK KÜLTÜREL İLİŞKİLERİ 1920'LERDE – 30'LARDA

**Elnarə Məmmədova**
*Van Yüzüncü İl Universitetinin doktorantı*
*ADPU, Ümumi tarix və tarixin tədrisi*
*texnologiyası kafedrası, müəllim*
*Elnare_miran@mail.ru*

Aralarındaki iç savaş ve dış müdahaleye karşı mücadele yıllarında Sovyet Rusyası ve yeni Türkiye halkları, barışçıl inşaya geçişle birlikte sadece siyasi güçlenmeye ve genişlemeye devam etmediler, aynı zamanda bilim ve sanat alanında güven ve karşılıklı anlayış çerçevesinde ilişkiler kurdular. Kültürel etkileşim, ikili ilişkilerin toplam hacminde çok mütevazı bir rol oynadı.

İki ülke arasındaki ilk kültürel temaslar, ulusal kurtuluş mücadelesi sırasında gerçekleşti. Hatta 4 Mart 1922 tarihli Nota'da Çiçerin RSFSR hükümeti adına Moskova'daki Türk büyükelçisini bilgilendirdi: "Rus Hükümeti Türkiye Büyük Millet Meclisi Hükümeti'nin emrine verilen Rus yüksek öğretim kurumlarında 100 kontenjan ve akabinde Türk öğrenciler için ayrılan kontenjan sayısı artırılacaktır”.

1922 yılında Türkiye'yi ziyaret eden Sovyet kültürünün ilk temsilcisi ünlü ressam E.E. Lancer. M. Kemal'in ve kurtuluş hareketinin diğer kahramanlarının portrelerini yaptı. "Ankarada Yaz" adlı kitabında Türk halkının yaşam ve adetlerini anlatan eskizlerinin bir bölümü yer aldı.

1925 yılında Sovyet hükümeti, Rusya İlimler Akademisi'nin kuruluşunun 200. yıl dönümü münasebetiyle Türk bilim adamlarını kutlamalara davet etmiş, buna cevaben İstanbul Üniversitesi önde gelen Türk tarihçisi Prof. M. Fuad Köprülü Lelinqrada gitmişdir.

1920'lerde Türk ve Sovyet sinemacıları arasında ilk temaslar kuruldu. Hatta daha önce, 1925'te seçkin Türk yönetmen ve oyuncu Ertuğrul Muhsin SSCB'ye geldi. Moskova'da Goskino'nun faaliyetleriyle ilgilendi, ardından Odessa film stüdyosunun çalışmalarına aktif olarak katıldı.

İki ülke arasındaki kültürel bağların gelişmesinde Sovyet yazarlarının Türkiye'ye, Türk yazarlarının ise SSCB'ye yaptıkları geziler önemli yer tutmuştur. 1933 baharında yurda dönüşünde "İstanbul-Ankara-İzmir" kitabını yayımlayan Sovyet yazar L. Nikulin tarafından iki aylık bir Türkiye gezisi yapıldı. Bu yıllarda, daha sonra “Giden İslam Ülkesinde” kitabını yayınlayan L. Seifullina ve iki öykü koleksiyonunu Türkiye'ye ithaf eden P. Pavlenko da Türkiye'yi ziyaret etti.

Böylece, 20-30'larda aktif olarak gelişen bilimsel ve kültürel işbirliği Türkiye ile Sovyet Rusyası arasındaki dostluk bağlarının güçlenmesinde çok önemli bir faktör olmuştur.

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ TÜRKİYƏ CÜMHURİYYƏTİ MƏDƏNİYYƏTİNİN RUS TƏDQİQATÇILARI TƏRƏFİNDƏN ÖYRƏNİLMƏSİ

**Hicran Nadirova**
*Van Yüzüncü İl Universitetinin doktorantı*
*ADPU, Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrası, müəllim*
*nadirova_hicran@mail.ru*

Türkiyə Cümhuriyyətinin əsrlər boyu geniş torpaqlara və fərqli mədəniyyətlərə sahib olması səbəbi ilə dünyanın bir çox ölkəsinin diqqətini çəkmiş, araşdırmalar aparılmışdır. XVIII əsrin ortalarından etibarən ruslar da müxtəlif səbəblərdən güclü cənub qonşusuna daha çox maraq göstərməyə başladı. Bu maraq təkcə hərbi-siyasi və iqtisadi məsələlərlə deyil, eyni zamanda mədəni həyat ilə də bağlı məlumatların toplanmasına səbəb oldu. Türkiyə mədəniyyətinin rus tədqiqatçıları tərəfindən tədqiqini iki əsas dövrə bölə bilərik: 20-30-cu illər və 40-cı illərin sonundan bu günə qədər. 1920-1930-cu illərdə əsas məsələ Türk inqilabı və Atatürkün həyata keçirdiyi reformlar idi (xüsusilə dil islahatı). 40-cı illərin sonlarından etibarən isə Türkiyə mədəniyyətinin tədqiqi sistemli şəkildə həyata keçirildi.

20-30-cu illərdə Türkiyə Cümhuriyyətinin mədəni həyatını öyrənmək üçün bu ölkəyə səfər etmiş sovet mədəniyyət xadimlərinin səyahət eskizləri və gündəlik qeydləri xüsusi maraq doğurur. Rəssamlar E. E. Lansere, A. Kriçenko, yazıçılar L. Seyfullina, P. Pavlenko, L. Nikulin, O. Bubnova, jurnalistlər D. A. Lebedev və Y. Tişanski öz kitablarında, əsərlərində əsasən yeni türk milli ziyalıların cahilliyə, dini fanatizmə qarşı mübarizəsini diqqətə çatdırır, türklərin ədəbiyyat, incəsənət və elminin qabaqcıl xadimləri ilə görüşləri, mədəni-maarif müəssisələrin fəaliyyəti haqqında məlumat verilir. Bu əsərlər Türkiyə Cümhuriyyəti tarixinin əsas islahat dövrünü yaşadığı ilk on ildə baş verən hadisələrin tədqiqi kimi öz əhəmiyyətini qoruyur.

Gənc Sovet dövləti daha çox Türkiyənin musiqisinə və incəsənətinə böyük maraq göstərirdi. Məşhur sovet musiqişünasları V. Belyayev və M. Ippolitov-Ivanovun əsərləri bunu sübut edir. İncəsənət sahəsində qarşılıqlı əlaqələrin mühüm göstəricilərinə misal olaraq, 1936-cı ilin yanvarın 1-də Rusiyada təşkil edilmiş ilk türk rəsm sərgisini göstərə bilərik. (“Cümhuriyyət” qəzetinin 2 yanvar 1936-cı il tarixli xəbərinə əsasən).

İkitərəfli mədəni əlaqələrin ən yaxşı göstəricisi 1933-cü ildə rus rejissorları N. Zarxi və S. Yutkeviç tərəfindən çəkilmiş, iki ölkəni birləşdirən dostluq, mehriban qonşuluq əlaqələrini göstərən “Ankara-Türkiyənin ürəyi” filmini göstərə bilərik.

40-cı illər isə türk mədəniyyəti sahəsində araşdırmalar aparmaq üçün əlverişsiz idi. Böyük Vətən Müharibəsi illərində sovet türkoloqları nəzərəçarpacaq dərəcədə azaldı. Lakin müharibədən sonrakı dövrdə münasibətlərin normallaşması prosesi sovet-türk mədəni əlaqələrinin əhəmiyyətli dərəcədə artması ilə müşayiət olundu.

# YƏHYA KAMAL POEZİYASINDA MİLLİ BİRLİK VƏ MİLLİ KİMLİK MƏSƏLƏSİ

**Aytən Abbasova**
*ADPU, Türkoloji mərkəzin Türk ədəbiyyatı bölməsinin baş mütəxəssisi, f.ü.f.d.*

Yəhya Kamal (1884-1958) minillik zəngin ənənələrə malik türk şeirini Qərb ədəbiyyatının sənət anlayışı ilə birləşdirmiş, özünəməxsus üslubu ilə türk şeirinə dəyərli bədii nümunələr bəxş etmiş ustad sənətkardır. Yaşadığı dövrdə heç bir kitabı nəşr olunmasa da, şairin yazdığı şeirlər qısa vaxt ərzində dildən-dilə yayılmış, ədəbi prosesə yeni istiqamət verməyi bacarmışdır. Parisdə təhsil aldığı dövrdə fransız ədəbiyyatı ilə yaxından tanışlıq onun şeir haqqında düşüncələrinin kökündən dəyişməsinə səbəb olmuşdur. Sözlərin sadəcə yan-yana düzülməsi ilə meydana gələn misra yazmağın vaxtının keçdiyini düşünən şair, həm də bir ideya, fikir, qayə ifadə etməklə musiqili bir dil yaratmaq fikrini irəli sürürdü. Yəhya Kamal "Bu dil ağzımda anamın südüdür" dediyi türk dilində əruz vəzninin gözəl nümunələrini türk poeziyasına bəxş edə bilmişdir.

Yəhya Kamal şeirlərində mənsub olduğu xalqın sosial, siyasi problemlərinə birbaşa yer ayırmır, ancaq bu məsələlər şairin diqqətindən qətiyyən kənarda qalmır. Onun poeziyasında milli kimlik məsələsi hər zaman ön plandadır, şair iliklərinə qədər özünü türk hesab edir və bundan duyduğu qüruru dilə gətirir.

Yəhya Kamal türk ədəbiyyatında yeni dövrün başlamasını ədəbiyyatda millətin duyğu və düşüncələrinin ifadə olunmasına olan ehtiyacla birbaşa bağlayırdı. Bunu Qərb ədəbiyyatına bənzəmə meyli kimi dəyərləndirənlərin əksinə olaraq şair bu ehtiyacın ictimai-siyasi proseslərin nəticəsi kimi meydana çıxdığını dilə gətirirdi.

Kökləri qədim olan türk şeir tarixini incəliklə izləyən Yəhya Kamal ona tənqidi yanaşır, onun yalnız misra və beyitlərdən ibarət olduğunu söyləyirdi. Ruhu tərk edilmiş bir bədənin cəsədə çevrildiyi kimi türk şeiri özünəməxsus ruhunu itirdikdən sonra çürüməyə məhkum olmuşdu. Köhnə və yeni şeir arasında daim müqayisə aparan şair şeirin inkişafını istəyirdi. Köhnənin təməlləri üzərində yeninin üstünlüklərindən faydalanaraq yeni tipli türk şeirinin formalaşması şairin ən böyük qayəsi idi.

Türk tarixinə olan dərin marağı sayəsində Malazgird döyüşündən üzü bəri türkün qəhrəmanlıq səhifələrini araşdıran şairin əsərlərində keçmişi şərəfli zəfərlərlə dolu olan xalqının milli ruhu duyulur. O, türkün tarixi keçmişini poeziyanın mövzusuna çevirməklə millətinin mənəvi varlığına xidmət ediləcəyinə inanır. Fransada olduğu müddətdə Avropada yaşayan millətlərin bunu bacardığını müşahidə edən şair türk ədəbiyyatının millətinin böyüklüyünü ifadə edə bilməməsinə təssüflənmiş, Sərvəti-fünunçuların keçmişə düşmən münasibətinə qarşı çıxmışdır. "Dili, könlü və imanı bir" insanların meydana gətirdiyi top-

luluğu millət adlandıraraq əsərlərinə türkün şanlı tarixinə dair məqamlara toxunur, milli birlik məsələsini ön planda tutmağa çalışır. Təqdim olunan məqalədə XX əsrdə türk şeirinə yeni istiqamət vermiş Yəhya Kamalın poeziyasında milli birlik və millik kimlik anlayışı problemi araşdırılacaqdır.

# TÜRK SƏNƏTKARLARININ PUBLİSİSTİKA VƏ TƏRCÜMƏ NÜMUNƏLƏRİ "FÜYUZAT" JURNALINDA

**Günel Yunusova**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu f.ü.f.d.*
*yunusova_edu@mail.ru*

Xalqımızın ədəbi-mədəni, həmçinin ictimai-siyasi həyatında, milli oyanış tarixində Ə.Hüseynzadənin redaktoru olduğu "Füyuzat" (1906-1907) jurnalının son dərəcədə böyük rolu vardır. Onun üzərinə götürdüyü xalqı oyatmaq və gələcək mübarizəyə hazırlamaq kimi missiyası geniş miqyaslı, çoxşaxəli idi. Jurnalın ətrafında elitar və vətənpərvər bir ziyalı dəstəsi toplaşmışdır. Cəmi bir il işıq üzü görən, ümumilikdə otuz iki nömrəsi dərc olunan məcmuənin səhifələrində çeşidli mövzularda yazılarla üzləşmək mümkün idi. Məcmuənin əməkdaşları osmanlı türklərinin söz xəzinəsinə də məxsusi diqqət yetirir, osmanlı ədəbiyyatının rəngarəng problemləri, olayları, yenilikləri, ədəbi simaları ilə əlaqəli jurnalın səhifələrində sıx-sıx maraqlı və qiymətli əsərlər çap etdirirdilər.

Jurnalda osmanlı ziyalılarının rəngarəng səpkidə qələmə alınmış publisistik yazılarına da xeyli yer ayrılırdı. Müxtəlif mövzulara həsr olunmuş bu məqalələrdə oxucu kütləsini rəngarəng elmi, ictimai, siyasi olaylarla, habelə başqa-başqa məmləkətlərdə və məkanlarda baş verən məsələlərlə, maarif hadisələri ilə tanış etmək məramı güdülürdü. Belə məqalələrdən biri "Telefotoqrafiya" (1907, №14) adlı yazı idi. Müəllifi göstərilməyən bu məqalə elmi-publisistik səciyyə daşıyır. Yazı Türkiyədə nəşr olunan "Sərvəti-fünun" dərgisindən götürülmüşdü. Yazıda fotoşəkillərin teleqraf xətləri vasitəsilə uzaq məsafələrə göndərilməsindən danışılır.

"Füyuzat" da M.Ə.Rəcaizadənin yaradıcılıq irsinə də geniş diqqət verilirdi. Məcmuədə Mahmud Əkrəm bəyin nəzm örnəklərindən əlavə "Nigar xanım" (1907, №18) sərlövhəli maraqlı bir oçerkinə də rast gəlirik. Həmin oçerkdə Rəcaizadə məşhur osmanlı şairəsi Nigar xanımın həyat və yaradıcılığından bəhs edir. Onun ədəbi şəxsiyyəti haqqında maraqlı məlumat sərgiləyir: "Nigar xanım əfəndinin qüdrəti-şeiriyyələri, ülviyyəti-ruhiyyələri, riqqətihissiyyələri yerlilərcə nasıl məlum isə əcnəbilərcə də öylə mərufdur... Əvət, on üç əsrlik təbiəti-islamiyyənin afaqi-nisvandan doğurduğu Zöhreyi-şeir, fəqət, bu məhzun, bu münəvvər xanımdır." [1,s.281].

Müəllim Nacinin "Füyuzat"ın 1907-ci ildəki 22-ci nömrəsində dərc olunmuş "Bəqayiruh" adlı publisistik məqaləsi müəyyən qədər də mənsur şeiri andırır. Yazıda sənətkarın insan ruhunun əbədiliyi haqqında dini-fəlsəfi baxışları öz inikasını tapır. Müəllifin baxış və təəssüratının ümdə qayəsi belə bir istiqamətə yönəlir ki, adəm övladı cisim və ruh kimi iki

varlığın qovuşmasından ibarətdir. Torpaqdan xəlq olunmuş cisim ötəri, ilahi həqiqət olan ruh isə daimidir.

”Füyuzat”da işıq üzü görən “Osmanlı kadetləri və ermənilər” (1907, №25) sərlövhəli yazı siyasi publisistikanın maraqlı nümunəsidir. Məqalənin müəllifi osmanlı yazarı Midhət Paşazadə Əliheydərdir. Yazıda Osmanlı imperiyası məkanında yaşayan ayrı-ayrı etnik toplumlara, xüsusilə də ermənilərə münasibət məsələsindən söhbət açılır. Məsələyə demokratik kontekstdə yanaşılır.

Jurnalda Əhməd Kamalın da bir neçə qiymətli publisistik yazısı çap olunmuşdur. “Simurqun qanadları altında”, “Tahir Musayev” “Avropada”, “Bolqarıstan, oradakı müsəlmanlar” və s. məqalələr bu qəbildəndir. Bunlardan ikisi ədəbi-tənqidi xarakterli yazıdır.

Nəhayət, göstərilən mətləbləri ümumiləşdirərək belə bir qənaətə gələ bilərik ki, XX əsrin ilk onilliklərində Azərbaycan ədəbi-mədəni gerçəkliyində osmanlı türklərinin söz xəzinəsinə ən fəal, çevik münasibət göstərən, onun problemlərini ardıcıl olaraq diqqət mərkəzində saxlayan mətbuat orqanı “Füyuzat” məcmuəsi idi. Həmin əlamət və məhsuldarlıq jurnalda dərc olunan əsərlərin istər kəmiyyət, istərsə də keyfiyyət göstəricilərində özünü təzahür etdirir.

## QƏDİM TÜRKLƏRDƏ "DÖVLƏT" ANLAYIŞI

**Emiliya Xəlilova**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu,*
*Türk filologiyası şöbəsinin elmi işçisi*

Dövlət ailə, oba, aşirət və qəbilələrin birləşməsi ilə təşkil olunurdu. Ən qədim Türk tayfalarından olan Hunlar ilk Hun dövlətini qurmuşlar. Hunlar Türklərin əcdadı olaraq qəbul edilir. Onların ana yurdu Orta Asiya olmuşdur.

Tarixdə Hun dövləti haqqında ilk məlumat e.ə. IV əsrə aiddir. Böyük Hun İmperatorluğu e.ə. 220 ildə Teoman (Teuman) tanhu (Xaqan) tərəfindən yaradılıb. Bu Mərkəzi Asiyada ilk Türk dövləti olmuşdur.

Bu məqalədə görkəmli Türk tarixçi alim Bahaeddin Ögelin "Türk kültürünün gelişme çağları" əsərində toxunduğu Türklərdə "Dövlət anlayışı" mövzusundan bəhs olunacaq.

Qədim Türklər "dövlət" sözünün əvəzinə "il" ifadəsini işlədirdilər. Onların fikrincə "xalq" və "torpaq" dövləti meydana gətirən iki əsas ünsürdü. Torpaqsız bir dövlət düşünülə bilməzdi. Xalq torpağı və torpaq da xalqı tamamlayaraq bir dövlət qururdular. Torpaq Türklər üçün çox müqəddəs və toxunulmaz sayılırdı.

Böyük Hun İmperatoru Metenin (e.ə. 209-174) güclü qonşularından olan Tunquzlar onun məşhur atını və Xatınını istərkən, Mete atını və Xatınını Tunquzlara vermiş. Lakin Tunquzların Metedən sərhəddəki şoran olan kiçik bir torpaq parçasını istəmələri və dövlətin görkəmli şəxslərinin torpaqların verilməsinə razı olmaları Meteni bərk qəzəbləndirmiş və o şəxslərin başlarını vurduraraq ətrafındakılara belə demişdi: "At və Xatın mənim şəxsi malım olduğu üçün onları verdim. Torpaq isə dövlətin malıdır. Dövlətin malını kim başqasına verə bilər".

Qədim Türklərə görə "dövlət" də Tanrı tərəfindən verilmişdi. Buna görə də Tanrı üçün "İl berigme Tenri", yəni "Dövlət" verən Tanrı da deyirdilər.

Qədim Türk kitabələri Tanrı tərəfindən yeni və böyük xaqanların Türklərə başçı gətirilməsindən də bəhs edirlər.

Tanrı Türk xaqanını "Yer" və "Sular" sahibsiz qalmasın deyə, onları qorumaq üçün göndərmişdi.

Türklərin əcdadlarının yaşadıqları və idarə etdikləri "Yer"lər və "Su"lar sahibsiz qala bilməzdi.

Türklər dövləti idarə edən hökmdarların Göy Tanrı tərəfindən verildiyinə inanırdı. Bu inanca "Kut" deyilirdi. Yəni qədim Türklərin inandıqları Göy tanrı dövləti idarə etmək səlahiyyətini və gücü hökmdara vermişdir".

Qədim Türk düşüncəsinə görə, millət, dövlət və hüquq qanunu üç əsas amil idilər və Xaqan isə bunları tamamlayan bir yardımçı idi.

Dövləti idarə edən Xaqanlar qanuna, adət-ənənəyə riayət etmədikdə Tanrı və xalq yanında öz etibarlarını itirərək iqtidardan uzaqlaşdırılırdılar.

# CÜMHURİYYƏT DÖVRÜ TÜRK ƏDƏBİYYATINDA DRAMATİK NÖV

**Xanım Abdullayeva**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu,*
*Türk filologiyası şöbəsi, elmi işçi, f.ü.f.d.*
*mehivaqo@mail.ru*

Türk cəmiyyəti Birinci Dünya Müharibəsindən ağrı və məğlubiyyətlə çıxmışdır. Anadolu səfalət içində idi; müstəqil dövlətlər tərəfindən işğal edilir, yandırılır və məhv edilirdi.

Ancaq xarabalıqlardan tamamilə yeni bir türk dövləti yarandı. Bu əsrdə Qərbə yönəlmək cəhdləri yeni dövlətin milli siyasətinə çevrilmişdir, inqilablar ölkə ərazisini bürümüşdür. Türk millətinə tamamilə yad olan yeni qurumlar təqdim edilirdi. Bütün bunları yaşayan bir cəmiyyətin teatr və dramaturgiyası çox qısa müddətdə öz subyektlərini, öz dilini də özü ilə gətirəcəkdi. Onun sələfi olan Qərb teatrından təsirlənmə məsələsi Tənzimat və Məşrutiyyət teatrından fərqli idi. Cümhuriyyət dramaturgiyası və teatrı daha çox ənənəvi türk dramaturgiyasına və onun qaynaqlarına yaxınlaşması ilə seçilirdi. Sözsüz ki, bu dövrdə ənənəvi təsirlə yanaşı, Qərbin təsirindən də danışmaq olar.

Cümhuriyyət dövrü türk ədəbiyyatında teatrın xüsusiyyətləri aşağıdakılardır:

Cümhuriyyət dövründə teatr yeni Cümhuriyyətin əsaslarını xalqa çatdırmaq vasitəsi kimi sürətlə geniş vüsət almağa başlamışdır.

Bu dövrdə uşaq teatrşünaslığı da inkişaf edirdi.

Qadınlar səhnədə daha çox çıxış etməyə başlayırdılar.

Dövlət konservatoriyası açılmışdı.

Cümhuriyyət dövrü türk ədəbiyyatında dəyişən həyat tərzi nəticəsində ailə dramları, həyat ziddiyyətləri, kənd reallığı, adət-ənənələr, kənddən şəhərə köçün yaratdığı problemlər, sosial və iqtisadi ədalətsizliklər, Osmanlı tarixindəki mühüm hadisələr və insanların bunun fonunda yaşadıqları əsas mövzu kimi müzakirə edilirdi.

Dramatik növdə yazılan əsərlər sadə, aydın dildə, nəzmlə nəsrin vəhdətində qələmə alınırdı.

Ənənəvi dramaturgiya (Qaragöz, Orta tamaşa və s.) ilə müasir teatrın xüsusiyyətlərini özündə birləşdirən əsərlər yaranmışdır.

Fərdi hisslər və düşüncələr, sosial institutlardakı dəyişikliklər teatrlarda səhnələşdirilirdi. Cümhuriyyət dövrünün prinsipləri və islahatları nəticəsində rasionallığın, elmin ön plana çıxdığı əsərlər yazılırdı.

Bu dövrdə epik (mənsur) və abstrakt mövzuları əhatə edən səhnə əsərləri də yazılırdı.

Cümhuriyyət dövrü teatrı Tənzimat və Məşrutiyyət dövrü teatrlarının davamı olsa da, bir çox spesifik cəhətləri ilə fərqlənirdi.

# XƏTİB TƏBRİZİ TÜRK ALİMLƏRİNİN ƏSƏRLƏRİNDƏ

**Gülşən Həmidli**
*AMEA akad. Z.M. Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu, elmi işçi*
*g.gamidli@gmail.com*

Xalqımızın zəngin tarixinin onun elm, fəlsəfə və mədəniyyətindəki mövcud rəngarəngliklikdə öz əksini tapması hər kəsə məlum faktdır. İstənilən tarixi dövrün araşdırılması, hər bir elm xadiminin, şairin, filosofun yaradıcılığının öyrənilməsi bizə bu faktın danılmazlığını sübut edir. Bu şərəfli yolda hər aşkara çıxarılan maraqlı qəziyyə, hər kəşf edilən əsər, hətta bir bilik zərrəsi belə önümüzdə geniş elmi üfüqlər açır, bizləri yeni-yeni araşdırmalara sövq edir.

Araşdırmalar sayəsində biz mümkün olduğu qədər çox məlumat toplayaraq, fərqli alimlərin tədqiq etdiyimiz məsələdə rəylərini müqayisə edirik. Bu işdə ilk və önəmli yerdə öyrəndiyimiz dövrə ən yaxın zaman kəsiyində yaşamış ərəb alimlərinin əsərləri, daha sonra şərqşünaslıq elmində öz sözünü demiş Avropa və rus şərq tədqiqatçılarının əsərləri gəlir. Ən nəhayətində, öz həmyerlilərimizin əsərlərinə müraciət edərək tədqiqatımızı zənginləşdiririk. Həmyerlilərimiz dedikdə, biz təkcə azərbaycanlı alimləri nəzərdə tutmuruq, "bir millət iki dövlət" prinsipini, mədəni, elmi, fəlsəfi yaxınlığımızı rəhbər tutaraq türk (osmanlı) alimlərini də bu siyahıya daxil edirik.

Bizim tədqiqat obyekti olaraq seçdiyimiz alim, dilçi, ədəbiyyatşünas, filosof, şərhçi, XI əsrin fenomen alimlərindən biri sayılan, Təbriz şəhərində dünyaya gəlməsinə baxmayaraq gənc yaşlarından ərəb mədəniyyətinin beşiyi, elm və mədəniyyət mərkəzlərinin ən önəmlilərindən biri, hətta birincisi hesab olunan Bağdadda yaşayan, burada elmə, biliyə yiyələnən, həm öz dövründə, həm də sonrakı zamanlarda yazdığı kitabları, şərhləri ilə şöhrət qazanan Xətib Təbrizidir.

Həmyerlimiz haqda ilk məlumatları Yaqut əl-Hamavi, İbn Xəlliqan, əl-Bəxarzi kimi məşhur orta əsr ərəb alimlərinin əsərlərindən əxz etmək mümkündür. Şübhəsiz, Xətib Təbrizi ilə maraqlanan, onu tədqiq edən hər bir insan bu əsərlərə müraciət edir. Belə ki, alimin həyatı haqqında çox az məlumat mövcuddur və bu məlumatlar bir çox əsərlərdə təkrarlanır. Əsas maraq kəsb edən əsərlər Xətib Təbrizinin yaradıcılığının fərqli sahələrinə həsr olunmuş tədqiqatlardır.

XVI əsrdə türk alimi Əhməd Əfəndi Taşkörpüzadə (1495 – 1561), XVII əsrdə Mustafa İbn Abdulla Haci Xəlifə (Katib Çələbi) (1608 – 1670), XIX əsrin sonu – XX əsrin əvvəllərində isə Şəmsəddin Sami (1850 – 1904) öz əsərlərində Xətib Təbrizi haqda məlumat verib, onun yaradıcılığını yüksək qiymətləndirmişdir. Habelə, müasir alimlərdən Əhməd Özəl alim-filoloqumuzun yaradıcılığına maraq göstərmişdir.

# ПРАКТИКООРИЕНТИРОВАННОСТЬ ОБУЧЕНИЯ В ТЕХНИЧЕСКИХ УНИВЕРСИТЕТАХ ТУРЦИИ

**Игорь Леонидович Десюкевич**
*Белорусская государственная*
*академия связи ( Белоруссия)*
*desjukevich@gmail.com*

В современном мире Турецкая Республика обладает мощной и дифференцированной системой высшего профессионального образования, в которую входит более двухсот учреждений высшего образования разного типа (университеты, высшие технологические институты, военные и полицейские академии, институты, консерватории, профессиональные высшие школы и др.). Так, в популярный мировой рейтинг QS World University Rankings 2022 входит 21 турецкий университет. В настоящее время Турция имеет вторую по величине англоязычную систему высшего образования в Европе, которая включает в себя государственные и значительную часть частных университетов. Более того, в некоторых университетах в образовательном процессе используется несколько иностранных языков (например, Университет Мармара в Стамбуле – английский, немецкий и французский языки). Это обеспечивает как доступность турецкого высшего образования для иностранных студентов, так и способствует повышению качества образовательного процесса в университетах страны.

Для белорусской высшей школы особый интерес представляет турецкий опыт по созданию институциональных основ (организационного, управленческого и образовательного характера), обеспечивающих высокую степень практикоориентированности обучения в технических университетах Турецкой Республики.

В настоящее время наиболее авторитетными турецкими университетами технического профиляна мировом образовательном рынке являются: Стамбульский технический университет (основан в 1773 г.), Yıldız Technical University (основан в 1911 г.), Middle East Technical University (основан в 1956 г.), İzmir Institute of Technology (основан в 1992 г.), Gebze Technical University (основан в 1992 г.).

Следует выделить следующие интересные для белорусской высшей школы меры по повышению практикоориентированности обучения в технических университетах Турции.

Во-первых, создание при поддержке государства и бизнеса технопарков при университетах, которые создают благоприятные условия для стартапов в сфере информационных технологий, современных материалов, энергетики, автомобилестроения, химии, биологии и экологических технологий, а также для создания высокотехноло-

гичных продуктов и услуг, инновационных разработок и их коммерциализации (например, METU-Technopolis, Yıldız Technical University's Teknokent и др.).

Во-вторых, создание совместных научно-исследовательских партнерств между университетами и турецкой промышленностью для активизации научно-исследовательской деятельности в рамках научных центров и лабораторий, а также создания и масштабирования новых проектов в промышленном масштабе (например, Исследовательский центр биотехнологии и биоинженерии İzmir Institute of Technology).

В-третьих, грантовая поддержка инновационных проектов со стороны Совета по науке и технологиям (TUBITAK), отвечающей в стране за научные исследования и технологическое развитие в соответствии с национальными приоритетами.

Таким образом, турецкий опыт по обеспечению практикоориентированности обучения в технических университетах интересен тем, что обеспечивает конкурентоспособность, научно-технологическую ориентированность и социальную эффективность технической высшей школы страны.

# ƏBDÜLHAQ HAMİD TARHAN DRAMLARININ MÖVZU TƏSNİFATI

**Ülviyyə Eminova**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu, dissertant*

Əbdülhaq Hamit Tənzimatdan sonrakı bütün ədəbi və siyasi dövrləri yaşamış bir şairdir. O, türk ədəbiyyatında “Şair-i Əzəm” (böyük şair) kimi tanınır. Onun teatr janrında iyirmi bir əsəri var. O, mənzum əsərlərinin bir qismini nəzm formasında, bəzilərini isə heca vəzni ilə yazmışdır.

Romantizm cərəyanının təsiri dram əsərlərində özünü göstərir. Şekspir və Viktor Hüqonun təsiri ilə bəzi yerlərdə Kornelin də təsiri var. O, dram əsərlərində ağır və təmtəraqlı dildən istifadə edirdi. Abdülhaq Hamit Tarhanın əsərlərini də aşağıdakı kimi təsnif etmək olar.

**1. Hadisələri Orta Asiyada keçən dramlar**

Macera-yı Aşk
Nesteren
Zeynep
Hakan

**2. Gündəlik Həyatdan götürülmüş dramlar**

Səbri-Səbat
İçli Kız
Liberte
Yadigar-ı Harb

**3. Hindistan və İngiltərə siyasəti ilə bağlı dramlar**

Duhter-i Hindu
Finten
Cünun-ı Aşk
Yabancı Dostlar

**4. Mövzusu Tarixdən götürülmüş dramlar**

Əşbər və Sardanapal
Nazife, Tezer, Tarık, İbn Musa
İlhan, Tayflar Geçidi, Arziler, Ruhlar

**Macera-yı Aşk** adlı əsərdə din və ənənənin aşiqləri bir-birindən ayıran ünsürlər olduğu vurğulanır.

**Nesteren** adlı əsərin mövzusu Kornelin Le Cid adlı əsərindən alınmışdır.

**İçli Kız** – Namiq Kamalın Zavallı Çocuk adlı əsərinə oxşayır.

**Səbri-Səbat** – Paris cəmiyyətinin həyatı, məişət söhbətləri, qəhvə söhbətləri kimi bölmələrin müzakirə edildiyi dramdır. Bu əsərin iki bölməsi atalar sözləri ilə doludur.

**Liberte** – Bu alleqorik əsərdir. II Əbdülhəmidin Midhət Paşanı sürgün etdirməsi mövzusu müzakirə edilir. Siyasi mövzuda yazıldığından düz otuz il sonra çap olundu. Əsərin məqsədi Midhət Paşanı tərifləməkdir.

**Yadigar-ı Hərb** – Birinci Dünya Müharibəsi illərində yazılmışdır. Xüsusilə İngiltərənin müharibədəki mənfi rolundan bəhs edilib. Bu əsərin qəhrəmanları arasında sonuncu həyat yoldaşı Lüsyen Xanım da var.

**Finten**də Şekspir təsiri özünü göstərir. Yüksək təbəqəyə daxil olmaq üçün hər yola əl atan qızın faciəsi əks olunur.

Həm İngiltərədə, həm də Hindistanda cərəyan edən Cünûn-ı Aşk, maxaracanın daxili dünyasındakı qarşıdurmalara əsaslanır. Hind Maxaraca personajı nə öz xalqı, nə də ingilislər tərəfindən qəbul edilməyən bir tipdir. Əsərdə müstəmləkəçiliyin insanlara təsiri göstərilib.

**Eşber** – Hamitin ritorikada üstünlüyünü göstərən əsərdir.

Mövzusunu İlhanlılar tarixindən götürən dörd pyes bir-birinin davamı kimi qəbul edilir. (İlhan, Tayflar Geçidi, Arziler, Ruhlar)

Dram əsərlərini tamaşaya qoyulmaq üçün yox, oxunmaq üçün yazıb. Ona görə də bu əsərlər səhnə texnikasına, dilinə uyğun deyil.

# TÜRKİYƏ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ DİLƏ OLAN MÜNASİBƏT

**Faidə Omarova**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu, dissertant*

Dil milli mədəniyyətin inkişafında və yayılmasında önəmli bir vasitə olduğu kimi, milli duyğunun irəliləməsində də önəmli bir faktordur. Bundan başqa, dil millətin formalaşmasında, insanların bir-biri ilə ünsiyyət qurmasında əsas rol oynayır. Buna görə də, Türkiyədə Cümhuriyyət dönəmində əsas diqqət yetirilən məsələlərdən biri də bu idi ki, milli mədəniyyəti, müstəqilliyi, milli bütövlüyü və ictimai sülhü qoruyan milləti təşkil edən insanlar arasında danışılan dil bir-birindən fərqlənməsin, sadə, anlaşıqlı və zəngin olsun.

Türkiyə Cümhuriyyəti dövründə dil ilə bağlı əsas prinsiplərdən biri türk dilinin gözəlliyinə, zənginliyinə və qüdrətinə, bu dilin böyük bir mədəniyyət dili olma potensialına inanmaq idi. Atatürk bu barədə belə deyirdi: "Türk millətinin dili türk dilidir. Türk dili dünyanın ən gözəl, ən zəngin və ən asan dilidir... Türk dili türk milləti üçün müqəddəs bir xəzinədir. Çünki türk milləti öz əxlaqının, adət-ənənəsinin, yaddaşının, mənafeyinin qorunduğunu, bir sözlə, millətini bu gün millət edən hər şeyin dili sayəsində qorunduğunu görür. Türk dili türk millətinin ürəyi və ağlıdır." Bu fikirlərlə Atatürk türk dilinə olan güvənini və inamını göstərmişdir.

Türk dilinin mahiyyətindəki zəngin xəzinəni üzə çıxarmaq bütün türk millətinin ən vacib milli vəzifələrindən biridir. Türk Dil Qurumunun yaradılması və dil qurultaylarının təşkili ilə bu vəzifəni reallaşdırmaq yolunda ilk addımları atan Atatürk türk dilinin özünəməxsusluğunu, gözəlliyini, zənginliyini əldə etməsi üçün bütün dövlət qurumlarımızın diqqətli və maraqlı olmasının vacibliyini vurğulayaraq, dil məsələsinin hər kəsi narahat etməli olan dövlət məsələsi olduğuna diqqət çəkmişdir. Bu fikir Atatürkçülükdə "Türk dilini sadələşdirmək, zənginləşdirmək və xalq tərəfindən mənimsənilməsi üçün bütün yayım vasitələrindən istifadə etməliyik. Hər bir ziyalı istənilən mövzuda yazarkən buna diqqət yetirməyi bacarmalıdır. Danışıq dilimizi ahəngdar və gözəl etməliyik" kimi ifadə edilir.

Sonda onu qeyd etmək lazımdır ki, Cümhuriyyət dövründə türk dilinə diqqət və maraq xüsusilə artmışdır. Bu dönəmdə dil üzərində şüurlu araşdırmalar apararaq türk dilini yad dillərin təsirindən xilas etmək, tədqiq edərək dilin zənginliyini üzə çıxarmaq kimi məsələlərə də xüsusi diqqət yetirilmişdir. Atatürk bu həqiqəti "Biz dil və tarix naminə çalışmalıyıq ki, milli şüur yaşaya bilsin, oyaq olsun" şəklində vurğulayaraq hər kəsin diqqətini dil məsələlərinə yönəltmişdir.

# CUMHURİYET DÖNEMİNİN TÜRK DÜŞÜNCE YAPISINDA OLUŞAN "VATAN" KONSEPTİNE ETKİSİ

**Aygül Mirzəyeva**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu, dissertant*

Çağdaş dilbilimde kültür dilbilimsel çalışmalar önemli derecede artmakta ve ilgi çekmektedir. Bu gibi çalışmalar dili yalnız dilbilim açısından değil, aynı zamanda kültürel bir incelemeye tabi tutmaktadırlar. Kültür dilbilimin temel kavramı olan konseptin başlıca özelliği kültürel bilgi taşımasıdır. Bu kültürel bilgi halkın, milletin tarihinde yaşanmış olaylarla, onun değerler sistemi ile ilgilidir.

Çalışma Türkiye Türkçesinde ve Gagauz Türkçesinde Vatan konsepti üzerine bir inceleme olup, Türkiye ve Gagauz türklerinin vatanla ilgili bakışaçılarını, halk kültüründe doğup büyüdüyün toprağa bağlılık ve bu düşüncelerin dile yansımasını öğrenmeye yönelmiştir.

*Vatan* sözcüğü arapça kökenli kelime olub, *yerleşmek, ikamet etmek* anlamlarına gelmektedir. Güncel Türkçe Sözlük'de *yurt* sözcüğü vatan sözcüğünün eşanlamlısı olarak verilmekdedir:

"yurt, -du

1. isim Bir halkın üzerinde yaşadığı, kültürünü oluşturduğu toprak parçası, vatan".

Türk ulusu için vatan sevgisi, vatana toprağa bağlılık tarihin en eski sayfalarına dayanmaktadır. Bu bakımdan atasözleri ve deyimler de dilin kalıplaşmış ifadeleri olarak bu dünyagörüşünü kendinde barındırmaktadır. *Ana vatan, ana toprak* ifadelerini kullanarak Vatanı ana ile eşitleyen türk halkları onu en değerli varlığımız olarak korumalı ve sevmeli olduğumuz fikrini aşılamaktadırlar. Vatanla ilgili deyimleri incelediğimiz zaman Türkçede *vatan borcu; vatan hayini* deyimlerinin de sıkça kullanıldığını görmekteyiz.

Cumhuriyyet döneminin türk halkının vatanla ilgili dünyagörüşüne etkisi dönem edebiyyatında da açıkça gözlemlenmektedir. Kurtuluş Şavaşından sonra M.K.Atatürk ve kazanılan zaferlerle ilgili vatan temalı, vatanseferliği konu alan şiirler yazılmıştır.

Yüzyıllarca kimliklerini ve kültürlerini koruma uğrunda mücadele veren Gagauz Türklerinin de Türkiye ile ilişkileri Türkiye Cumhuriyeti'nin kurulmasıyla daha da yoğunlaşmıştır. Cumhuriyetin ilk yıllarından itibaren Romanya ve Bulgaristan'da görevli olan Türk diplomatların çalışmaları bu toplumun Türkiye ile ilişkilerinin gelişmesine, dillerini, milli kimliklerini korumalarına katkı sağlamışdır. Bugün nüfusunun büyük bir bölümü Moldova ve Ukrayna'da yaşayan Gagauzlar Romanya, Yunanistan, Rusya, Kazakistan gibi ülkelerde de dağınık olarak yaşamaktadırlar.

*İnsan vatansız, nice kuş türküsüz; Adam vatansız, nice gök yıldızsız* – diyen Gagauzlar, yaşadıkları bölgeleri kendilerine vatan bilmiş *ana vatan, ana topraam, ana taraf* diye benimsemişlerdir.

Cumhuriyet döneminde Türk halklarının birliği uğrunda gösterilmiş çabalar bu halkların bilincinde tarih, vatan, millet, dil, kültür birliğimizin korunmasında önemli pay sahibi olmuştur.

# MUSTAFA KAMAL ATATÜRK VƏ NAMİQ KAMAL POEZİYASI

**Arzu Məmmədzadə**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*

Görkəmli dövlət xadimi, qazi Mustafa Kamal Atatürk (1881-1938) Türkiyə Respublikasının banisi və İstiqlaliyyət mücadiləsinin rəhbəri qismində adını tarixə qızıl hərflərlə yazmışdır. O, Türkiyə Cümhuriyyətinin siyasi-iqtisadi, sosial və mədəni cəhətdən inkişaf etməsində, ölkə sərvətlərinin milliləşməsində, elm və təhsilin dünyəviləşməsində və modernləşməsində, bəşəri hüquq və azadlıqların təmin olunmasında qazanılan nailiyyətlərin memarı hesab edilir. Mustafa Kamal Atatürk öz yorulmaz və çoxşaxəli fəaliyyəti ilə Türkiyə Respublikası və xalqı üçün ölçüyəgəlməz işlər həyata keçirmişdir. Böyük öndər ölkənin tərəqqisini və çiçəklənməsini soydaşlarının elm və təhsil səviyyəsinin yüksəldilməsi, Türkiyənin Qərb dünyasına inteqrasiyası, elmi-mədəni mühitin formalaşdırılması və inkişafının sürətləndirilməsi ilə əlaqədar bilmişdir.

Mustafa Kamal Atatürk dövrün tanınmış ziyalıları, şair və yazıçıları ilə ünsiyyət saxlamış, öz diqqət və qayğısını onlardan heç bir zaman əskiltməmiş, Türkiyə ədəbi mühitinin inkişafında daim maraqlı olmuşdur. Onun əsərlərindən təsirləndiyi və mütaliəsindən böyük zövq aldığı, hətta nitqlərində istinadlar etdiyi şairlərdən biri də Namiq Kamal (1840-1888) idi. Namiq Kamal Tənzimat dövrü ədəbiyyatının ən görkəmli nümayəndəsi, yeni türk şeirinin yaradıcılarından biri qismində böyük şöhrət qazanmışdı. Onun vətənpərvərlik və hürriyyət, həmrəylik və istiqlal mövzularında yazdığı əsərlər əldən-ələ gəzir, könülləri riqqətə gətirən şeirləri dillər əzbərinə çevrilirdi. "Hürriyyət" qəsidəsi, "Vətən mərsiyəsi", "Vətən", "Nam alırız biz" və s. şeirlərində şairin vətən sevgisi, mübarizə ruhu əyani təzahür edir. Şeirin leksikası, qafiyə və ritm quruluşu həmin saf hissləri oxucuda vücuda gətirir. Oxucunu vətən və azadlıq naminə mücadiləyə səsləyir, xoş gələcəyə ümid və inamı artırır.

Mustafa Kamal Atatürk Namiq Kamal şəxsiyyətinə və ədəbi yaradıcılığına hər zaman böyük ehtiram göstərmişdir. Nitqlərinin birində söyləmişdir ki, "Vətənin qurtuluşu və istiqlalı üçün ölməyi bugünkü nəslə Namiq Kamal öyrətdi. Namiq Kamaldan gələn səsin sehrinə qapılmışdıq. Bu səs ruhumuzu şimşək kimi çaxdırırdı. Bu səs indiyədək oxuduğum şeirlərdəki səsə heç oxşamırdı". O, Namiq Kamalı "hisslərimin atası" deyə səciyyələndirmişdir. Atatürk şairin əsərlərinin daşıdığı qayəni, ideya və məzmununu yüksək qiymətləndirmişdir.

Hər iki dahi şəxsiyyəti birləşdirən birgə amallar vətən və xalq adına olmuşdur. Vətənin və xalqın azadlığı, istiqlaliyyət və tərəqqi, Türkiyənin inkişafa yönəlik xoş gələcək onların mübarizəsinin əsasını təşkil edirdi. Bu hədəflərə çatmaq üçün uca məsləkləri uğrunda silahla və qələmlə mücadilə edirdilər.

# ƏBU NƏSR FƏRABİ ƏT-TÜRKİ (873-950) VƏ RUHUN ÖLÜMSÜZLÜYÜ MƏSƏLƏSİ

**İbrahim Bağırov**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu,*
*Cənubi Azərbaycan şöbəsinin elmi işçisi, dissertant*
*ibbaghiroff@yahoo.com*

İslam dünyasında peripatetik fəlsəfənin ilk böyük nümayəndəsi hesab edilən Fərabi ruhun ölümsüzlüyü məsələsində malik olduğu müsəlman inancı və iki böyük yunan filosofuna (Platon və Aristotel) olan bağlılığı arasındakı münaqişədən qaynaqlı olaraq qərarsız nəzərə çarpır. Bu qərarsızlığından dolayı da onun ruhun ölümsüzlüyünə inanıb-inanmadığı kifayət qədər aydın deyil və filosofun bu barədə olan düşüncəsi haqqında fərqli fikirlər irəli sürülmüşdür. Görəsən, həqiqətən, Fərabi ruhun ölümsüzlüyünü qəbul edirdi? Bu məsələ ilə bağlı filosof insan nəfsini üç kateqoriyada ələ almışdır:

1) Əbədi səadətə qovuşan nəfslər: bu nəfslər cismani arzulardan uzaqlaşaraq bilik baxımından ağılları qazanılmış (müstəfad) ağıl mərtəbəsinə çatan nəfslərdir. Bu dərəcəyə çatmaq üçün nəfsin məlumata və zəhmətə ehtiyacı var. Müstəfad ağıl mərtəbəsində olan nəfslər daha güclü və gözəl surətə bürünür və maddədən müstəqil ali zövqləri dadaraq mücərrəd varlıq olmaq fürsətini əldə edir. Bu nəfslər kəmiyyət, keyfiyyət və növlərinə görə digərlərindən fərqli olub bədəndən ayrıldıqdan sonra kamala çatdıqlarına görə həqiqi səadətə nail olacaqlar.

2) Əbədi səfalətdə qalan nəfslər: Bu nəfslər bilik baxımından yetkinləşmiş və səadəti tanıyan nəfslərdir. Lakin yaxşı və gözəl olanı tanımalarına baxmayaraq bu nəfslər ona çatmaq üçün səy etməyərək hissi zövqlərə və şərə üz tutublar. Halbuki bunun həqiqi xoşbəxtliyə zidd olduğunun fərqindədirlər. Ölümdən sonra bu nəfslər əbədi səfalət içində qalacaqlar. Bu nəfslər həqiqəti bildiklərinə baxmayaraq həqiqətə müvafiq davranmamış, günah və şərin arxasından gediblər. Bu səbəblə də sonsuza qədər işgəncə çəkəcəklər.

3) Cahil nəfslər isə Fərabiyə görə yoxa çıxacaqlar. Bu nəfslər həm bilik həm də əməl baxımından yoxsul nəfslərdir. Fərabiyə görə ölümsüzlük bilən nəfslər üçün mümkündür. Cahil nəfslər isə yox olmağa məhkumdur.

Fərabi Aristotel kimi yalnız nəfsin əqli mərtəbəsi üçün ölümsüzlüyü mümkün hesab etmişdir. Onun Aristoteldən fərqləndiyi nüans isə individual nəfslərin də ölümdən sonra yaşaya biləcəklərini qəbul etməsidir. Fərabinin kamilləşməyən nəfslərin yox olacağına dair fikirləri filosofa qarşı tənqidlərin yönəldilməsinə səbəb olmuşdur. Məsələn, əndəlüslü İbn Tufeyl Fərabinin xüsusilə də nəfsin ölümdən sonrakı aqibəti məsələsi ilə bağlı yanlış düşündüyünü və özü ilə ziddiyyətə düşdüyünü vurğulayır.

Qısaca demək mümkündür ki, Fərabi bilik və əməl baxımından kamala çatmış xoşbəxt və sadəcə bilik baxımından yetkin əbədi səfalətdə qalan fasiq nəfslərin ölümsüzlüyünü qəbul etmişdir. Lakin onun cahil nəfslərin yox olacağı ilə əlaqədar fikirləri fəlsəfi baxımdan əsassız olmasa da, İslam dini düşüncəsi ilə ziddiyyət təşkil edir.

# AZƏRBAYCAN HEYKƏLTƏRAŞLIĞINDA ATATÜRK OBRAZI

**Xəzər Zeynalov**
*AMEA Memarlıq və İncəsənət İnstitutu*

Azərbaycan heykəltəraşlığında Atatürkün bədii obrazı geniş yayılıb. Görkəmli türk övladının heykəl və büstləri bu gün ölkəmizin müxtəlif şəhər və bölgələrini bəzəyir. Monumental heykəllərlə yanaşı, heykəltəraşlarımız Atatürkün dəzgah xarakterli heykəllərini də hazırlamışlar.

Xalq rəssamı, akademik Ömər Eldarov Atatürkün həm monumental, həm də dəzgah heykəllərinin müəllifidir. Zənnimizcə, heykəltəraşın bu mövzuda yaratdığı ən maraqlı əsəri Bakının mərkəzində, Bakıxanov və Səməd Vurğun küçələrinin kəsişməsində, Türkiyə səfirliyinin qarşısındakı parkda qoyulmuş heykəldir (2010).

Tuncdan hazırlanmış heykəl əsasən statik görünüşə malikdir. Müəllif türk xalqının qəhrəman liderini ayaq üstə, sakit, eyni zamanda təmkinli, vüqarlı görünüşdə təsvir etmişdir. O, sağ ayağını azca qabağa vermiş, əllərini yanına salmış, baxışlarını uzaqlara dikmişdir. Bütün bunlar heykəli yaraşıqlı, təmkinli göstərməklə yanaşı, həm də onun kompozisiyasının bədii effektini vizual baxımdan gücləndirir.

Monumental heykəllərlə yanaşı, Atatürkün kiçik həcmli plastik obrazları da yaradılıb. Ölçüləri kiçik olduğundan və qapalı mühitdə, əsasən interyerdə nümayiş etdirildiyindən belə heykəllərin sayı daha çoxdur.

Ö.Eldarovun yaratdığı Atatürk heykəli kiçik plastikanın diqqəti cəlb edən nümunələrindəndir. Ö.Eldarov onu at belində təsvir etmişdir. Bu, tarixi həqiqətə uyğun olmaqla yanaşı, həm də qəhrəmanlıq, hakimiyyət və qələbə rəmzidir. Atatürk at belində sərbəst oturaraq üzünü tamaşaçıya çevirmişdir. Adətən atlı heykəllərin üzü irəliyə doğru çevrilmiş olur. Bu heykəldə isə müəllif obrazın nəinki simasını, hətta qurşaqdan yuxarı bədənini sola – tamaşaçıya tərəf çevirmişdir. Bu, yapma sənətində az təsadüf olunan bir formadır. Atatürkün əynində hərbi geyim, belində qılınc vardır. O, sağ əli ilə atın yüyənindən yapışmış, sol əlində yarı burulmuş kağız tutmuşdur. Atatürkün at belində sərbəst, rahat oturuşu onun həm də mahir minici olmasından xəbər verir.

Maraqlıdır ki, Azərbaycanın korifey sənətkarları Atatürkü məhz at belində təsvir etməyə üstünlük verirlər. Xalq rəssamı, professor Tokay Məmmədovun gipsdən hazırladığı kiçik plastika nümunəsində Atatürk yenə də at belində təsvir olunub. Eyni zamanda bu iki sənətkarın yaratdığı əsərlər arasında kompozisiya, dinamika və plastika baxımından müəyyən fərqlər vardır. Ö.Eldarov atı dayanmış vəziyyətdə, T.Məmmədov isə hərəkətdə, sağ qabaq ayağını yuxarı qaldırmış durumda təsvir edib.

Atatürk obrazı müasir Azərbaycan təsviri sənətində populyar mövzulardan biridir. Heykəltəraşlıqla yanaşı onun obrazı rəngkarlıq və qrafikada da yayılmışdır. Türk xalqının böyük övladının bədii obrazı Azərbaycan təsviri sənətində şərəfli yer tutur.

# “YENİ QAFQASYA” JURNALININ NƏŞRİNDƏ TÜRKİYƏNİN MÜHÜM ROLU

**Ülvi Mikayılov**
*Bakı Dövlət Universiteti, doktorant*
*ulviaydin.m@gmail.com*

Azərbaycan jurnalistikasının mühüm bir hissəsini mühacirət mətbuatı təşkil etməkdədir. Azərbaycan mühacirət mətbuatı o dönəmdə yarandı ki, Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıldıqdan sonra yaradıcılarından olan Məmməd Əmin Rəsulzadə və onun məsləkdaşları ölkədən getmək məcburiyyətində qaldı. M.Ə.Rəsulzadə fərqli ölkələrdə mühacir həyatı yaşasa da, sonra məskunlaşmaq üçün Türkiyəni daha uyğun bilmişdir. M.Ə.Rəsulzadə Türkiyədə yaşamaqla yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin ideyalarını da yaşatmış oldu. İdeoloq 1923-cü ildə Azərbaycan Mühacirət mətbuatının ilki olan “Yeni Qafqasya” jurnalını təsis etdi. Jurnal Türkiyənin İstanbul şəhərində fəaliyyətə başladı. O dönəmdə sovet rejimi Türkiyəyə qarşı hiddət göstərir, jurnala müəyyən yasaqlar qoyurdu. Bütün bunlara baxmayaraq “Yeni Qafqasya” jurnalı 4 ildən artıq (1923-1927) fəaliyyətini davam etdirə bildi. Jurnalın nəşrində Türkiyənin ünvan olaraq seçilməsi onunla bağlı idi ki, Türkiyə Azərbaycanla din və dil baxımından yaxın idi.

“Yeni Qafqasya” jurnalının əsas yaradıcısı M.Ə.Rəsulzadə olsa da, müəyyən səbəblərdən jurnalın ilk nömrələrində onun adı açıq şəkildə göstərilmirdi. Jurnalda nəşr olunan yazıların böyük bir qismi onun qələm təcrübəsinin məhsulu idi.

Jurnal özünün gedəcəyi yolu açıqlayarkən yazırdı ki, “Yeni Qafqasya” millətçi, radikal və demokratdı. “Yeni Qafqasya” jurnalı Türkçüdür, Türklərin mədəni əlaqələrinin inkişafına xidmət edir. Bu jurnal türk dünyasında, xüsusilə Azərbaycanda baş verən hadisələri öz səhifələrində əks etdirir. Daha sonra jurnal bəyan edirdi ki, nəşr olunduğu müddətdə millətlərin Rusiya əsarətinə qarşı mübarizəsini öz səhifələrində əks etdirəcək. “Yeni Qafqasya” jurnalı azərbaycançılıq və türkçülüklə kifayətlənmirdi. Eyni zamanda Qafqazda gedən proseslərə münasibət bildirir və şərqdəki milli istiqlal hərəkatından öz səhifələrində bəhs edirdi. Jurnalın nömrələri müəyyən vasitələrlə Azərbaycana da çatdırılırdı. Bu mətbu orqanın redaksiya heyətinin üzvləri arasında Şəfi bəy Rüstəmbəyli, Xəlil Xasməmmədov, Əhməd Cəfəroğlu, Əmin Abid Gültəkin, Osman Xoca kimi tanınan imzalar yer alırdı. “Yeni Qafqasya” jurnalı 1927-ci ildə fəaliyyətini dayandırmaq məcburiyyətində qalsa da, jurnalın başlatdığı yol uzun müddət davam etdi. “Yeni Qafqasya”nın bağlanmasından sonra “Azəri-türk”, “Yaşıl yarpaq”, “Odlu yurd”, “Bildiriş”, “İstiqlal”, “Azərbaycan yurd bilgisi” ardıcıl olaraq nəşr edildi. Adı çəkilən mühacir mətbu orqanlarında Azərbaycanın istiqlalı ilə bağlı məsələlər geniş yer tuturdu. “Yeni Qafqasya” jurnalında publisistik məqalələrdə də azərbaycançılıq ideologiyası ilə yanaşı beynəlxalq münasibətlərdən də bəhs olunurdu. Jurnalın başlıca məq-

sədi AXC-nin ideyalarını yaşatmaq və dövlətin yenidən öz müstəqilliyini bərpa etməsi idi. Mühacirət mətbuatının Türkiyədən başlanın yolunun nəticəsi olaraq 1991-ci ildə Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdi.

# AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİNİ MƏSƏLƏSİNDƏ TÜRKİYƏ-AZƏRBAYCAN ƏMƏKDAŞLIĞININ ROLU

**Azər İsmayılzadə**
*AMEA A.A.Bakıxanov adına*
*Tarix İnstitutu, doktorant*
*e-mail:aismayilzada@pfg.ae*

Avropa Birliyi (AB) dövlətlərinin enerji təchizatı əsasən xarici dövlətlər hesabına təmin edilir. Təmin edilən enerji resurslarının əhəmiyyətli hissəsi etibarilə xarici dövlətlərdən asılılıq AB ölkələrini ortaq enerji siyasəti formalaşdırmağa sövq edən əsas səbəblərdəndir. Etibarlı və sərfəli enerji təchizatı Avropa iqtisadiyyatı üçün həyati əhəmiyyət kəsb edir. Lakin Avropa İttifaqı ölkələrinin öz ehtiyaclarını təmin etmək üçün demək olar ki, kifayət qədər enerji resursları yoxdur. Hazırda AB ölkələrinin neftə olan tələbatının 90, təbii qaza olan tələbatının isə 70 faizi idxal hesabına ödənilir. Enerji idxalının həyata keçirilməsi üçün AB xeyli variantlar işləyib hazırlamış və yenilərinin həyata keçirilməsi üçün işlər aparılmaqdadır. Əsas enerji mənbəyindən biri olan neft dünyanın müxtəlif bölgələrində mövcuddur və çevik şəkildə bütün dünyada satıla və nəql edilə bilinir. Təbii qazın təchizatı isə nisbətən fərqlidir və bu sahədə problemlər mövcuddur. Belə ki, təbii qaz adətən boru kəmərləri vasitəsilə idxal edilir. Həmin tipli kəmərlərin tikintisi üçün xeyli zaman və vaxt sərf edilir, onun istehsala verilməsi üçün illərlə vaxt lazım gəlir. Rusiya-Ukrayna müharibəsi başlayana qədər AB ölkələrinin təbii qaz idxalının təxminən 40 faizi yalnız bir təchizatçıdan − Rusiyadan təmin edilmişdir. Hətta daha çox bərpa olunan enerji təminatı ilə olsa belə, idxal olunan təbii qaz gələcək onilliklər ərzində AB-nin enerji kompleksində əsas olaraq qalacaqdır. Rusiya qazından asılılığı azaltmaq üçün Avropa nə qədər çətin olsa da, başqa təchizatçılar tapmağa çalışır. Bu məsələdə son zamanlar daha çox aktuallaşan Türkiyə vasitəsilə Avropa bazarlarına nəql olunan Azərbaycanın təbii qaz resurslarıdır.

Azərbaycan zəngin karbohidrogen yataqlarına malikdir. Ümumilikdə Xəzər hövzəsi neft ehtiyatlarının həcmi 203.2-257.7 milyard bareldir ki, bunun da 39-72 milyard bareli Azərbaycanın payına düşür. Xəzər regionunun təsdiqlənmiş qaz ehtiyatlarının həcmi 232 trilyon kub metrdir ki, bunun da 30 trilyon kub metri Azərbaycanın payına düşür. Təkcə Şahdəniz yatağındakı qazın həcmi 1.4 trilyon kub metr qiymətləndirilir.

Xəzər dənizi hövzəsi beynəlxalq və regional güclərin maraq dairəsinə daxil olmaqla mühüm geostrateji əhəmiyyət daşıyır və bunun da əsas hissəsini Azərbaycan və onun təbii sərvətləri təşkil edir. Hazırda Rusiya ilə Ukrayna arasında baş verən müharibə Avropa məkanının enerji təhlükəsizliyi məsələsində Xəzər hövzəsi karbohidrogen ehtiyatlarının əhə-

miyyətini daha da artırmışdır. Beləliklə, Azərbaycandan təmin edilən təbii qaz Avropanın enerji təminatında həlledici rola malik olacaqdır. Ukrayna ilə apardığı müharibə nəticəsində Rusiyaya tətbiq edilmiş embarqolar, o cümlədən də müharibənin getdikcə uzanması bunu söyləməyə əsas verir.

# AZƏRBAYCAN VİKİPEDİYASINDA "TÜRKİYƏ CÜMHURİYYƏTİNİN 100 İLLİYİNƏ" TÖHFƏ: YARADILMIŞ, ƏSASLI REDAKTƏ EDİLMİŞ YENİ MƏQALƏLƏR

**Xəyalə Məmmədli**
*AMEA Mərkəzi Elmi Kitabxanası*
*xayala.mammadli@gmail.com*

Bu gün dünyaya, Azərbaycan və digər dövlətlərlə bağlı tarixi həqiqətlərin çatdırılmasında mətbuatın, sosial şəbəkələrin oynadığı mühüm rolla yanı sıra "VİKİPEDİYA" elektron ensiklopediyasının rolu əvəzsiz və mühümdür. Bildiyimiz kimi, 23 oktyabr 1923-cü ildə qurulmuş Türkiyə Cümhuriyyətinin bu il qeyd olunan "100 illiyi" Azərbaycan vikipediyasında da istər Türkiyənin tarixi, bu tarixdə iz qoymuş siyasi və tarixi şəxsiyyətləri haqqında yaradılan yeni məqalələrlə öz əksini tapıb. Xüsusilə Türkiyə İstiqlaliyyət savaşında Mustafa Kamal Atatürklə çiyin-çiyinə mübarizə aparmış türk komandir, diplomatlarından "İsmət İnönü" və "Behiç Ərkin"in məqalələrini vurğulamalıyam. Qeyd etməliyəm ki, bu gün Azərbaycan tarixində çox az tanınan "Behiç Ərkin" haqqındakı araşdırmam "Cümhuriyyətin 100 illiyinə" ən böyük töhfələrimdən biridir. Belə ki, 1918-ci il 19 iyul-28 avqust tarixlərində hərbi polis və jandarma təşkilatını yaratmaq üçün Gəncəyə göndərilən Behiç bəy hazırladığı "Azərbaycan Jandarma Təşkilatının Nizamnaməsi"ni avqustun 3-də Azərbaycan Nazirlər Şurası sədri Fətəli Xan Xoyski və Hərbi Nazir müavini, Azərbaycan Xalq Cümhuriyyətinin hökumət üzvü İsmayıl xan Ziyadxanovla birgə imzaladı.

Behiç bəyin əvvəlindən imzalanana qədər hazırlayıb, yekunlaşdırdığı bu təşkilat Bakını Leninin təyin etdiyi erməni komissarı Stepan Şaumyanın başçılıq etdiyi Qırmızı Ordudan xilas etdi və şəhərin azərbaycanlılar tərəfindən alınmasını təmin etdi.

1918-ci il sentyabrın 15-də Bakıdakı idarə bu jandarma tərəfindən ələ keçirildikdən sonra təşkilatın qərargahı Bakıya köçürüldü. Atəşkəs razılaşması imzalanandan sonra o, İstanbula qayıtdı.

Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş məqalələr sırasına: "Abdullah Gül", " İsmət İnönü", "Cəlal Bayar", "Kənan Evrən", "Türkiyənin qadın nazirlərinin siyahısı", "Səlahəddin Ülkümən", "Rahşan Ecevit", "Türkiyədə yəhudilərin tarixi", "İstanbulun mühasirələrinin siyahısı", "Mərvə Kavakçı", "Tayyibə Gülək", "Səma Ramazanoğlu", "Fatma Şahin", "Səlma Aliyə Kavaf", "Əsma Sultan sarayı", "Kılıç Əli Paşa məscidi", "Yəhya Əfəndi türbəsi", "Memar Sinan tərəfindən tikilmiş cümə məscidlərinin siyahısı", "Sultan I Murad türbəsi", "Osman Şah məscidi", "Türkiyədəki saat qüllələrinin siyahısı", "Soyadı Qanunu", "İstanbuldakı sinaqoqların siyahısı", "Osmanlı imperiyasında mətbuat", "Karabaş Mustafa ağa məscidi" kimi bir çox məqalələr daxildir ki, bu məqalələr də Türkiyə tarixinin ən önəmli siyasi və tarixi hadisələrini özündə cəmləyir.

# MİLLİ MÜBARİZƏDƏN CÜMHURİYYƏTƏ TÜRK QADINI

**Arzu Dadaşova**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu, Türk filologiyası şöbəsi*

Türk tarixinin ən şanlı səhifələrindən biri olan Milli Mübarizə dövrü türklərin tarixində müstəqilliyin qazanılması, qorunması və Cümhuriyyətin yaranmasında milli mübarizə dastanlarından biridir.

Qurtuluş savaşı da adlandırılan türk tarixində yeni bir dövrün başlanğıcı olan və sonda Türkiyə Cümhuriyyətinin yaranması ilə nəticələnən bu dövrün hadisələri türk ədəbiyyatında ən çox müraciət olunan mövzulardan olmuşdur.

Milli Mübarizədən Cümhuriyyətə gedən yolda türk qadınının qəhrəmanlığı, fədakarlığı dillərə dastan olmuşdur. İzmirin Yunanlar tərəfindən işğalından sonra İstanbulda Sultan Ahmet meydanı daxil bir çox yerlərdə mitinqlər keçirilmiş və bu mitinqlərdə qadınların fəallığı diqqət cəlb etmişdir. Mediha Müzaffer, X.Ə.Adıvar Milli Mübarizə dövrünün fəal iştirakçılarından olmuşdur.

Türk qadının qəhrəmanlığı, yardımsevərliyi, fədakarlığı ədəbiyyatda K.Tahir, T.Buğra, B.Büyükarkın, S.Kocagöz, İ.Tarus, T.Apaydın kimi yazıçıların romanlarında öz əksini tapmışdır.

"Esir Şehrin İnsanları" romanında Milli Mübarizə tərəfdarı vətənpərvər qadın obrazlarından biri İhsan bəyin həyat yoldaşı Nədimə xanımdır. O, ərinin rəhbərlik etdiyi Karadayı dərgisində dərc olunan yazılarına görə həbsdə olması nəticəsində jurnalı idarə etmək vəzifəsini üzərinə götürür. Hamilə olduğu üçün bu işdə Kamil bəy ona kömək edir. O, ərinin bu jurnala görə həbsdə olmasına baxmayaraq, jurnalı çap etməyə davam edir.

Nədimə qadın olmasına baxmayaraq Kuvayı Milliyəçiləri öz ətrafında toplamağı bacarmışdır. Karadayı jurnalının redaksiyası Kuvayi Milliyəyə dəstək verən insanların, şairlərin, yazıçıların, ziyalıların, sadə insanların bir araya gələrək söhbət etdiyi, Anadoludan gələn müharibə xəbərlərini izlədiyi, müzakirə olunduğu məkana çevrilmişdir. O, hamını "Nədimə Bacı"nın ətrafında toplaya bilmişdir. "Nədimə Bacıda görüşərik", "Nədimə Bacıda idik", "Nədimə Bacıda yox idiniz" kimi ifadələr Kuvayı Milliyəçilərin dilindən düşmür. (1, s.121)

S.Kocagözün "Kalpaklılar" romanındakı Müjganı obrazı Milli Mücadilənin qorxmaz qadın qəhrəmanlarındandır. Onun simasında, Qurtuluş Savaşında Türk qadınının verdiyi azadlıq mübarizənin şahidi oluruq. Damat Fərid Paşanın katibinin qızı olan Müjgân, Kuvvacılara qoşulmaq vətəni, milləti üçün xidmət etmək istədiyini bildirir. (2, s.152) Bu yolda həyatını təhlükəyə ataraq dövlət sirlərini atasından öyrənərək Ankaraya bildirir. Mübarizənin arxa cəbhə qəhrəmanlarından olan Müjgan, Ankaraya gedib tibb bacısı olaraq çalışır. İngilislərin hücumu nəticəsində çox sevdiyi vətəni yolunda həyatını itirir.

# QARDAŞLIĞIN DAHA BİR İQTİSADİ TƏNTƏNƏSİ – STAR NEFT EMALI ZAVODU

**Gülnar Məmmədova**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu, kiçik elmi işçi*

Tarixi-mədəni əlaqələrə, qardaşlıq prinsipinə, strateji tərəfdaşlığa söykənən Azərbaycan-Türkiyə münasibətləri bütün sahələrdə olduğu kimi iqtisadi sahədə də uğurla inkişaf edir. Bu baxımdan Türkiyə və Azərbaycanın birgə iştirakı ilə həyata keçirilən bütün layihələr dost və qardaş xalqların milli maraqlarının əsasında dayanır. Hər iki ölkənin birliyinin, etibarlılığının göstəricilərindən biri olan Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən (SOCAR) Türkiyənin İzmir şəhərinin Əliağa bölgəsində inşa olunan STAR Neft Emalı Zavodu (NEZ) ikitərəfli əməkdaşlığın miqyasını genişləndirmiş, energetika sahəsində qarşılıqlı fəaliyyətin əlaqələndirilməsini yaxşılaşdırmışdır. Təməli 2011-ci il oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə qoyulan, ümumi investisiya dəyəri 6,3 mlrd. ABŞ dolları təşkil edən, hər iki ölkənin dövlət başçılarının iştirakı ilə 2018-ci ilin 19 oktyabr tarixində açılışı olan STAR NEZ-da ildə 10 mln. ton xam neftin emalı nəzərdə tutulmuşdur.

STAR NEZ SOCAR-ın Azərbaycandan kənarda inşa etdiyi ilk neft emalı zavodudur ki, bu da şirkətin biznes portfelini şaxələndirmək məqsədi ilə xaricdə həyata keçirdiyi layihələrdən biridir.

Məlumdur ki, 1984-cü ildən bəri Türkiyədə inşa olunan ilk neft emalı zavodu olan STAR NEZ uzun müddətdən sonra ölkənin ağır sənaye sahəsinə ilk investisiyadır və bu baxımdan çox önəmlidir.

İqtisadçı ekspertlərin fikrincə, STAR həm də əsas payı SOCAR-a məxsus Türkiyənin yeganə neft-kimya kompleksi olan "Petkim"i xammalla təmin edəcək, bununla yanaşı, Türkiyə bazarında getdikcə artan dizel və təyyarə yanacağı tələbatının bir hissəsini qarşılayacaq, cari kəsirin azalmasına hər il 1,5 mlrd. dollarlıq töhfə verəcək, Türkiyənin neft məhsullarına olan tələbatının 25%-dən çoxunu təmin edəcəkdir.

"STAR" NEZ 2020-ci ildə "Türkiyənin 500 Ən Böyük Sənaye Müəssisəsi" araşdırmasında 6-cı yerə, EBSO-nun "Egey Bölgəsinin 100 Ən Böyük Sənaye Müəssisəsi" siyahısında isə 1-ci yerə layiq görülmüş, 2021-ci ildə rəqəmsal və sənaye 4.0 texnologiyalarının yaratdığı dəyərə görə Dünya İqtisadi Forumunun qabaqcıl istehsal müəssisələrini özündə birləşdirən "Global Lighthouse" şəbəkəsinə daxil edilmişdir. Beləliklə, "STAR" NEZ dünyada bu mükafatı alan ilk neft emalı zavodu olmuşdur.

Hər iki ölkə liderlərinin bütün sahələrdə olan əlaqələrin inkişafı üçün göstərdiyi böyük səy nəticəsində belə qənaətə gəlmək olar ki, STAR NEZ Türkiyədə enerji və neft sektorunun inkişafına, həmçinin Türkiyə və Azərbaycan arasındakı qardaşlıq və dostluğun daha da möhkəmlənməsinə, işsizliyin həllinə, enerji təhlükəsizliyinin təminatına töhfə verəcəkdir.

# CÜMHURİYYƏT DÖVRÜ TÜRK UŞAQ ƏDƏBİYYATI

**Samirə Səfərova**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu, Türk filologiyası*
*şöbəsi, kiçik elmi işçi*
*Samire_1980@mail.ru*

Türkiyədə uşaq ədəbiyyatı müzakirələrinin tarixi yenidir. XVIII əsrin ortalarında Qərbdə uşaq və gənclər ədəbiyyatı yaranmağa başladığı halda, XIX əsrin sonlarına qədər türk uşaq ədəbiyyatı yazılmamışdır. Buna baxmayaraq, Şinasinin La Fonteyndən (1856) "Qurd və Quzu nağılı" və Əhməd Lütfinin Daniel Defoun "Robenson hekayəsi"nin (1864) tərcümələri ilə müasir türk uşaq ədəbiyyatının başladığını iddia edənlər də vardır.

Yuxarıda işarə etdiyimiz kimi türk ədəbiyyatında "Tənzimat dövrü"nə qədər uşaqlar üçün nəşrlər olsa da, şifahi ədəbiyyat nümunələri (nağıllar, lətifələr, tapmacalar, laylalar, xalq nağılları, qaragöz oyunları, atalar sözləri, və s.) ön plandadır. Tənzimatdan əvvəlki dövrdə uşaqlar üçün yazılmış və ya böyüklər üçün yazıldıqdan sonra uşaq ədəbiyyatına daxil olmuş əsərlər haqqında bu gün dolğun və dəqiq məlumat yoxdur.

Günümüzdə Türkiyə ədəbi və elmi mühitində uşaq ədəbiyyatının tərifi və mənası ilə bağlı hələ də yekdil fikir yoxdur. Xüsusilə Cümhuriyyət dövrünün 1970-ci illərindən sonra müzakirələrlə gündəmə gələn "uşaq ədəbiyyatı" və ədəbiyyat arasındakı fərq haqqında istər ədəbiyyat adamları, istərsə də akademik nəşrlərdə müxtəlif fikirlər səsləndirilmişdir. Məsələn, Ziya Gökalp uşaqlar üçün ayrıca ədəbiyyata ehtiyac olmadığını düşünürdü. İsmail Hakkı Baltacıoğluna görə "Uşaqlar üçün xüsusi ədəbiyyat ola bilməz. Belə ki uşaqlar üçün xüsusi yemək, xüsusi hava, xüsusi bir dil olmadığı üçün uşaqda insandır və şəxsiyyət olmağa namizəddir." Bu səbəbdən "Uşağın ehtiyacları böyük insanlardakı kimi olmalıdır". Nurullah Ataç bu ayrı-seçkiliyə ilk qarşı çıxanlardan olub. Ataç uşaqlar üçün yazılan kitabların böyüklər üçün yazılanlardan fərqli olmasını müdafiə etmir, uşaqların oxuyacaqları kitabların böyüklər üçün yazılanlar arasından seçilməsini təklif edir. Yaşar Kamal da Çexova bu mövzuda sual verib: Böyüklər və uşaqlar üçün ayrı dərmanlar varmı? O, "Uşaqlar üçün ancaq ölçülər dəyişir" deyimini xatırladaraq, ədəbiyyatın ayrıca bir formasının olmasını qəbul etməsə də, uşaqlar üçün yazılanların başqa olduğunu bildirir. Erdal Öz bu mövzuda uşaq və böyüklər ədəbiyyatı arasında fərq qoyulmasının əleyhinədir.

İşarə etdiyimiz müzakirələrə baxmayaraq cümhuriyyət dövründə uşaqlara lazımi dəyər və əhəmiyyətin verilməsi uşaq ədəbiyyatı üçün mühüm əhəmiyyət kəsb edirdi. Bu dövrün ən mühüm şair və yazıçılarını Faruk Nafiz Çamlıbel, Rakım Çalapala, Mahmut Yesari və Həsən Əli Yücel saymaq olar. Uşaq kitablarında Reşat Nuri Güntekin, Mahmut Yesari, Peyami Safa, Kəmaleddinin Tuğcu kimi yazarlar ön plana çıxıb. Əflatun Cem Güneyin "Açıl sofram açıl" və "Dədə Qorqud Nağılları" əsərlərinə görə də "Dünya uşaq ədəbiyyatı fəxri sertifikatı" mükafatına layiq görülüb.

# CÜMHURİYYƏTİN ELANI: DİL DEVRİMİ

**Gülnisə Səmədova**
*AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,*
*Türk Filologiyası şöbəsinin kiçik elmi işçisi*

Cümhuriyyətin elanından sonra Atatürk "etimologiya" və "filologiya-linqvistika" üzrə tədqiqatlar aparması üçün 12 iyul 1932-ci ildə Türk Dili Tədqiq Cəmiyyətini (indiki Türk Dil Qurumu) yaratdı. Türk Dil Qurumunun  yaradılmasının məqsədi uzun müddət dilin tərkib hissəsi olan ərəb və fars dillərinin qrammatik xüsusiyyətlərini, eləcə də bu dillərdən götürülmüş minlərlə sözü türkcədən silmək idi. Ancaq qurumun təsisçiləri arasında yalnız bir iki nəfər dilçi idi, digər üzvlər müxtəlif sahələrdən idilər. Türkcənin bütün məsələlərini müzakirə etmək üçün qurultay təşkil edilməli idi. Beləliklə, Türk Dil Qurumu yaradılandan üç ay sonra Birinci Dil Qurultayı toplandı. Qurultayda TDQ-nun iş prinsipləri belə müəyyən edildi; türk dilinin qrammatikası hazırlamaq; türkcənin şəkilçiləri araşdırmaq; Türkcə lüğət, terminlər lüğəti hazırlamaq; Türk dilinin tarixi qrammatikasını yazmaq; Hind-Avropa, Şumer və Het (Eti) dilləri ilə müqayisələr aparmaq;  xarici ölkələrdə türkcə ilə bağlı araşdırmaları türk dilinə tərcümə edilərək nəşr etmək; türkcədəki xarici mənşəli sözlərin türkcə qarşılığını tapmaq. Birinci Qurultayın keçirildiyi tarix olan 26 sentyabr 1932-ci il Dil Devriminin başlanğıc tarixi kimi qəbul edilmişdir. İkinci Dil Qurultayı 18 avqust 1934-cü ildə keçirilmişdir. Qurultayda terminlərin türk mənşəyindən götürülməsi razılaşdırılmışdır. Əgər bu mümkün olmasa, terminləri birbaşa Qərb dillərindən deyil; Bu dillərin öz mənbə dillərindən götürülərək türk dilinin səs quruluşuna uyğunlaşdırılması təklif edilmişdir. 1936-cı ildə isə Üçüncü Dil Qurultayı toplandı. Bu Konqresin əsas mövzusu Günəş Dili Nəzəriyyəsi idi.[4] Lakin Atatürkün ölümündən sonra Günəş-Dil Nəzəriyyəsi gündəmdən düşdü və türkcənin sadələşdirilməsi yenidən sürətləndirilmişdir.

Ərəb və fars sözlərinin yerinə yüzlərlə qərb mənşəli fransız, alman, ingilis və italyan sözləri alınmışdır. Dövlət tərəfindən həyata keçirilən bu müdaxilələr zamanı rəsmi dövlət dilinə (terminlərə) çoxlu uydurma sözlər də daxil edilmişdir. Digər türk ləhcələrində işlədilən ərəb mənşəli  sözlər uydurma kəlimələr ilə dəyişdirilmişdir. (Məsələn Cavab=yanıt, əhəmiyyət= önəm, xəyal=imge, ehtiyac=gereksinim, miras=kalıt, məsələ=sorun, ehtimal=olası, rəsmi=kamusal, şərt=koşul, şəhər=kent, təbiət=doğa, tələb=istem və s.) Dilin türkcələşdirilməsi o qədər ifrat səviyyəyə çatmışdır ki, həm nəsillərarası ünsiyyət, cəmiyyətdaxili anlaşma, həm də xarici türklərin ləhcələrindəki söz birliyi pozulmuşdur.

---

[4] Günəş Dili Nəzəriyyəsi türk dilinin dünya tarixində ilk dillərdən biri olduğunu müdafiə edən bir dil nəzəriyyəsidir. Nəzəriyyə 1930-cu illərdə Mustafa Kamal Atatürkün özü tərəfindən dəstəklənmiş və inkişaf etdirilmişdir.

Dildə saflaşmanın tərəfdarları ilə dilin təbii şəkildə inkişaf etməli olduğunu iddia edən-lər arasında sərt mübahisələr yaşanırdı. 1980-ci ildən sonrakı illərdə dil müzakirələri azaldı və müzakirələrin mərkəzində olan Türk Dil Qurumu, 11.08.1983-cü il tarixli Qanunla qurulan Atatürk Ali Dil və Tarix Qurumunun damı altına alınıb, 2876 Konstitusiyasının 134-cü maddəsinə uyğun olaraq akademik quruluşa çevrilmişdir.

# TÜRK ROMANINDA MODERNİZM VƏ POSTMODERNİZMİN DELİMİTASİYASI

**Aytən Tağıyeva**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu,*
*Türk filologiyası şöbəsinin kiçik elmi işçisi*
*ayten.reshidli@gmail.com*

XX əsrin I yarısında insan mərkəzli dünya yaratmağa çalışan, insanı dünyanın ən dəyərli varlığı hesab edən modernizm kapitalizm cəmiyyətində uzun ömür sürə bilmədi. Çünki daha çox Qərbdə özünü göstərən modernizm hər iki dünya müharibəsinin mərkəzi olan ərazidə – insan dəyərlərinin məhv olduğu və günü-gündən irəliləyən kapitalist cəmiyyətdə inkişaf edə bilməzdi. Dar coğrafi sahədə təşəkkül tapmış modernizm tez bir zamanda yerini tənqidi və maarifçi yönü ilə özünü göstərən, plürealist düşüncəyə sahib postmodernizmə verdi.

XIX əsrdə Tənzimat dövründə mədəni dəyişim ilə əlaqədar əsası qoyulan türk roman janrının dünya ədəbiyyatında yaranma tarixi XVII əsrə qədər gedib çıxırdı. Böyük tarixi yol keçmiş mədəni, sosial-iqtisadi və s. tərəfdən hər gün inkişaf edən Qərb toplumunda roman dəyişimi zəruri idi. Buradan aydın olur ki, dünya ədəbiyyatında üç əsrlik yol keçmiş roman janrında olan bütün dəyişikliklər türk ədəbiyyatında bir əsr ərzində baş vermişdir.

Yıldız Ecevit, Berna Moran kimi ədəbiyyat nəzəriyyəçilərinin elmi əsərlərindən aydın olur ki, türk ədəbiyyatında postmodernist xüsusiyyətlərin olduğu roman yazarları Oğuz Atay, Orxan Pamuk, Həsən Ali Toptaş, Mətin Kaçan, Lətifə Tekin, Bilgə Karasu, Murad Gülsoy, Əlif Şəfəq, Səma Kaygusuz, İhsan Oktay Anar, Sürəyya Evrəndir. Türk ədəbiyyatında modernizm XX əsrin ikinci yarısında yaranmış və postmodernizmlə paralel inkişaf etmişdir. Yuxarıda adı çəkilmiş çağdaş dövr yazarlarının bəzilərinin yaradıcılığında eyni zamanda həm modernist, həm də postmodernist əsərlər vardır. Elə bu səbəbdən də, türk romanının realizm, romantizm və daha sonralar modernizmdən postmodernizmə qədər olan keçid yolu o qədər də asan olmamışdır.

Postmodern mətn çoxmənalıdır və həmin mətnlərin sonsuz interpretasiya imkanları mövcuddur. Bu xüsusiyyət imkan verir ki, postmodernizm özündən əvvəlki bütün fəlsəfələrlə, eləcə də modernizmlə, varislik əlaqəsi yaratsın. Türk ədəbiyyatında postmodernizm modernizmlə yanaşı inkişaf etdiyinə görə bu iki fəlsəfə arasında mütləq çizgi çəkmək doğru olmaz.

# AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ "ŞUŞA BƏYANNAMƏSİ"

**Aynur Qasımova**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu, baş mütəxəssis*
*aynur86_edu@yahoo.com*

Tarixən dostluq, qardaşlıq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə münasibətləri bu gün də hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq siyasi, iqtisadi-ticari, humanitar, hərbi və digər sahələrdə daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdə, ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynamaqda və müsbət nəticələr verməkdədir.

15 iyun 2021-ci ildə Şuşada imzalanmış Bəyannamə Azərbaycan-Türkiyə münasibətlərinin tarixində iki qardaş ölkənin milli maraqlarını yeni müstəviyə çıxaran tarixi, siyasi önəm və xüsusi əhəmiyyət daşıyır.

"Şuşa Bəyannaməsi"nin məhz Azərbaycan xalqının Qurtuluş günü – 15 iyun tarixinə və Qarabağ, Zəngəzur üçün çox vacib sayılan Qars müqaviləsinin 100-cü ildönümünə təsadüf etməsinin əlbəttə xüsusi rəmzi mənası vardır. Şuşa Bəyannaməsinin imzalanmasından sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxış etmişlər. Çıxışında Azərbaycan Prezidenti cənab İlham Əliyev hər kəsin yadına Qars müqaviləsini salaraq demişdir: "Birgə Bəyannamədə tarixi Qars müqaviləsinə istinad edilir. Tarixi Qars müqaviləsi düz 100 il bundan əvvəl imzalanmışdır. Bu da böyük rəmzi məna daşıyır. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir."

Tam əminliklə demək olar ki, Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış "Şuşa Bəyannaməsi" bütün dünyanın barışmalı olduğu tarixi gerçəklikdir.

Bəyannamədə xüsusi diqqəti çəkən məqamlardan biri təbii olaraq hərbi sahədə əməkdaşlıq və müttəfiqliklə bağlıdır ki, bu da bu gün Ermənistandakı revanşist qüvvələrdən tutmuş, ayrı-ayrı qonşu və qeyri-regional dövlətlər üçün çox mühüm ismarıcdır.

Bəyannamədə xüsusilə tarixi türk torpağı Zəngəzur dəhlizinin adının hallanması tarixi gerçəkliyi və hədəfləri göstərən mühüm amildir. Bəyannamə bütün sahələrdə (milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılması, malların sərbəst hərəkətinin təşkili, Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi,

ümumi problemlər qarşısında birlikdə addımların atılması və ardıcıl həmrəylik göstərilməsi, Azərbaycan-Türkiyə Media Platformasının imkanları çərçivəsində iki ölkənin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahəsində əməkdaşlığın daha da gücləndirilməsi və s.) Azərbaycanla Türkiyə arasındakı münasibətlərin qardaşlığını və qətiyyətini özündə ehtiva edir.

Siyasi şərhçilərin də xüsusi vurğuladığı kimi bölgənin geosiyasi mənzərəsini dəyişəcək Azərbaycan və Türkiyə dövlətləri arasında bütün sahələrdə inteqrasiyanın nümunəsi olan "Şuşa Bəyannaməsi" region üçün yeni tarixi gerçəklik deməkdir.

# TÜRKİYƏ – AZƏRBAYCAN ƏLAQƏLƏRİ (TƏHSİL SAHƏSİNDƏ)

**Çimnaz Abdullayeva**
*BDU (Tələbə)*
*cimnazabdullayeva98@gmail.com*

Ulu öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir". Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsi ilə əsaslı təmələ sahib olan ölkələrimizin əlaqələri daha da inkişaf etdirilməkdədir.

Türkiyə 9 noyabr 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətdir. İki ölkə arasında diplomatik əlaqələr 14 yanvar 1992-ci ildə qurulmuşdur.

Azərbaycanın Türkiyədə səfirliyi 1992-ci ilin avqust ayında açılmışdır. 1993-cü ilin yanvar ayında İstanbul şəhərində 12 aprel 2004-cü il tarixində isə Qars şəhərində Azərbaycanın Baş konsulluqları təsis edilmişdir. Türkiyənin Bakıda Səfirliyi və Naxçıvan və Gəncə şəhərlərində Baş Konsulluqları fəaliyyət göstərməkdədir.

Biz ölkə olaraq qardaş ölkənin dəstəyini hər zaman hiss etmişik. Xüsusilə II Qarabağ müharibəsi zamanı .Ölkələrimiz arasında hərbi , iqtisadi, siyasi , mədəni və elmi əlaqələrin inkişafı gələcəkdə hər iki türk dövlətinin iqtisadi və siyasi cəhətdən regionun aparıcı dövlətinə çevriləcək.

Birgə Azərbaycan – Türkiyə universitetinin yaradılması hər iki ölkə arasında elmi inkişafın gələcək perspektivinə müsbət təsir edəcək. Tarixi köklərə və qardaşlığa söykənən hər zaman həmrəylik nümayiş etdirən Azərbaycan və Türkiyə arasında siyasi, iqtisadi-ticari, humanitar, hərbi və s .bütün sahələrdə çox uğurla inkişaf etməkdədir. İki dövlətin rəhbərlərinin müntəzəm xarakter almış qarşılıqlı səfərləri ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynamaqda və müsbətlər nəticə verməkdədir.

Türkiyə ilə Azərbaycan arasında diplomatik əlaqələrin səviyyəsi təkcə bu iki qardaş ölkənin mənafeyinə xidmət etmir, həm də regional və beynəlxalq sülhə və rifaha ciddi töhfə verir. 26 oktyabr 2021-ci ildə Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə Zəngəzur dəhlizinin Horadiz-Cəbrayıl – Zəngilan-Ağbənd avtomobil yolunun təməli qoyulub. Həm geosiyasi, həm də iqtisadi əhəmiyyət kəsb edən Zəngəzur dəhlizi Naxçıvan üzərindən Azərbaycanla − Türkiyəni dəmiryol və avtomobil yolları ilə bir-birinə bağlayacaq. Bu yolla Türkiyə ilə Türk dünyasının süni şəkildə qırılmış tarixi bərpa olunacaq.

## MÜNDƏRİCAT

**Gövhər Baxşəliyeva**
Tarixin bütün sınaqlarından uğurla çıxan Türkiyə Cümhuriyyəti – 100 ....................................3

**Rəna Mirzəzadə**
Azərbaycan-Türkiyə əməkdaşlığında İlham Əliyev və R.T.Ərdoğan dostluğu
beynəlxalq münasibətlərdə siyasi modeldir ......................................................................4

**Cavid Qasımov; Nezahat Demir**
Rıza şah Pehlevi'nin Türkiye seferi ......................................................................................6

**Nurhan Aydın; Perihan Aksu**
Kafkas islam ordusu və Enver Paşa ......................................................................................7

**Zemfira Hacıyeva**
Türkiyə tarixşünaslığında Qarabağ problemi.........................................................................9

**Ramilə Dadaşova**
Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə iqtisadi əlaqələrinin
milli köklər üzərində qurulmasında Heydər Əliyevin rolu .......................................................10

**Turgay Bülent Göktürk**
Kıbrıs türklerinin Anadolu'daki milli mücadeleye desteği.......................................................11

**Елена Аркадьевна Кудрицкая**
Роль Co-Op Education model в обеспечении практикоориентированности обучения.......12

**Дмитрий Иванович Наумов**
Роль нематериального культурного наследия в сохранении
тюркской культурной памяти ..........................................................................................14

**Faiq Ələkbərli**
Türkiyə Cümhuriyyətinin quruluş və inkişaf fəlsəfəsi: tarix və çağdaşlıq ................................16

**Səriyyə Gündoğdu**
Almaniyada türk mühacirət ədəbiyyatının yazıçılarına görə kateqoriyalara ayrılması .............18

**Barat Osmanova**
Cümhuriyyətin ilk illərində Türk-Azərbaycan ədəbi və elmi əlaqələri .....................................19

**Fərqanə Hüseynova**
Azərbaycan–Türkiyə mədəni əlaqələrinin inkişafında Atatürk Mərkəzinin rolu ......................20

**Yaqub Səmədov; Ədalət Quliyev**
Türkiyə ilə Azərbaycan arasında ilk diplomatik münasibətlərin yaradılmasında Mustafa Kamal Atatürkün rolu ........................................................................22

**Səbinə Nemətzadə**
Cümhuriyyətin ilk dönəmində Türkiyə-SSRİ diplomatik münasibətlərində Y.Z.Suritsin fəaliyyəti ........................................................................24

**Rafiq Səfərov**
Образование Турецкой Республики в условиях катастрофических территориально-демографических потерь ........................................................................26

**Mahir Səlimov**
Müsəlman şərqinin ilk xalq cümhuriyyətləri:
Azərbaycan və Türkiyənin dünya demokratiyasına töhfələri ........................................................................28

**Günay Verdiyeva**
Görkəmli alim Cavad Heyətin türkologiya sahəsinə verdiyi töhfə ........................................................................30

**Eminalp Malkoç**
Türkiye'de cumhuriyet'in ilanını görseller üzerinden okumak ........................................................................32

**Владимир Михайлович Ивашко**
Оценка потенциала инновационности университетов Турции ........................................................................34

**Oleh Kupchyk; Natalia Zub Rudenko**
Soviet-Turkish Financial and Military-Technical Cooperation in the Early 1920s ..................36

**Namiq Abbasov**
Azərbaycançılıq və türkçülük Vətənə xidmətin təzahürü kimi ........................................................................38

**Rəna Rzayeva**
Türkiyədə təsəvvüf ........................................................................39

**Baxış Ələsgərov; Araz Əliyev**
Türkiyənin hərb tarixinin qəhrəmanlıq səhifəsi ........................................................................41

**Namiq Məmmədov**
Ədalət və İnkişaf Partiyasının hakimiyyəti dövründə Türkiyənin siyasi və sosial-iqtisadi inkişafı (2002-2015) ........................................................................42

**Seymur Süleymanov; Maya Abdullayeva**
Türkiyə ədəbiyyatının Nazim Hikmət zirvəsi ........................................................................44

**Vüqar Məmmədov**
Türkiyə Cümhuriyyətinin 100 ili Azərbaycan türkoloqlarının tədqiqatlarında ........................45

**Aybəniz Həsənova**
Azərbaycan ədiblərinin əsərlərində türkçülük ideyası ........................................................47

**Sübhan Talıblı**
Beynəlxalq və regional təşkilatlar çərçivəsində İran-Türkiyə əməkdaşlığı ..............................48

**Yaxşıxanım Nəsirova**
Türkiyə Cümhuriyyətində İstanbulda fəaliyyət göstərmiş əcnəbi məktəbləri ..........................51

**Ülkər Səmədova**
Yakup Kadri Karaosmanoğlunun əsərlərində orientalizmin təsiri............................................52

**Mirzə Ənsərli**
SSRİ-nin hərbi və mülki kəşfiyyat orqanları əməkdaşlarının Türkiyə
Respublikasında fəaliyyətləri (1917 – 1991) .........................................................................54

**Bəşarət Bəşirova**
M.K.Paşa Atatürk və onun şedevr əsəri Türkiyə Cümhuriyyəti ..............................................55

**Ceyhun Ağayev**
Azərbaycan diasporunun formalaşmasında və inkişafında türk diasporu
ilə əməkdaşlığın rolu ...............................................................................................................57

**Zülfiyyə Vəliyeva Önlen**
1918-1922-ci illərdə Osmanlı və Qacar Dövlətləri arasındakı
ictimai-siyasi problemlərə dair Osmanlı arxiv sənədləri ........................................................59

**Cavanşir Məmmədzadə**
Müasir dövr Türkiyə türk və fars poeziyalarında çağdaşlaşma prosesi ....................................60

**Ülkər Baxşiyeva**
Yunus Emre sanatının tasavvuf şiirinde yeri ..........................................................................62

**Nəzrin İsmayılova**
Bir dənizin iki sahili: Azərbaycan, türk dili ..............................................................................63

**Cəmil Quliyev**
Azərbaycan–Türkiyə münasibətləri dəmir yumruq ətrafında sıx birləşib.................................64

**Aynur Bədəlova**
Türk ədəbiyyatının görkəmli şairi ............................................................................................65

**Mehman Ağayev**
Atatürkün prezidentliyi dövründə Türkiyədə Millli Müdafiə Sənayesinin inkişafı..................67

**Elnarə Məmmədova**
Sovyet-türk kültürel ilişkileri 1920'lerde – 30'larda.................................................................69

**Hicran Nadirova**
XX əsrin əvvəllərində Türkiyə Cümhuriyyəti mədəniyyətinin rus tədqiqatçıları tərəfindən öyrənilməsi ........................................ 70

**Aytən Abbasova**
Yəhya Kamal poeziyasında milli birlik və milli kimlik məsələsi ........................................ 71

**Günel Yunusova**
Türk sənətkarlarının publisistika və tərcümə nümunələri “Füyuzat” jurnalında ........................................ 73

**Emiliya Xəlilova**
Qədim Türklərdə “Dövlət” anlayışı ........................................ 75

**Xanım Abdullayeva**
Cümhuriyyət dövrü türk ədəbiyyatında dramatik növ ........................................ 77

**Gülşən Həmidli**
Xətib Təbrizi türk alimlərinin əsərlərində ........................................ 78

**Игорь Леонидович Десюкевич**
Практикоориентированность обучения в технических университетах Турции ........................................ 79

**Ülviyyə Eminova**
Əbdülhaq Hamid Tarhan dramlarının mövzu təsnifatı ........................................ 81

**Faidə Omarova**
Türkiyə Cümhuriyyəti dövründə dilə olan münasibət ........................................ 83

**Aygül Mirzəyeva**
Cumhuriyet döneminin türk düşünce yapısında oluşan “Vatan” konseptine etkisi ........................................ 84

**Arzu Məmmədzadə**
Mustafa Kamal Atatürk və Namiq Kamal poeziyası ........................................ 86

**İbrahim Bağırov**
Əbu Nəsr Fərabi ət-Türki (873-950) və ruhun ölümsüzlüyü məsələsi ........................................ 87

**Xəzər Zeynalov**
Azərbaycan heykəltəraşlığında Atatürk obrazı ........................................ 89

**Ülvi Mikayılov**
“Yeni Qafqasya” jurnalının nəşrində Türkiyənin mühüm rolu ........................................ 91

**Azər İsmayılzadə**
Avropanın enerji təhlükəsizliyinin təmin məsələsində Türkiyə-Azərbaycan əməkdaşlığının rolu ........................................ 93

**Xəyalə Məmmədli**
Azərbaycan vikipediyasında "Türkiyə Cümhuriyyətinin
100 illiyinə" töhfə: Yaradılmış, əsaslı redaktə edilmiş məqalələr. ............................................95

**Arzu Dadaşova**
Milli mübarizədən Cümhuriyyətə türk qadını.........................................................................96

**Gülnar Məmmədova**
Qardaşlığın daha bir iqtisadi təntənəsi – "Star" neft emalı zavodu............................................97

**Samirə Səfərova**
Cümhuriyyət dövrü türk uşaq ədəbiyyatı..............................................................................99

**Gülnisə Səmədova**
Cümhuriyyətin elanı: Dil devrimi ........................................................................................100

**Aytən Tağıyeva**
Türk romanında romantizm və postmodernizmin delimitasiyası...............................................102

**Aynur Qasımova**
Azerbaycan-Türkiyə münasibətlərində "Şuşa" bəyannaməsi ...................................................103

**Çimnaz Abdullayeva**
Türkiyə Azərbaycan əlaqələri (təhsil sahəsində) ....................................................................105

Formatı: 60x84 1/8
Həcmi: 14 ç.v.
Sifariş:3
Tirajı: 200

Qiyməti müqavilə əsasında

Red N Line MMC tərəfindən hazır diapozitivlərdən
istifadə olunmaqla çap edilmişdir.